AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

RAİSƏ CƏFƏROVA

# MƏRKƏZİ ASİYA RESPUBLİKALARINDA AZƏRBAYCAN DİASPORUNUN TƏŞƏKKÜLÜ VƏ FƏALİYYƏTİ TARİXİ

BAKI – 2019

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

**Layihə rəhbəri:** **Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*AMEA-nın həqiqi üzvü,*
*Dövlət Mükafatı laureatı*

**Elmi redaktor:** **Məryəm Seyidbəyli**
*Tarix üzrə elmlər doktoru*

**Rəyçilər:** **Həsən Əlibəyli**
*prof., tarix üzrə elmlər doktoru,*
**Sevinc Ruintən**
*Tarix üzrə fəlsəfə doktoru*

**Raisə Cəfərova. Mərkəzi Asiya respublikalarında Azərbaycan diasporunun təşəkkülü və fəaliyyəti tarixi.**
Bakı, "Turxan" NPB - 2019, 172 səh.

*Kitabda Mərkəzi Asiya respublikalarında Azərbaycan diasporunun təşəkkülü və fəaliyyəti tarixi kompleks şəkildə araşdırılmışdır. Müxtəlif tarixi mənbələrə əsaslanan müəllifin bu əsərinin özü təqdim olunan mövzu ilə bağlı tarixi həqiqətləri bilmək istəyən tədqiqatçılar üçün yeni bir mənbəyə çevrilmişdir. Kitab eyni zamanda geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

$$R\frac{4702000000-017}{(TNP)-2019}$$

© Raisə Cəfərova, 2019

**“Sərhədlər?**

**Heç vaxt sərhəd tanımamışam.**

**Amma eşitmişəm ki, sərhədlər bəzi insanların düşüncəsindədir...”**

**Tur Heyerdal**

# GİRİŞ

Müasir Azərbaycan milli tarixşünaslığı üçün elmi və siyasi əhəmiyyət kəsb edən problemlərdən biri dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporunun tarixinin tədqiqi məsələsidir. Bu çox mühüm elmi problem olaraq ölkənin xarici siyasətində xüsusi istiqamət təşkil edir.

Miqrasiya prosesləri demək olar ki, dünyanın bütün xalqlarının həyatında bu və ya digər dərəcədə rol oynamışdır. Təbii şərait, sosial, siyasi, iqtisadi və digər amillər miqrasiya proseslərinin əsas səbəbi hesab olunur. Tarixin müxtəlif vaxtlarında miqrasiyaların səbəbləri, xarakteri də müxtəlif olmuşdur. Belə ki, əgər qədim dövrdə insanlar münbit torpaq əldə etmək və ya təbii fəlakətlərdən qorunmaq üçün daha əlverişli ərazilərdə məskunlaşmaq məqsədilə miqrasiya edirdilərsə, sonrakı dövrlərdə daha çox işğalçılıq müharibələri, müstəmləkəçilik, siyasi tədbirlər, millətçilik kimi neqativ hallar və yaxud, iqtisadi, sosial mənşəli problemlər insanların miqrasiyasına səbəb oldu. Müasir dövrümüzdə beynəlxalq münasibətlərin vacib elementinə çevrilmiş diaspor anlayışı məhz miqrasiya proseslərinin nəticəsi olaraq meydana gəlmişdir.

"Diaspor" anlayışı hərfi mənada "səpələnmək", "yayılmaq", "miqrasiya etmək" deməkdir. Bu mənada Azərbaycan diasporunun yaşı qədim dövrdən başlamışdır. Lakin müasir beynəlxalq hüquqi anlamda (yəni müəyyən etnosun hər hansı bir səbəbdən vətənindən kənarda məskunlaşması və təşkilatlanması anlamında) Azərbaycan diasporunun yaşı XX əsrdən daha əvvələ getmir.

Diaspor problemi ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. T.ü.e.d. M.Seyidbəylinin fikrincə, diasporun yaranma və inkişaf tarixinin analizi belə nəticə çıxarmağa imkan verir ki, onun əsas əlaməti insanların öz ölkələrindən kənarda etnik cəmiyyət qura bilməsidir. Məhz öz vətənlərindən ayrılmaları

faktı olmadan bu fenomenin mövcudluğundan danışmaq olmaz. Eyni zamanda diaspor digər xalq içərisində yaşayan hər hansı bir xalqın sadəcə bir hissəsi deyildir. Etnik icma kimi o, öz xalqının milli şəxsiyyət “cizgilərini” daşıyır. Beləliklə, diaspor – eyni etnik mənsubiyyətə malik olub, öz inkişafı üçün ana etnosdan kənarda sosial institutlarını yaradan müəyyən bir qrup insanın sabit birliyidir. Yalnız assimilyasiyaya davamlı etnoslar diaspor yaratmaq qabiliyyətinə malikdirlər [145, 21].

Müasir dövrdə diaspor sözü bir çox elmi dairələrdə müxtəlif şəkildə izah edilir. Onun sosial bazasını müəyyənləşdirmək üçün qaçqınlar, əmək emiqrantları, milli azlıqlar kimi terminlərdən (anlayışlardan) istifadə edilir. Bir sözlə söhbət bu və ya digər səbəbdən öz tarixi vətənlərini tərk etmiş etnosun üzvlərindən gedir.

Hər bir dövlətin milli maraqlarının dünyanın istənilən nöqtəsində layiqincə qorunması üçün həmin ölkənin orada güclü ideoloji bazaya malik diasporu olmalıdır. Diasporun əsas məqsədi mənsub olduğu xalqın maraqlarını yaşadıqları ölkədə təbliğ etməkdir. Müasir dünya siyasətində diasporların müstəsna rolu var və onlar dövlətlərin xarici siyasətində mühüm yer tuturlar. Sovet hakimiyyətinin imperialist siyasəti nəticəsində Azərbaycan xalqı dəfələrlə müxtəlif ölkələrə, o cümlədən Mərkəzi Asiya respublikalarına “səpələnmişlər”. SSRİ-nin dağılması və soyuq müharibənin qurtarması ilə dünyanın siyasi xəritəsində yeni müstəqil dövlətlər meydana gəldi. Mərkəzi Asiya regionunda beş müstəqil dövlət – Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan respublikaları meydana gəldi. Bu ərazilərdə mühacir həyatı yaşayan soydaşlarımız azad respublikaların vətəndaşları olaraq təşkilatlanmağa başladılar.

“Azərbaycan diasporu” və ya “xaricdə yaşayan azərbaycanlılar” anlayışları ilə bağlı “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda qeyd edilmişdir. Qanuna əsasən, bu anlayış “Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına,

əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş və hazırda Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edən şəxslərə aid edilir" [159].

4 milyon $km^2$ ərazini, 55 milyondan çox əhalini özündə birləşdirən Mərkəzi Asiya regionunda mövcud olan respublikalardan Tacikistan istisna olmaqla digərləri türk respublikalarıdır. Tarixi bağlılıq, eyni soya, eyni kökə malik olmağımız, Mərkəzi Asiya respublikaları ilə sıx əlaqələr qurmaq və bu regionda güclü diaspora sahib olmaq üçün ciddi səbəblərdir. Məhz bu amilləri nəzərə alsaq tədqiq olunan mövzunun son dərəcə aktual olduğu aydınlaşar.

Dünyanın heç bir xalqı xalqımız kimi yeni ilə həmrəylik, birlik, vətənpərvərlik ruhunda qədəm qoymur. Bütün xalqlar bu bayramı ancaq təqvimin dəyişməsi ilə əlamətdar bayram kimi qeyd edirlər. Dünyada ilk dəfədir ki, bu bayram hansısa xalqı milli birliyə, həmrəyliyə səsləyir. 1991-ci il dekabrın 16-da 31 dekabrın Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü olması haqqında qərarı məhz Heydər Əliyev imzalamışdır (həmin vaxt Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri idi).

Bu gün Azərbaycan diasporu təşkilatlanma mərhələsini başa vurduğu üçün növbəti yeni dövr üçün yeni vəzifələrin müəyyənləşdirilməsi, daha mütərəqqi praktik layihələrin hazırlanması və həyata keçirilməsi zərurəti meydana çıxmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dünya azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 8 fevral 2006-cı il tarixli Sərəncamında bu vacib məqam da öz əksini tapmışdır: "Diaspor quruculuğu konkret bir dövrlə məhdudlaşmayan, strateji əhəmiyyətə malik, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Elə buna görə də bu sahədə qazanılmış nailiyyətləri və qarşıda duran vəzifələri vaxtaşırı müzakirə etməyə ehtiyac yaranır" [40].

Azərbaycan diasporunun təşkilatlanması kimi, onun elmi araşdırmalara cəlb olunması da son dövrləri əhatə edir. Keçmiş sovet məkanında, eyni zamanda Azərbaycanda diaspor mövzusu SSRİ-nin süqutundan sonra geniş tədqiq olunmağa başlanılmışdı. Azərbaycan diasporunun müxtəlif aspektləri ilə bağlı Y.Mahmudovun, Ə.Həsənovun, M.Seyidbəylinin, C.Qiyasinin, Ç.Qacarın, A.Tahirlinin, S.Əliyevanın, C.Cəfərovun, Ə.Ələkbərovun, V.Həbiboğlunun, Q.Paşayevanın, Z.Əliyevin, V.Arzumanlının, E.Məmmədovun və başqa alimlərin monoqrafiyaları, məqalələri çox əhəmiyyətlidir.

- Müasir Azərbaycan tarixşünaslığında diaspor probleminin nəzəri əsaslarını və mahiyyətini elmi dövriyyədə ilk dəfə işıqlandıran müəlliflər olan akademik Y.Mahmudov və t.ü.e.d. M.Seyidbəylinin kitabları xüsusilə qeyd edilməlidir. Hər iki müəllifin birgə elmi redaktorluğu ilə buraxılmış "Azərbaycan diasporu: tarix və nəzəriyyə" [83] və ayrıca Y.Mahmudovun redaktorluğu ilə çap olunmuş "Dünya azərbaycanlıları: tarix və müasirlik" [84] adlı kitabı bu sahənin öyrənilməsinə layiqli töhfədir.
- Əli Həsənovun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlı əsərində xarici ölkələrdə yaşayan azərbaycanlıları dövlətin demoqrafik resursları sırasına aid etməklə yanaşı, həm də onların Azərbaycanın xaricdəki imicinin qorunmasında əvəzsiz rola malik olduqları vurğulanmışdır [67].
- Tədqiqata cəlb olunmuş digər kitablardan biri də Vaqif Arzumanlının "Azərbaycan diasporu" adlı kitabıdır. Əsərdə dünyanın müxtəlif bölgələrinə (o cümlədən Mərkəzi Asiya respublikalarına) səpələnmiş həmvətənlərimizin ictimai-siyasi, iqtisadi və mədəni həyatı barədə geniş məlumatlar toplanmışdır. Azərbaycanda diaspor mövzusunda yazılan ilk kitablardan biri kimi qiymətli mənbə hesab olunsa da qeyd etmək lazımdır ki, kitabın dilində publisistikanın üstünlük təşkil etməsi və istinad olunan mənbələrin bəzən redaktə olunmadan, olduğu kimi verilməsi hallarına da əsərdə rast gəlinir.
- Sevinc Ruintənin "Azərbaycan türk dövlətləri ilə əlaqələr

sistemində" adlı monoqrafiyası mövzunun tədqiqi üçün qiymətli mənbədir. Kitabda SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa etmiş respublikamızın digər türk respublikaları ilə qarşılıqlı əlaqələri, bu sahədə mövcud olan problemlər və onların həlli yolları haqqında ətraflı və dolğun məlumatlar, analitik təhlillər geniş yer almışdır [107].

- Cəfər Qiyasinin "Yaxın uzaq ellərdə" kitabı XIV-XV əsirlərdə Mərkəzi Asiyada yaşayan və öz fəaliyyətləri ilə Mərkəzi Asiyanın memarlıq tarixində silinməz izlər qoymuş azərbaycanlı memarlar haqda maraqlı faktlarla zəngindir [35].

- Çingiz Qacarın "Azərbaycanın görkəmli şəxsiyyətləri" adlı kitabında toplanmış materiallar da dissertasiya işində tədqiqata cəlb olunmuşdur. Belə ki, kitabda Azərbaycandan Mərkəzi Asiyaya miqrasiya etmiş və orada yaşayıb fəaliyyət göstərmiş istedadlı şair, musiqiçi, memar, elm xadimləri və s. azərbaycanlılar haqqında ətraflı məlumatlar yer almışdır [37].

- Sadıq Sadıqov özünün "Tarixin qan yaddaşı" kitabında repressiya illərində Mərkəzi Asiyaya sürgün olunmuş azərbaycanlılar haqda qiymətli materiallar toplanmışdır. Kitabın özünəməxsus cəhətlərindən biri də onun Daxili İşlər Nazirliyinin arxiv materialları əsasında yazılmasıdır [115].

- Repressiya illərini olduğu kimi işıqlandırmaq istiqamətində nəinki tarixçilər, eyni zamanda bu materialların qorunub saxlandığı arxivlərdə işləyən ziyalılar, arxiv əməkdaşları da çox aktiv fəaliyyət göstərmişlər. Bunlara nümunə olaraq Şəfiqə Məmmədovanın "Soyqırım analardan başlanır" kitabını göstərmək olar. Bu kitabda repressiyaya məruz qalmış 3022 qadının siyahısı tərtib olunaraq ictimaiyyətə təqdim olunmuşdur. Şəfiqə Məmmədova repressiyalar haqqında fikirlərini şərh edərək qeyd etmişdir: "Sürüklənən bəşəriyyət qadınla yüksələcək" deyən böyük Cavidin özünü və onun qarşısında ehtiramla baş əydiyi Azərbaycan qadınını güllələyən, zindanlarda, sürgünlərdə çürüdən rejimin yalnız bir məqsədi vardı: "Azərbaycan xalqının azadlıqsevər ruhunu sarsıdaraq, qəlbindəki müstəqillik ideyalarını boğmaq" [93].

- Uzun müddət tarixin bu qara səhifələri xalqdan gizli saxlanılmış, lakin xalqımızın ikinci dəfə müstəqillik qazanması bu səhifələrə işıq salmağa imkan verdi. Repressiya qurbanlarına qarşı qaranlıq zindanlarda həyata keçirilən dəhşətli istintaqlar, qəddarcasına çıxarılan hökmlərdən bəhs edən yazılar qalın-qalın qovluqlardan elmi ədəbiyyatlara, mətbuata, dərsliklərə köçürülməkdədir. Belə qiymətli tarixi elmi əsərlərdən biri akademik Ziya Bünyadova məxsusdur. Gərgin əməyin nəticəsi olaraq arxivlərdən toplanmış materiallar əsasında yazılmış "Qırmızı terror" adlı bu kitab repressiya siyasətini əks etdirən faktlarla zəngindir [33].

- Azərbaycanlıların Mərkəzi Asiya respublikaları ilə münasibətlərinin (1960-1980-ci illər) işıqlandırılmasında tarix üzrə fəlsəfə doktoru Ə.Ələkbərovun silsilə məqalələri də diqqətə layiqdir. Məhz buna görə də müəllif dissertasiyanın tədqiqində bu məqalələrdən geniş surətdə bəhrələnmişdir.

- Z.Əliyevin "Türkdilli xalqların diasporları" kitabında nəinki Azərbaycan diasporunun fəaliyyəti, eyni zamanda Türk, Qazax, Qırğız, Özbək, Türkmən diasporları haqda maraqlı faktlar toplanmışdır [57].

Dissertasiya işində istinad olunan tədqiqatçılardan biri də Emin Məmmədovdur. Onun "Azərbaycan diasporunun formalaşması və inkişafında dövlətin rolu" adlı dissertasiyasında mühacirətin səbəbləri, diaspor anlayışının etimologiyası, Azərbaycan dövlətinin diaspor siyasəti, bu siyasətin xüsusiyyətləri, həyata keçirilməsi mexanizmi və inkişafı tendensiyaları geni şərh olunmuşdur [87].

- Qənirə Paşayevanın "Azərbaycan dövlətinin xarici siyasətində diaspor problemi" adlı dissertasiyasında müasir Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasında milli diaspor quruculuğu problemi, Azərbaycan və digər türk diasporlarının əməkdaşlıq strategiyası, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması konsepsiyası haqda qiymətli materiallar toplanmışdır [105].

- Vəli Həbiboğlunun "Azərbaycan diasporu yeni mərhə-

lədə" adlı kitabında Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan diasporunun qurucusu olması, Azərbaycan diasporunun təşəkkül tarixi, formalaşması və fəaliyyəti haqda maraqlı məlumatlar öz əksini tapmışdır [66].

Diaspor problemini müxtəlif aspektlərdən izah edə bilmək üçün tədqiqatçı tərəfindən Qərb tədqiqatçılarının əsərlərinə də müraciət olunmuşdur. Məsələn: Qərb alimlərindən olan A.Brahın fikrincə diaspor anlayışının mərkəzində yerdəyişmə, köç anlayışı durur. Baxmayaraq ki, hər belə prosesi köçürülmə kimi xarakterizə etmək olmaz. Onun açıqlamalarına görə diasporlar icma qruplarının uzun müddətli, çox zaman da daimi formalaşması yeridir. Onun üzvləri və ailələri digər yerlərə köçsələr belə o öz mövcudluğunu saxlayırlar [152, 276].

Digər bir Qərb alimi V.Safran "Diasporas in modern societies" adlı kitabında diaspora xas xüsusiyyətləri "ideal tip" adı altında təqdim edir və diasporların bu meyarlara uyğun gəlməsinin vacibliyini vurğulayır. Bu cür yanaşma müasir anlamda bütün diasporlara şamil oluna bilməz və zənnimizcə, düzgün yanaşma deyil [155, 83-84].

Qərb müəllifi E.Şayn hesab edir ki, diaspor anlayışında siyasi komponentlər daha dominantdır. Bu prinsipin əsas yanaşması sərhədlər ideyasıdır. Belə ki, yalnız ana etnosdan kənarda yaşayan milli azlıqlar diaspor adlana bilər. E.Şayn həmçinin diaspor anlayışında siyasi komponentlərin dominantlıq təşkil etməsinə görə "siyasi diaspora" anlayışını təklif edir [156, 287-322].

Diasporun dolğun xarakteristikasını verməyə çalışan xarici müəlliflərdən biri də Y.Platonovdur. Müəllifə görə: "Diaspora deyəndə – özünün tarixi vətəni və ərazilərindən kənarda, özünün etnik qrup xarakteristikasını itirmək istəməyən və məcburən yaşadığı dövlətin yerdə qalan əhalisindən fərqlənən və eyni zamanda o ölkənin qaydalarına riayət etmək məcburiyyətində qalan etnik qrup deməkdir" [138, 406].

Rus alimi V.Levin hesab edir ki, diaspor yalnız müəyyən "kritik kütlələrin" mövcudluğu ilə mümkün ola bilər. O qeyd

edir ki, diasporda olan xalqlar miqrantların adaptasiya prosesi zamanı azalır [133, 21].

V.Levinə görə diaspor universal təkamül sxeminə malik olub 4 mərhələyə bölünür: konqlomerat, strukturlaşma, dolğun cəmiyyət və tənəzzül. Müəllifin fikrincə, diasporlar özünə-məxsus etnomədəni əlamətləri, davranış stereotipləri və mentaliteti olan sosial qruplardır. Bununla yanaşı, diasporda etnik kütlələrə məxsus olan stereotiplərin parçalandığını müşahidə etmək olar [133, 109].

A.Avksentyev hesab edir ki, diaspora yalnız institutlaşmış şəkildə deyil, eyni zamanda təbii və tarixi yolla yaranmışdır" [126, 7]. Dabaq və Plattın diaspor haqqında yanaşmaları daha fərqlidir. Müəlliflər diasporu spesifik taleyüklü hadisə kimi yox, bəzi kollektiv istiqamətləri və ictimai İnstitutları yarada bilən ictimai model kimi nəzərdən keçirir [146, 15].

Tədqiqat zamanı Diasporlarla İş üzrə Dövlət Komitəsinin nəşrlərindən, cari arxiv materiallarından və illik hesabat sənədlərindən, geniş surətdə istifadə olunmuşdur. Bunlardan "Azərbaycan diaspor təşkilatları üçün sənədlər və məlumatlar toplusu", "Dünya azərbaycanlılarının II qurultayı", "Qurultaya hesabat" (Dünya azərbaycanlılarının III qurultayı) və başqalarını qeyd etmək olar. 2012-ci ildə Azərbaycan Respublikası Diasporlarla İş üzrə Dövlət komitəsinin yaradılmasının onuncu ildönümü münasibətilə nəşr olunmuş "Azərbaycan Diasporu" (Ensiklopedik məlumatlar toplusu) adlı kitab xüsusilə diqqətə layiqdir. Diasporla maraqlanan geniş oxucu kütləsi və tədqiqatçılar üçün nəzərdə tutulmuş bu kitab qiymətli mənbə hesab oluna bilər.

Bütün bu mənbələr, kitablar və s. problemin tam mənzərəsini yaratmağa və dəqiq araşdırmalar aparmağa imkan vermişdir. Lakin bütün bunlarla bərabər, bu əsərlərin heç biri bizim qarşıya qoyduğumuz problemi tarixi baxımdan kompleks halında tədqiq etməmişdir.

Tədqiqat işində qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün çoxlu sayda mənbələrə müraciət edilmiş, mövcud tarixi

ədəbiyyatlardan, Azərbaycan Respublikası Diasporlarla İş üzrə Dövlət komitəsinin nəşrlərindən, Qazaxıstan, Özbəkistan və Qırğızıstan respublikalarında fəaliyyət göstərən diaspor təşkilatlarının Cari arxiv materiallarından, illik hesabat sənədlərindən, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin materiallarından, Mərkəzi Asiya respublikalarında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının saytlarından, Xarici İşlər Nazirliyinin Arxiv sənədlərindən və bir sıra dövlət qurumlarının saytlarından, həmçinin mətbuat materiallarından geniş məlumat toplanmışdır.

2008-ci ilin dekabr ayında Bakı şəhərində Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının toplantısı keçirildi. Bu toplantıda Dünya Azərbaycanlılarının II Qurultayının qərarına uyğun olaraq xarici ölkələrdə yaşayan azərbaycanlıların birliyinin ideoloji prinsiplərini müəyyənləşdirən, diasporumuzun qarşısında duran tarixi vəzifələri özündə əks etdirən, Azərbaycançılıq ideologiyasının fundamental prinsiplərinə əsaslanan vahid bir konsepsiya – "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" adlı mühüm bir tarixi sənəd qəbul olunmuşdur. Bu sənəd də qiymətli bir mənbə kimi tədqiqata cəlb olunmuşdur.

İstifadə olunmuş bütün bu mənbələr tədqiqat obyekti kimi götürülən problemin müxtəlif cəhətlərini əks etdirir və əhəmiyyətinə görə də fərqlənirlər. Onların hamısının tədqiqata cəlb edilməsi, ayrı-ayrı mənbələrdə olan məlumatların sistemləşdirilməsi problemin tam mənzərəsini yaratmağa və dəqiq araşdırmalar aparmağa imkan vermişdir.

Tədqiqatın məqsədi tədqiqatın obyekti olan Mərkəzi Asiya Respublikalarında Azərbaycan Diasporunun təşəkkülü və fəaliyyəti problemini tədqiq etməkdir. Bununla əlaqədar olaraq tədqiqatın qarşısında duran vəzifələr aşağıdakılardan ibarətdir:

- Azərbaycanlıların Mərkəzi Asiya regionuna miqrasiya səbəblərini və dövrlərini araşdırmaq;
- Mərkəzi Asiya regionuna miqrasiya etmiş azərbaycanlıların bu regionda yaranmış müstəqil dövlətlərdə diaspora çevrilmələrini, onların təşkilatlanmaları prosesini tədqiq etmək;

- Mərkəzi Asiya respublikalarında Azərbaycan diaspor təşkilatlarının fəaliyyətini tədqiq etmək;

- Dünya miqyaslı diasporların fəaliyyətini nəzərdən keçirərək Mərkəzi Asiya respublikalarında Azərbaycan diaspor təşkilatlarının fəaliyyətini qiymətləndirmək;

- Mərkəzi Asiya respublikalarında Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin səmərəli təşkili, perspektivləri ilə bağlı konkret təklif və tövsiyələr vermək.

Dissertasiyada ilk dəfə olaraq azərbaycanlıların XX əsrdə Mərkəzi Asiyaya miqrasiyasının əsas səbəbləri illər üzrə ümumi şəkildə aşağıdakı kimi izah olunmuşdur.

1920-1930-cu illərdə Sovet hakimiyyətinin müxtəlif bəhanələrlə həyata keçirdiyi sürgünlər, repressiyalar;

1940-cı illərin ortalarından başlayaraq Mərkəzi Asiyada neft sənayesinin yaranması və inkişafında azərbaycanlıların əməyindən və təcrübəsindən istifadə məqsədi ilə peşəkar neftçi həmvətənlərimizin həmin ölkələrə daimi və ya mövsümi xarakterli işlərə göndərilməsi (Onu da qeyd edək ki, bu proses 1960-cı illərdə də davam edirdi);

1950-ci illər xam və dincə qoyulmuş torpaqlardan istifadə zamanı azərbaycanlıların əməyindən və təcrübəsindən istifadə məqsədi ilə həmvətənlərimizin həmin ölkələrə daimi və ya mövsümi xarakterli işlərə göndərilməsi;

1970-1980-ci illərin əvvəllərində elmi mübadilə, Mərkəzi Asiya ölkələrində təhsil alan azərbaycanlıların sayının artması;

1980-ci illərin sonu – 1990-cı illərdə Azərbaycanda baş verən siyasi, iqtisadi gərginliyin nəticəsi olaraq yaranan işsizlik problemi ilə əlaqədar olaraq həmvətənlərimizin bir qismi Mərkəzi Asiya ölkələrinə üz tutdular.

Tədqiqatın elmi yeniliyi həm də problemin qoyuluşu ilə müəyyən edilir və aşağıdakı müddəalarda əks olunur:

- Mərkəzi Asiya regionunun ayrı-ayrı respublikalarında azərbaycanlıların məskunlaşması haqqında hansısa bir dövrü əhatə edən tədqiqatlar olsa da bu regionun bütün respublikalarında azərbaycanlıların məskunlaşması ilk dəfə məhz bu

dissertasiyanın tədqiqat obyektinə çevrilmişdir;

- Mərkəzi Asiya respublikalarında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının fəaliyyətləri ilk dəfədir ki, elmi-tarixi dövriyyəyə gətirilmişdir;
- Mərkəzi Asiya respublikaları ilə ölkəmiz arasında münasibətlərdə diasporun yeri və rolu araşdırılmışdır;
- Digər xalqların, xüsusilə türk xalqlarının diaspor təşkilatları ilə əməkdaşlığı zəruri edən amillər təhlil olunmuşdur;
- Mərkəzi Asiya respublikalarında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının fəaliyyətindəki nöqsanlar göstərilmiş və onların aradan qaldırılması yolunda tövsiyələr verilmişdir;
- Mərkəzi Asiya respublikalarında Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin səmərəli təşkili, perspektivləri ilə bağlı tövsiyələr verilmişdir.

Diaspor probleminin kompleks halında öyrənilməsi, bu sahədə bir sıra elmi-nəzəri və siyasi məsələlərin həllinə səy göstərilməsi, Azərbaycan diasporunun mövcud durumunun təhlil edilərək konkret təkliflərin irəli sürülməsi kitabın elmi-praktik əhəmiyyətini artırır və mövzu üzrə mövcud olan boşluqların müəyyən qədər doldurulmasına imkan yaradır. Mərkəzi Asiya respublikalarında Azərbaycan diasporunun səmərəli fəaliyyəti üçün kitabın nəticə hissəsində verilən təkliflərin diaspor təşkilatları tərəfindən nəzərə alınması faydalı olardı.

# I FƏSİL. MƏRKƏZİ ASİYA RESPUBLİKALARINDA AZƏRBAYCAN DİASPORUNUN TƏŞƏKKÜLÜ

## 1.1. Azərbaycanlıların Mərkəzi Asiya regionunda məskunlaşması tarixindən (qədim dövrdən -1920-ci ilə qədər)

Mərkəzi Asiya Respublikalarında Azərbaycan diasporunun tarixi haqqında yazarkən ilk növbədə qeyd etmək lazımdır ki, o uzun tarixi proseslərin nəticəsi kimi meydana gəlmişdir. Mərkəzi Asiya xalqları ilə Azərbaycan xalqının ortaq meyarları təkcə qardaş türk xalqları olması ilə kifayətlənmir, eyni zamanda tarixin bir çox vaxtlarında onlar həm də bir dövlətin tərkibində birləşmişlər. Belə ki, b.e.ə. VI-IV əsrlərdə mövcud olmuş Əhəmənilər imperiyası həm Mərkəzi Asiya, həm də Azərbaycan torpaqlarını işğal edərək öz tərkibinə qatmışdır. E.ə. 330-cu ildə Makedoniyalı İsgəndər Əhəməni imperiyasına son qoydu və onun tərkibində olan bütün torpaqları, o cümlədən Mərkəzi Asiya (e.ə. 329) və Azərbaycan torpaqlarını da öz hakimiyyəti altında birləşdirdi. Beləliklə, iki əsr eyni bir dövlətin tərkibində olmaq bu xalqların tarixi, siyasi, mədəni və iqtisadi əlaqələrinin daha intensiv inkişafına səbəb olmuşdur. Mərkəzi Asiya regionunda azərbaycanlıların tədricən məskunlaşmasının başlaması da elə bu əsrlərə təsadüf edir.

Həm Mərkəzi Asiya regionu, həm də Azərbaycan torpaqları strateji baxımdan çox əlverişli mövqeyə malik olduqlarından qədim, tarixi İpək yolu hər iki ərazidən keçmişdir. Bu da öz növbəsində miqrasiyaların baş verməsinə zəmin yaratmışdır.

630-cu ildə dünya tarixində özünəməxsus yer tutan, Şərqin ən qüdrətli dövlətlərindən biri olan Ərəb Xilafəti meydana gəldi. Məhəmməd Peyğəmbərin rəhbərlik etdiyi Xilafət ilk ərəb dövləti olmaqla yanaşı İslam dininin əsas dayağına çevrildi.

642-ci ildə Nəhavənd və Həmədan döyüşlərində Sasanilər üzərində qələbə çalan Xilafət ordusu daha sonra Azərbaycan torpaqlarının işğalına başladı. VII əsrin sonu – VIII əsrin əvvəllərində Xilafət ordusunun işğalları nəticəsində İslam dini Azərbaycanda da hökmran dinə çevrildi [34, 7]. Yerli əhali müsəlman sivilizasiyasının inkişafı prosesində fəal iştirak etməyə başladı. İslam dininin yayılması, bu ölkələrdə elm və mədəniyyətin inkişafı onlarca azərbaycanlı mütəfəkkirin Yaxın və Orta Şərqin bir çox şəhərlərinə axınına səbəb olmuşdur. Bir sıra tədqiqatçılar (Qənirə Paşayeva və s.) bu axın prosesini əslində Azərbaycan diasporunun yaranmasının hərfi mənada, yəni "səpələnmək" anlamında başlanması hesab edirlər [105, 31].

Bəşəriyyətin görkəmli təbiblərindən biri olan İbn Sina (980-1037) Mərkəzi Asiyada yaşayıb-yaratmışdır. O, hələ sağlığında "Hüdcətül-Haqq" (həqiqət carçısı), "Şeyx-ür-Rəis" (böyük, müdrik), "Harami-buzurq" (dahi təbib), "Şərəf-ül-Mülk" (ölkənin ən şərəfli insanı) və sair kimi böyük titullar qazanmışdır. Onun "Tibb ensiklopediyası" (4 cildlik), bir sıra fəlsəfi kitabları, astronomiya və metafizikaya aid əsərləri bütün dünyada, o cümlədən Azərbaycanda məşhur olmuşdur. İbn Sina azərbaycanlı filosof Bəhmənyar Əbülhəsənin (993-1066) müəllimi olmuşdur. Mənbələrin məlumatına görə, bir gün İbn Sina dəmirçixanada olarkən bir cavan oğlanın gəlib dəmirçidən od istədiyini görür. Dəmirçi ona deyir ki, xəkəndazı gətir, od verim. Cavan oğlan əyilib ovcunu torpaqla dolduraraq deyir ki, budur mənim xəkəndazım. Söhbətin şahidi olan İbn Sina oğlanın biliyinə heyran qalaraq onu özünə şagirdliyə dəvət edir və beləliklə, Şərqin iki böyük filosofunun tərcümeyi-halı bir-birinə bağlanır. Bəhmənyarın "Təhsil kitabı", "Məntiqə dair zinət kitabı", "Gözəllik və səadət kitabı", "Musiqi kitabı", "Metafizika elminə aid traktat" və s. kimi qiymətli əsərləri Mərkəzi Asiya məktəblərində geniş yayılmışdı [92, 36].

IX əsrdə Ərəb xilafətinə daxil olan ölkələri bürüyən azadlıq hərəkatı bu dövlətin tənəzzülünün əsasını qoydu. Xilafətin bir sıra əmirliklərində müstəqil feodal dövlətlər yaranmağa

başladı. Həmin dövrdə Azərbaycanda yaranan feodal dövlətlərdən biri də Sacilər dövləti idi. Sacilər dövlətinin əsasını Afşin ləqəbini daşıyan, əslən Mərkəzi Asiyanın Usruşana vilayətinin qədim türk nəsillərindən olan Sacilər (898-941) qoymuşdular. Məşhur sərkərdə Afşin Heydər ibn Kavus bu nəsildən idi.

XI əsrin ortalarında Yaxın və Orta Şərqin tarixində mühüm dönüş başlamışdır. Mərkəzi Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər əraziləri əhatə edən Böyük Səlcuq imperiyası yarandı. Bu imperiya Yaxın və Orta Şərqdə eyni zamanda Qafqaz regionunda türk tayfalarının gücünün, nüfuzunun artmasını təmin etdi.

XIII əsrin əvvəllərində Mərkəzi Asiyanın şərqində güclü hərbi qüdrətə malik Monqol dövləti qonşu ölkələr üçün ciddi təhlükə yaratdı. Çingiz xanın (1206-1227) yaratdığı Monqol dövləti geniş işğalçılıq yürüşləri nəticəsində qısa müddətdə geniş ərazilərə sahib oldu. Monqol yürüşləri ərəfəsində Azərbaycan ərazisində vahid, mərkəzləşmiş dövlət olmadığından ölkədə feodal çəkişmələri hökm sürürdü. Azərbaycanda Atabəylər (Eldənizlər) və Şirvanşahlar dövlətləri mövcud idi. Marağada isə rəvvadilər nəslindən olan Ağsunqurilər sülaləsi hökm sürürdü. Eldənizlər dövləti XII əsrin sonunda əvvəlki qüdrətini itirmişdi. Atabəylərin sonuncu hökmdarı Özbək (1210-1225) də feodal qruplarının əlində oyuncağa çevrilmiş, dövlət işləri onun iştirakı olmadan həll olunurdu. 1220-ci ildən başlayaraq Azərbaycan torpaqlarına üç dəfə böyük yürüş təşkil edən monqollar bu ərazinin işğalını başa çatdırdılar. 1258-ci ildə beşinci monqol ulusu – Hülakilər (Elxanilər) dövlətinin əsasını qoydular. Monqolların Azərbaycan torpaqlarına yürüşləri nəticəsində minlərlə ailənin zorla Orta Asiyaya köçürülməsi barədə tarixi mənbələrdə, eyni zamanda Azərbaycan folklorunda xeyli faktlara rast gəlmək olar [21, 9]. Görkəmli tarixçi Ə.Əlizadənin "XIII-XIV əsrlərdə Azərbaycanın sosial iqtisadi və siyasi tarixi" adlı əsərində də bu haqda maraqlı məlumatlar vardır [52].

Azərbaycanın və Türküstanın böyük hissəsinin də tərkibində yer aldığı Hülakilər (Elxanilər) dövlətinin zamanında

iqtisadi, siyasi o cümlədən, mədəni sahədə də qarşılıqlı əlaqələr daha da sıxlaşır. Həmin əlaqələr Elxanilərin ən monumental xatirə tikililərində – Təbriz yaxınlığındakı Qazan xan və Sultaniyyədəki Olcaytu xan türbələrinin memarlıq obrazında çox qabarıq əks olunmuşdur. Belə ki, Elxanilər dövlətinin vəziri Fəzlullah Rəşidəddinin verdiyi məlumata görə, hər iki türbə Türkmənistanın XII əsrə aid məşhur abidəsi olan Sultan Səncər türbəsinin təsiri altında inşa edilmişdir [35, 54].

XIII əsrin görkəmli azərbaycanlı alimi, riyaziyyatçı və astronomu Xacə Nəsirəddin Tusi Mərkəzi Asiyanın bir çox şəhərlərində olmuş və ümumbəşəri sivilizasiya xəzinəsinə öz töhfələrini vermişdir. 1259-cu ildə Marağada Nəsirəddin Tusinin rəhbərliyi ilə tikilmiş rəsədxana Ürgənc və Rey rəsədxanaları əsasında yaradılmışdır. Marağa rəsədxanası astronomiya elminin inkişafına, eləcə də Səmərqənddəki Uluqbəy və Pekin rəsədxanalarının elmi fəaliyyətinə müsbət təsir göstərmişdi. N.Tusinin (1201-1274) "Əxlaqi-Nasir" əsəri Mərkəzi Asiya məktəblərində əxlaq dərsliyi kimi şöhrət qazanmışdır [144, 83].

XIII əsrdə Mərkəzi Asiyada məşhur olan azərbaycanlılardan biri də Səfiəddin Ürməvi olmuşdur. O, istedadlı musiqiçi və mahir xəttat idi [144, 82].

1370-ci ildə Əmir Teymurun (1370-1405) rəhbərliyi ilə Mərkəzi Asiyada Teymurilər dövlətinin meydana gəlməsi ilə memarlıq mərkəzi Elxanilərin paytaxtı olan Təbrizdən Teymuri imperatorluğunun paytaxtı Səmərqəndə köçdü.

Onu da qeyd etmək lazımdır ki, bir sıra sənətkarlar Teymurun Azərbaycana yürüşündən əvvəl Orta Asiyaya köç etmiş və Səmərqənd şəhərinin ən məşhur memarlıq komplekslərinin tikintisində iştirak etmişlər. Belə sənətkarlardan biri də Fərrux Ziyaəddin Təbrizi olmuşdur. O, "Şah-i-Zində" memarlıq kompleksinə daxil olan Əmir Teymurun bacısı Turkan xanımın 1372-ci ildə qızı Şadi-Mülk xanım üçün tikdirdiyi türbənin memarı olmuşdur. Abidənin üstündə üç sənətkarın adı oxunur. Onlardan biri öz imzasını "Fərrux Ziyaəddin Şəms Təbrizinin əməli" sözləri ilə abidənin giriş tağının altına həkk etmişdir.

Digər belə sənətkarlardan biri də Əmir Teymurun doğma şəhəri Şəhr-Səbzdə 1380-ci ildə tikilən Ağsaray kompleksinin müəllifi azərbaycanlı memar Məhəmməd Yusif Təbrizi idi. Bu sənətkarın imzası ("Aciz bəndə... Məhəmməd Yusif Təbrizinin əməli") da inşa etdiyi abidənin baş tağında həkk olunmuşdur [35, 41].

Bu abidəni XVII yüzillikdə görən səyyahların məlumatına görə Ağsarayın hündürlüyü 50 metrə çatan baştağının lap yuxarısında yerləşən bir kitabədə belə yazılmışdır: "Bizim gücümüzə və böyüklüyümüzə şübhə edirsənsə, ucaltdığımız binalara bax!". Əlbəttə bu sözlər Əmir Teymurun qüdrətini nümayiş etdirmək məqsədi ilə yazılmışdır. Lakin bununla yanaşı bu sözlər həm də Məhəmməd Yusif Təbrizi kimi istedadlı azərbaycanlı memarların qüdrətini nümayiş etdirir [35, 42].

1385-1386-cı illərdən etibarən Əmir Teymurun torpaqlarımıza yürüşləri nəticəsində bir çox bacarıqlı sənətkarlar, memarlar, xəttatlar ailələri ilə birlikdə Mərkəzi Asiyaya aparılmış Səmərqənd şəhərində yerləşdirilmişdir. Səmərqənd şəhərinin orta əsrlərin gözəl və möhtəşəm memarlıq abidələri ilə zəngin şəhərlərindən birinə çevrilməsində azərbaycanlı sənətkarların rolu danılmazdır. Belə ki, bu abidələrdə həmin dövrün Azərbaycan memarlığına aid xüsusiyyətlər açıq-aydın görünür. 1935-ci ilin sentyabrında Leninqrad (indiki Peterburq) şəhərində Ermitaj muzeyində keçirilən incəsənət sərgisinin ən böyük maraqla qarşılanan eksponatı bürüncdən düzəldilmiş nəhəng tiyan olmuşdur. Tiyanın üzərində yazılmışdır ki, onu 1399-cu ildə Teymurun əmri ilə Təbrizli ustad Şərafəddinin oğlu usta Əbd əl-Əziz Təbrizi düzəltmişdir. Təəssüflər olsun ki, Əbd əl-Əziz Təbrizinin həyatı haqqında hələlik heç bir məlumat aşkar olunmamışdır. Yalnız onun atası Şərəf-əd-Din ət-Təbrizinin ustad rəssam olması haqqında məlumat vardır [37, 184]. Əbd əl-Əziz Təbrizinin həyatı haqqında məlumatımız olmasa da bu möhtəşəm sənət əsəri onun nə qədər peşəkar sənətkar olduğunu sübut edir. Professor M.X.Heydərovun yazdığına görə, belə iri qazanlar, tiyanlar Azərbaycanda geniş yayılmışdır. Bu eksponatı

digərlərindən fərqləndirən əsas keyfiyyətləri ondan ibarətdir ki, o həm yüksək bədii keyfiyyətləri, həm də tökmə sənətinin olduqca zərif texniki üsullarını özündə əks etdirir. Şərq və Azərbaycan incəsənətini araşdıran B.V.Veymari yazırdı: "Xoca Əhməd Yasəvinin məscid-məqbərəsindəki nəhəng tiyan tayı-bərabəri olmayan incəsənət şedevridir.... Bu əsər haqlı olaraq XIV əsr tökmə sənətinin möcüzəsi sayılır. Onun yaradılması üçün həmin dövrdə olduqca mürəkkəb sayılan bir çox texniki vəzifələrin öhdəsindən gəlmək lazım idi. Gövdə tacının altında gözəl xətlə Teymurun əmri ilə düzəldilmə tarixi (hicri 801-ci il) həkk olunmuşdur. Dəstəklərlə medalyonlar arasında qalan yerlərdə ustad Şəraf əd-Din ət Təbrizinin oğlu ustad Əbd əl-Əzizin əl yazısı və imzası təkrarlanır... Formasının kamilliyi, dəqiq hesablanmış proporsional quruluş və zərif naqqaşlıq işi sənətkarın yüksək ustalığından və parlaq istedadından xəbər verir" [37, 185].

Əmir Teymurun Azərbaycana yürüşü nəticəsində Mərkəzi Asiyaya köçürülmüş ustad sənətkarlardan biri Əbdülqadir Marağayi olmuşdur. Adı şərqin musiqi mədəniyyətində dərin iz buraxmış Əbdülqair Marağayi istedadlı musiqiçi, xanəndə, bəstəkar, rəssam-xəttat və şair olmuşdur. Ə.Marağayi öz şeirlərini Azərbaycan, fars və ərəb dillərində yazmışdır. O, şeirlərinin əksəriyyətini segah, üşşaq, həvva muğamlarına uyğun vəznlərdə qələmə almışdır. O, atası Mövlana Qeybi ilə birlikdə alim və şeyxlərin məclislərində quran ayələrini avazla oxumaqla yanaşı, mürəkkəb musiqi əsərləri də ifa edirdi. Öz istedadı ilə məşhurlaşan Əbdülqadiri Təbrizə sultan sarayına məclislərə çağırırlar. Cəlairi Sultan Üveys gənc musiqiçinin istedadını bəyənir və onu "dövrün yeganəsi, musiqidə tayı-bərabəri olmayan sənətkar" adlandırır. Sultan Üveysin vəfatından sonra da Əbdülqadir onun oğlu Sultan Hüseynin sarayında qalmaqda davam edir [37, 187].

1377-ci ildə Ə.Marağayi "Əlhani-siqanə" ("Otuz nəğmə") adlı əsərini yazmışdır. Bu əsər onun həyatında baş vermiş bir hadisə ilə bağlı idi. Saray məclislərinin birində Sultan Hüseyn

Ə.Marağayiyə təklif edir ki, ramazan ayının hər gününə bir musiqi əsəri həsr etsin. Marağayi razılaşır. Bu vaxt məclisdə iştirak edən Ə.Marağayinin gələcək qaynatası Rizvanşah Təbrizi 100000 qızıl dinardan mərc gəlir və şərt qoyur: hər dəfə musiqi yazılan gündən bir gün qabaq onun muğamı, ritmi, quruluşu və sözləri onlar tərəfindən müəyyənləşdiriləcək. Şeirlər məclisin görkəmli şairləri tərəfindən ərəb və fars dillərində yazılır. Sultan Hüseyn də bir şeir yazır və Ə.Marağayidən bu şeirə Hüseyni ladında musiqi bəstələməyi xahiş etmişdir. Marağayi olduqca sərt çərçivə daxilində işləməyə məcbur olsa da, şərtini lazımı səviyyədə və vaxtında yerinə yetirərək 30 nəğməni hazır etmişdir. Onun istedadına heyran qalan Rizvanşah Ə.Marağayiyə nəinki uduzduğu pulları göndərməklə yanaşı qızını da ona ərə vermişdir. 1380-ci ildə Cəlairilər dövlətində taxta çıxan Sultan Əhməd də bu musiqiçi alimin istedadını yüksək qiymətləndirir. Ə.Marağayi onun şərəfinə "Dövri-şahi" adlı bir əsər yazmışdır [92, 68].

Yuxarıda qeyd etdiyimiz kimi Əmir Teymurun Azərbaycana yürüşündən sonra bir çox istedadlı azərbaycanlı sənətkar kimi Ə.Marağayinin də həyatı Mərkəzi Asiyanın ən böyük şəhərlərindən biri, Teymuri imperatorluğunun paytaxtı olan Səmərqənd şəhəri ilə bağlanmışdır. Teymur Təbrizi tutduqdan sonra sarayda Cəlairilərə sədaqətlə xidmət edən bir çox şəxslər kimi Ə.Marağayi də edam cəzasına layiq görülür. Lakin, sonradan musiqiçinin Teymura türkcə müraciət edib ondan bağışlanmasını xahiş etməsi Teymurun xoşuna gəlir və onu ölümdən azad edir. Sənətkarın yaradıcılığı ilə tanış olan Teymur onu 1397-ci ildə "bütün musiqi bilicilərinin padşahı" adlandırmışdır. 1399-cu ildə Əbdülqadir Təbrizə, Teymurun oğlu Miranşahın sarayına qaytarılır. Lakin, doğma şəhərin havası ilə nəfəs almaq səadəti uzun çəkmir. İkicə ildən sonra Teymur onu yenə ölüm cəzasına məhkum edir, bu dəfə artıq ona xəyanət etmiş oğlu Miranşahın yaxın adamı kimi bu cəzaya layiq görülür. Lakin, bu dəfə də musiqiçinin Teymurun hüzurunda Quranın bir surəsini ustalıqla oxuması onu ölümdən xilas edir. Ölümdən xilas olsa da

sürgündən xilas ola bilməyən ustad sənətkar yenidən Səmərqəndə, Teymurun sarayına aparılır. O, Səmərqənddə də öz yaradıcılığı ili məşğul olur və 1405-1413-cü illərdə "Came əl-əlhan" (Melodiyalar məcmusu) adlı nəzəri əsərini yazmışdır. Daha sonra "Məqasid əl-əlhan" (Melodiyaların məqsədi), "Lahiyyə" (Musiqi), "Şərh əl-ədvar" (Dövrələrə şərhlər) və "Fəvaid-i əşərə" (On fayda) adlı əsərlərini qələmə almışdır. Onun sonuncu əsərləri yüksək mürəkkəblik dərəcəsi ilə fərqləndiyindən, peşəkar musiqiçilər, hazırlıqlı nəzəriyyəçi və ifaçılar üçün nəzərdə tutulmuşdur [37, 169].

Yuxarıda qeyd etdiyimiz faktlar onu deməyə əsas verir ki, Ə.Marağayi yaradıcılığı nəinki Azərbaycan musiqisinin, eyni zamanda Mərkəzi Asiya və Yaxın Şərqin musiqi elminin inkişafına böyük töhfə olmuşdur.

XIV əsrdə Mərkəzi Asiyada, Teymurun sarayında fəaliyyət göstərən azərbaycanlılardan biri də öz dövrünün tanınmış şahmatçısı Xoca Əli Təbrizi idi. XVI əsrin tarixçisi Xondəmir "Həbib-üs-siyər" adlı əsərində Xoca Əli Təbrizi haqqında məlumat verir. Onun yazdığına görə, Xoca Əli Təbrizi Teymurun nəhəng imperiyasında ən yaxşı şahmatçı sayılır və hamı onu məğlubedilməz bir oyunçu kimi tanımışdır. Xondəmirin məlumatına görə, Xoca Əli eyni zamanda dörd lövhədə uğurla yarışa bilirdi. O, fenomenal yaddaş sahibi olmaqla, Quranı və bir çox ədəbi əsərləri əzbər bilmişdir. Teymurun sarayında fəaliyyətə başladıqdan sonra "Əş-Şətrənci" ləqəbini qəbul etmişdir [92, 63].

Orta əsrlərdə ömrünün uzun illərini Mərkəzi Asiyada yaşayan digər görkəmli azərbaycanlı Cəfər Təbrizidir. Cəfər Təbrizi xəttatlıq sənətinin sirlərini Xorasan və Türküstanda böyük şöhrət qazanmış "Şəkər qələm" ləqəbli görkəmli Azərbaycan xəttatı Mir Abdulla Təbrizidən öyrənmişdir. XV əsrdə yaşayıb yaradan Cəfərin həyatı və yaradıcılıq fəaliyyəti Orta Asiyanın Teymurun hakimiyyəti altında olduğu dövrə təsadüf etmişdir. Təbrizdə Cəfər Təbrizi Azərbaycan hökmdarı, Teymurun oğlu Miranşahın sarayında fəaliyyət göstərir. Bir müddət

sonra isə o da bir sıra digər usta, rəssam və xəttatlarla birlikdə Herata, Teymurun o biri oğlu Şahruxun yanında çalışmağa gedir. Burada Şahruxun oğlu Baysunqur Cəfər Təbrizini öz himayəsi altına almışdır. Ümumiyyətlə Şahzadə Baysunqur sənətə, sənətkara, elmə və elm xadimlərinə böyük qayğı ilə yanaşmış, onları himayə etmişdir. Bununla əlaqədar Cəfər Təbriziyə Baysunquri təxəllüsü də verilmişdir. Orta əsr mənbələrinin verdiyi məlumata görə, Baysunqur Mirzənin yanında işlədiyi müddətdə Cəfər Təbrizi kiçik bir kitabxana-emalatxanaya rəhbərlik etmişdir. Burada 40-a yaxın xəttat əlyazmaların üzünü köçürməklə məşğul olurdu. Bunlardan başqa orada miniatürçülər, qızıl suyu ilə işləyənlər, dəri aşılanması və bəzədilməsi üzrə ustalar, bərpaçı və cildçilər də vardır. Onların arasında Təbrizli ustalardan Aini Təbrizi, İbrahim Şəffar Təbrizi, Xoca Əli Müsəvvir və başqaları da vardır. Cəfər Təbrizi qabiliyyətli müəllim və təşkilatçı kimi tanınmışdır. O, həmin kitabxananın inkişafı üçün çox iş görmüşdür. Ustad sənətkar tez-tez kitabxanada görülmüş işlər haqqında Baysunqur Mirzəyə hesabatlar təqdim etmişdir. Həmin hesabatlardan biri (1427-ci il iyun ayına aid olanı) hazırda İstanbuldakı Topqapı sarayının muzeyində saxlanılır. Cəfər Təbrizi bir sıra qiymətli kitabların üzünü köçürmüşdü ki, onlar da xəttatlıq tariximizdə özünəməxsus iz buraxmışdır. Firdofsinin "Şahnamə"si (1430), Sədinin "Gülüstan"ı (1427), Nizami Gəncəvinin "Xəmsə"si (1431) onun nəstəliq xətti ilə üzünü köçürdüyü kamil xəttatlıq nümunələrindəndir. Bu nüsxələr Parisin, Dublinin, Tehranın, İstanbulun, Sank-Peterburqun məşhur kitabxana və muzeylərində saxlanılır. Cəfər Təbrizi həm də şair kimi tanınmışdır. O, Baysunqurun ölümünə mərsiyə yazmışdır. 1413-1452-ci illərdə yaradıcılıqla daha fəal məşğul olmuş dahi sənətkar 1480-ci ildə 65 yaşında vəfat etmişdir [37, 186].

Oğuz tayfalarından olan ağqoyunlular və qaraqoyunlular Cənubi Qafqazda hələ Oğuz xaqanın dövründən məskən salmışdılar. Onlar VI əsrin sonu – VII əsrin əvvəllərindən etibarən Mərkəzi Asiyadan köç edərək Dərbənd keçidindən və

Böyük Qafqaz sıra dağlarının ətəklərindən Araz çayına qədərki torpaqlarda və onun ətrafında, Naxçıvanda, daha sonra Azərbaycanın cənub torpaqlarında məskunlaşmışdılar. Qaraqoyunluları təşkil edən əsas tayfalar içərisində Baharlı və Sədlinin xüsusi yeri var. Sədli tayfasının yerləşdiyi əsas ərazi Naxçıvan və Sürməli idi. 1410-cu ildə Kəmaləddin Qara Yusifin başçılıq etdiyi qaraqoyunlularla Sultan Əhmədin başçılıq etdiyi cəlairilər arasında baş vermiş II Şənbiqazan döyüşündə qaraqoyunlular qalib gəldilər. Bu qələbə nəticəsində Cəlairi dövlətinə son qoyan qaraqoyunlular öz dövlətlərini yaratdılar. İstər Qaraqoyunlu dövləti (1410-1468), istərsə də ondan sonra yaranmış Ağqoyunlu dövləti (1468-1501) XV əsr boyu fəal daxili və xarici siyasət yürütməklə nəinki Qafqazın, eyni zamanda Yaxın və Orta Şərqin həyatında mühüm rol oynamışdılar.

Görkəmli Özbək şairi Ə.Nəvai "Məclis un-nəfis", "Muhakamat ul-luqatayn" əsərlərində Azərbaycanının Nizami, Xəqani, Şeyx Şirvani, Abu Abbas Sührəverdi, Şeyx Təbrizi və digər şair və mütəfəkkirlərinin adlarını böyük ehtiramla yad etmişdir. XVII əsrdən başlayaraq Türküstanın bütün mədrəsələrində Məhəmməd Füzulinin əsərləri tədris olunurdu. Onun qəzəllərinə ithaf olaraq Qafur Qulam, Erkin Vahidov, Abdulla Arifov kimi müasir özbək şairləri öz müxəmməslərini yazmışlar.

XVI əsrdə I Şah İsmayıl bütün Azərbaycan torpaqlarını vahid şəkildə birləşdirərək Səfəvilər dövlətinin (1501-1736) əsasını qoydu. Səfəvilər dövləti Orta və Ön Asiya, Avropa ölkələri ilə geniş əlaqələr saxlayaraq, fəal xarici siyasət yürüdürdü. Bu zaman Səfəvilər dövləti ilə Mərkəzi Asiyada mövcud olan Şeybanilər dövləti arasında Xorasana sahib olmaq uğrunda mübarizə gedirdi. Bu mübarizə 1510-cu ildə dekabrın 1-də Mərv döyüşündə Səfəvilərin qələbəsi ilə başa çatdı. Şeybanilər dövlətinin süqutundan sonra onun yerləşdiyi ərazidə müxtəlif vaxtlarda üç əsas xanlıq – Buxara, Xivə və Kokand xanlıqları yarandı və onlar XIX əsrin əvvəllərinə qədər mövcud oldular.

1736-cı ildə Səfəvilərin hakimiyyətinə son qoyan Nadir şah Əfşar həmin ilin martında Suqovuşan (indiki Sabirabad

rayonunda Kürlə Arazın qovuşduğu yer) qurultayında özünü şah elan etdi. Daha sonra 1737-1740-cı illərdə Nadir Şahın Hindistana və Mərkəzi Asiyaya yürüşlərində xeyli sayda azərbaycanlı döyüşçü də iştirak etmişdir. Bu yürüş nəticəsində Nadir Şah Mərkəzi Asiyada mövcud olan iki böyük xanlığı, Xivə və Buxara xanlıqlarını işğal etdi.

Bütün bu müharibələr, sürgünlər, köçürmələr, miqrasiyalar XVII-XVIII əsrlər boyu Mərkəzi Asiya torpaqlarında azərbaycanlıların sayının artmasına səbəb oldu.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Mərkəzi Asiyada fəaliyyət göstərən azərbaycanlılardan biri də böyük maarifçi və pedaqoq, yazıçı və publisist Səid Rıza Əlizadə (1887-1945) olmuşdur. Türküstan vilayətində xalq təhsilinin islahatçısı kimi çıxış edən Səid Rıza Azərbaycan, Buxara, Daşkənd, Səmərqənddə nəşr olunan qəzet və jurnallarda maarifçiliklə bağlı çoxlu məqalələr dərc etdirmişdir. Səid Rızanın publisistik, yazıçılıq və təşkilatçılıq bacarığı "İnqilabın şəfəqləri" jurnalına redaktorluq etdiyi vaxtda özünü daha bariz şəkildə büruzə vermişdir. O, siyasi və satirik yazılarında 15 adda təxəllüs və gizli imzadan istifadə etmişdir. On iki dil bilən Səid Rıza özbək və tacik dillərində yazılmış ilk əlifbanın müəllifidir. O, bu dillərdə ilk qrammatika və oxu kitablarının müəllifi kimi də tarixə daxil olmuşdur. Tacik və özbək dillərində "Əlifba", "Tacik dilinin morfologiyası və sintaksisi" və sairə kimi qiymətli dərsliklər çap etdirən Səid Rıza rus və xarici dillərdə də bir sıra dərsliklər və dərs vəsaitləri tərcümə etmişdir. Səid Rıza 1924-cü ildə "Zarafşan" nəşriyyatının rəhbəri təyin edilmiş, eyni zamanda o, Özbəkistan KP MK-də nəşriyyat məsələləri üzrə səlahiyyətli nümayəndəsi olmuşdur [127, 121]. Səid Rızanın həyatının ən parlaq səhifələrindən birini də Səmərqənd şəhərində Özbəkistan Dövlət Universitetində müəllimlik fəaliyyəti təşkil edir. Məqalə və monoqrafiyaların əksəriyyətində ingilis imperialistlərinin işğalçılıq siyasətini kəskin şəkildə tənqid atəşinə tutan Səid Rıza 1937-ci ildə ingilislərə satqınlıqda günahlandırılaraq həbs olunmuşdur. Bir neçə il həbsxanada qalan Səid Rıza 24 dekabr 1945-

ci ildə uzun sürən xəstəlikdən sonra vəfat etmişdir. Vəfatından sonra onun günahsız olduğu təsdiqlənərək bəraət verilmişdir. Onun dünya pedaqoqlarının qarşılıqlı əlaqələri, müəllimlik metodları, təhsilin məzmunu, tərbiyənin məqsədi və mahiyyəti, prinsip və metodları haqqında əsərləri indi də aktuallığını itirməmişdir [20, 251].

Türk dünyasının görkəmli şəxsiyyətlərindən biri, məşhur türkoloq, ədəbiyyatşünas, şərqşünas və dilçi olan filologiya elmləri üzrə doktor, professor Əhməd Cəfəroğlu (1899-1975) ibtidai təhsilini Səmərqənd şəhərində almışdır. O, 1899-cu ildə Gəncə şəhərində anadan olmuşdur. Kiçik yaşlarında atasını itirən Əhməd anası Gövhər xanımın və qohumlarının himayəsində böyümüşdür. Onun iki bacısı və bir qardaşı olmuşdur. 1902-ci ildə böyük bacısı Rüxsarə bibisi oğlu Hacı Mirxəlilə ərə gedir. Hacı Mirxəlilin qardaşı Hacı Mirtağı isə Səmərqənddə yaşayırdı. 1905-ci ildə ermənilər Gəncədə milli toqquşma törətdikləri zaman Gövhər Xanım üç uşağı ilə Səmərqəndə - Hacı Mirtağının yanına gedir və 1909-cu ilə qədər orada yaşayır. Bu səbəbdən də o, ibtidai təhsilini 1905-1909-cu illərdə Səmərqənd şəhərində alır. Burada o, özbək dilini öyrənmişdir ki, bu da onun gələcəkdə mükəmməl bir türkoloq kimi yetişməsində mühüm rol oynamışdır [183].

Taleyinə Mərkəzi Asiya torpaqlarında yaşamaq yazılmış digər görkəmli həmvətənimiz Salman Mümtaz olmuşdur. Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi, ədəbi-bədii nümunələrin və əlyazmaların toplanması, zəngin folklor xəzinəmizin tədqiqi sahəsində böyük xidmətləri olan Salman Mümtaz 1883-cü ildə Şəki şəhərində anadan olmuşdur. Kiçik yaşlarında (1887-ci ildə) atasını itirdiyindən Türkmənistanın paytaxtı Aşqabad şəhərində dayısının himayəsində yaşamış və yalnız Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra vətənə qayıtmışdır. İbtidai təhsilini də o, Aşqabadda almışdır. Salman Mümtaz müəllimi Mirzə Əsədulladan ərəb və fars dillərini, habelə Hindistanda geniş yayılmış urdu dilini öyrənmişdi. Şərq dillərinə bələd olması onda, ümumiyyətlə ədəbi nümunələri toplamaq,

nəşr etmək, onların izahı və şərhi ilə məşğul olmaq, məşhur şairlərin əsərlərini oxuculara çatdırmaq meylini qüvvətləndirmiş və onu mətbuat aləmi ilə bağlamışdır. "Molla Nəsrəddin" jurnalında "Xortdanbəy", "Sərçəqulubəy" və başqa imzalarla müxtəlif şeirləri, məqalələri çap olunmuşdur. 1937-ci ilin 19 iyununda Salman Mümtazı "burjua-millətçi, pantürkist" kimi əvvəlcə tutduğu vəzifələrdən azad edib ev dustağına çevirdilər. Sonra, SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi vəzifəsindən kənarlaşdırıldı. 1941-ci ildə isə güllələndi [184].

XIX əsrdə Azərbaycan torpaqlarının tarixin iki ədalətsiz müqaviləsi əsasında (Gülüstan (1813) və Türkmənçay (1828)), iki işğalçı dövlət arasında bölüşdürüldü. Azərbaycan torpaqlarının şimal hissəsi Rusiyaya, cənub hissəsi isə İrana verildi. Xalqımız üçün faciəli olan bu tarixi dövr Mərkəzi Asiya xalqlarının da tarixində çox ağır bir dövr idi. Belə ki, Rusiya tədricən inkişaf etməkdə olan sənayesini xammal bazası ilə təmin etmək məqsədi ilə zəngin Mərkəzi Asiya torpaqlarını işğal etməyə başladı. Ümumiyyətlə Mərkəzi Asiya torpaqlarının Rusiya imperiyası tərəfindən işğalı 3 mərhələdə həyata keçirilmişdir. Birinci mərhələ 1864-1865-ci illəri əhatə edir və bu dövrdə Kokand xanlığının çox hissəsi işğal edilmişdir. 1866-1873-cü illəri əhatə edən ikinci mərhələdə Buxara və Xivə xanlıqları tabe edilmişdir. 1867-ci ildə burada Rusiya tərəfindən Türküstan general-qubernatorluğu təşkil olundu. 1869-1884-cü illərdə isə Türkmənistanın, 1895-ci ildə isə Pamirin işğalı başa çatdırılmışdır. Beləliklə, yenə də hər iki regionun xalqı (həm Azərbaycan, həm də Mərkəzi xalqları) bir işğalçı dövlətin hakimiyyəti altında birləşməli oldu.

XX əsrdə isə azərbaycanlıların Mərkəzi Asiyaya miqrasiyasının səbəblərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1920-1930-cu illərdə Sovet hakimiyyətinin müxtəlif bəhanələrlə həyata keçirdiyi sürgünlər, repressiyalar;

1940-cı illərin ortalarından başlayaraq Mərkəzi Asiyada neft sənayesinin yaranması və inkişafında azərbaycanlıların

əməyindən və təcrübəsindən istifadə məqsədi ilə peşəkar neftçi həmvətənlərimizin həmin ölkələrə daimi və ya mövsümi xarakterli işlərə göndərilməsi (Onu da qeyd edək ki, bu proses 1960-cı illərdə də davam edirdi);

1950-ci illər xam və dincə qoyulmuş torpaqlardan istifadə zamanı azərbaycanlıların əməyindən və təcrübəsindən istifadə məqsədi ilə həmvətənlərimizin həmin ölkələrə daimi və ya mövsümi xarakterli işlərə göndərilməsi;

1970-1980-ci illərin əvvəllərində elmi mübadilə, Mərkəzi Asiya ölkələrində təhsil alan azərbaycanlıların sayının artması;

1980-ci illərin sonu – 1990-cı illərdə Azərbaycanda baş verən siyasi, iqtisadi gərginliyin nəticəsi olaraq yaranan işsizlik problemi ilə əlaqədar olaraq həmvətənlərimizin bir qismi Mərkəzi Asiya ölkələrinə üz tutdular.

## 1.2. 1920-1950-ci illərdə Mərkəzi Asiya Respublikalarında azərbaycanlıların məskunlaşması

XX əsrin əvvəllərində baş verən geosiyasi proseslər nəticəsində Rusiyada çar hakimiyyəti devrən bolşeviklər hakimiyyəti öz əllərinə aldılar. Xüsusi Zaqafqaziya (Cənubi Qafqaz) Komitəsi Rusiyada 1917-ci il oktyabr çevrilişi nəticəsində yaranmış sovet rejimini tanımadığına görə devrildi. Cənubi Qafqazı idarı etmək üçün noyabrın 15-də Cənubi Qafqazın hər üç millətinin iştirakı ilə Tiflisdə Zaqafqaziya Komissarlığı təşkil olundu. 1918-ci il fevralın 10-da Zaqafqaziya (Cənubi Qafqaz) Seymində 44 millət vəkili ilə təmsil olunan Azərbaycan fraksiyası yaradıldı. 1918-ci ilin yazında Cənubi Qafqaz hökumətinin Türkiyəyə müharibə elan etməsi və azərbaycanlıların mart soyqırımına məruz qalması və s. kimi məqamlar Seymin öz fəaliyyətini doğrultmadığını göstərdi. 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik dövlət olan AXC-nin yaradılması ilə Azərbaycan xalqı bir əsrdən çox davam edən çar əsarətindən azad oldu. Çox təəssüf ki, bu müstəqillik cəmi 23 ay davam etdi. 1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyətinin qurulması nəticəsində Azərbaycan SSR yaradıldı. Bu əslində Azərbaycanın formal müstəqilliyi demək idi. 1922-ci il dekabrın 30-da I Sovetlər qurultayında RSFSR, Ukrayna, Belarusiya və ZSFSR-in (məlum olduğu kimi, onun tərkibinə Azərbaycan SSR də daxil idi) vahid dövlətdə birləşməsi nəticəsində SSRİ-nin yaradıldığı elan edildi. Bununla da Azərbaycanın formal müstəqilliyi belə ləğv olundu. Müstəqilliyimizin itirilməsi ilə vətənimiz yenidən bir-birinin ardınca həyata keçirilən imperialist, təcavüzkar siyasətlərin meydanına çevrildi. Aşağıda Sovet imperiyasının həyata keçirdiyi kütləvi repressiya və sürgün siyasəti ardıcıllıqla izah olunmuş və bu siyasətin həyata keçirilməsinin nəticələrindən biri kimi azərbaycanlıların Mərkəzi Asiya torpaqlarında kütləvi şəkildə məskunlaşması ilə bağlı

faktlar geniş yer almışdır.

Bir məqamı xüsusi olaraq qeyd etmək lazımdır ki, adətən repressiyalardan bəhs olunarkən daha çox 1937-1938-ci illərin hadisələrinə geniş yer verilir. Halbuki, 1937-1938-ci illərin kütləvi repressiyalarının əsası hələ 1920-ci illərdən qoyulmuşdu. Belə ki, çar Rusiyasının coğrafi hüdudlarını bərpa və onun imperialist siyasətini davam etdirmək üçün bolşeviklərə "bütün ölkələrin proletarlarını" SSRİ imperiyasının vahid bayrağı altına gətirmək üçün totalitar bir cəmiyyət yaratmaq lazım idi. 1920-ci illərin əvvəllərində repressiyaların coğrafiyası və tətbiq sahələri bir qədər dar idi. Bu dövrdə əsasən üsyançılar, sovetləşməyə açıq etiraz edənlər, bu aksiyaya mane olanlar və qaçaqlar məhv edilirdi. Bu illərdə dövlət səviyyəsində repressiyaların kütləviləşməsinə və coğrafiyasının genişlənməsinə mane olanlar da var idi. Məsələn, N.Nərimanov Pankratovun Azərbaycandakı özbaşınalıqlarının qarşısını almaq üçün hansı tədbiri həyata keçirdiyi barədə İ.V.Stalinə yazırdı: "Mən belə bir məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin" [101, 80].

Başqa bir məktubunda N.Nərimanov Leninə yazırdı ki, "Əziz Vladimir İliç! S.Mehmandarov və Ə.Şıxlinski hərb sahəsində gözəl mütəxəssisdirlər. Bakıda onları repressiyalardan qorumaq çətin olduğu üçün müvəqqəti olaraq sizin yanınıza göndərirəm" [100, 96].

1930-cu illərdə isə sanksiya vermək səlahiyyəti olanlar nəinki repressiv aksiyaların keçirilməsinin qarşısını aldı, əksinə onun surətini və sayını daha da artırdı. Belə ki, 1934-1954-cü illərdə Azərbaycan Kommunist Partiyasının I katibi olmuş Mir Cəfər Bağırov inzibati-amirlik sisteminin tələblərini artıqlaması ilə həyata keçirmişdir. M.C.Bağırov 1937-ci ilin iyun ayında keçirilən partiyanın XIII qurultayında deyirdi: "Bir çox mədəniyyət idarələrində uzun müddət R.Axundov, Ə.Kərimov, Ə.Nazim, B.Talıblı, T.Şahbazi kimi xalqın qəddar düşmənləri işləmişlər. Bu bir faktdır ki, uzun illər ərzində xalq düşmənləri Talıblı, Əli Nazim, Əhməd Cavad və b. cəzasız qalaraq Yazıçı-

lar İttifaqının üzvü olublar” [64, 138].

1920-ci ilin mayında məktəblərdə dini etiqadların təlimi və ayinlərin icrası qadağan edildi. 1924-cü ildə din əleyhinə komissiya yaradıldı, şəhər və kəndlərdə “Allahsızlar cəmiyyəti” adlı cəmiyyətlər təşkil edildi. 1926-cı ildə qəbul olunmuş RSFSR-in cinayət məcəlləsinin 58-10-2 maddələrinə əsasən xalqın dini düşüncələrindən istifadə edərək insanlar arasında antisovet təbliğat aparılması qadağan olunurdu və bu qərara riayət etməyən din xadimlərinin əmlaklarının müsadirə ediləcəyi, özlərinin isə sürgün olunacağı bildirilirdi [70, 38]. Bu qərarla yalnız ruhunda azadlıq, millilik olan ziyalılarımız deyil, eyni zamanda din xadimlərimiz belə repressiyanın qurbanına çevrildilər.

Azərbaycanda varlı kəndlilərə qarşı mübarizə SSRİ-nin digər regionlarından bir qədər tez, 1928-ci ildə başlandı və kəndlərdə varlıların təsərrüfatlarının sayı azalmağa başladı [34[a], s.64]. 1929-cu il dekabrın 27-də Stalin “qolçomaqların bir sinif kimi ləğvi” siyasətinə keçidi elan etdi.

AK(b)P MK-nın 1929-cu il dekabr plenumunun respublikada yerli xüsusiyyətləri nəzərə almadan kollektivləşmənin sürətləndirməsi barədə yanlış qərarı Mərkəzi Komitənin 1930-cu il 5 yanvar qətnaməsindən sonra da dəyişilmədi. Hətta bundan sonra bütün mal-qaranın, arıçılıq təsərrüfatı, ipəkçiliyin ictimailəşdirilməsi barədə qərarlar qəbul olunmuşdu [127[a]]. Yerli təşkilatlar bu məsələdə bir az da irəliyə gedərək daha sərt tədbirlər həyata keçirirdilər [135[a]; 127[a]]. Yerlərdə qolçomaqlara qarşı siyasət müxtəlif cür aparılırdı. Vaxtaşırı müxtəlif təşkilatların qolçomaqlara qarşı bu dərəcədə açıqcasına mübarizənin yolverilməzliyi barədə fikir bildirilirdi. Ancaq ona baxmayaraq, sui-istifadə cəhdləri çox olurdu. Buna AK(b)P MK katibinin kollektivləşməyə qoşulmayan sərhəd rayonlarında qolçomaqların bir sinif kimi məhv edilməsi barədə 26 yanvar 1930-cu il tarixli yanlış göstərişi də rəvac verirdi. Qolçomaqların bir sinif kimi ləğvi üçün dairə qərargahları təşkil olunurdu.

1931-ci ilin sentyabrında qolçomaq təsərrüfatının ləğvinin

yeni mərhələsi başladı və minlərlə azərbaycanlı Mərkəzi Asiyaya sürgün edildi. Bu proses 40-cı illərin sonuna kimi davam etmişdir. Nəticədə Mərkəzi Asiyanın bir çox yerlərində xüsusi "QULaq arxipelaqları" (КУЛаг - главное управление лагерей) yaradılmışdı.

1934-cü il dekabrın 1-də Leninqradda baş vermiş dəhşətli qətl hadisəsi bütün Sovet İttifaqını silkələdi: Leninqrad vilayət partiya komitəsinin katibi S.M.Kirov iş yerində - Smolnıda müəmmalı şəkildə qətlə yetirilmişdi.

Stalin başda olmaqla Kirovu son mənzilə yola salan bütün silahdaşları sovet xalqına onun qanının yerdə qalmayacağına söz verdilər. Kirovun ölüm xəbərindən bir neçə saat sonra Siyasi Büronun təcili iclası çağırıldı və SSRİ MİK-in "1 dekabr qanunu" adını almış qərarı hazırlandı:

Terror təşkilatları və sovet hakimiyyəti işçilərinə qarşı terror aktları haqqında işlərin istintaqı və baxılması üzrə müttəfiq respublikaların qüvvədə olan cinayət-prosessual məcəllələrinə aşağıdakı dəyişikliklər edilsin.

1. Bu işlərin istintaqı 10 gündən gec olmayaraq başa çatdırılsın.
2. İttiham qərarı müttəhimlərə, işlərin məhkəmədə baxılmasına 1 sutka qalmış təqdim edilsin.
3. İşlərə tərəflərin iştirakı olmadan qulaq asılsın.
4. Hökmlərdən kasasiya şikayətlərinin, eləcə də əfv haqqında zəmanətlərin təqdiminə yol verilməsin.
5. Ən yüksək cəza hökmləri, hökm verilən kimi təxirə salınmadan həyata keçirilsin [61, 7].

Əslində, ölkədə aparılacaq total repressiyalar üçün baza ilin əvvəlindən hazırlanmışdı. Kirovun ölümü bu repressiyalara başlamaq üçün bəhanə oldu.

1934-cü ildə Birləşmiş Baş Siyasi İdarənin ləğv edilməsi və onun funksiyalarının SSRİ Xalq Daxili İşlər Komissarlığına verilməsi ilə əlaqədar olaraq "SSRİ Xalq Daxili İşlər Komissarlığının İslah-Əmək Düşərgələri, əmək sürgünləri və həbs yerləri üzrə Baş İdarəsi" yaradıldı [61, 7]. İlk dəfə olaraq SSRİ

ərazisindəki bütün düşərgələr və həbsxanalar bu ad altında vahid rəhbərliyə tabe edildi. Stalin dövrünün cəza konveyerinin əsas şəbəkələrindən biri olan bu idarə bütün dünyada QULaq adı ilə məşhurlaşaraq SSRİ-dəki totalitar rejimin simvoluna çevrildi.

1936-cı il avqustun 3-də Azərbaycan KP MK-ya ÜK(b)P MK-nın qapalı məktubu daxil oldu. Elə həmin gün Mircəfər Bağırov MK-nin təcili iclasını çağırdı. ÜK(b)P MK-nın qapalı məktubu ilə əlaqədar olaraq Bakı başda olmaqla bütün Azərbaycanda əksinqilabi terrorçu-zinoyevçi qrupların terrorçuluq fəaliyyəti haqqında konkret material hazırlamaq Akopova tapşırıldı. Təklif olundu ki, bu məktubla əlaqədar bütün partiya təşkilatları hər 5 gündən bir Azərbaycan KP MK-ya məlumat versinlər. 1936-cı il avqustun 19-da isə ÜK(b)P Zaqafqaziya Ölkə Komitəsinin 1-ci katibi L.Beriyanın "Pravda" qəzetində böyük bir məqaləsi çap olundu. Məqalədə Zaqafqaziya şəhərlərində, o cümlədən Bakıda və Kirovabadda sosializm, xalqın düşmənlərinin – "əksinqilabçıların", trotski-zinovyevçi qrupların ifşa edilməsi haqqında məlumatlar verilirdi. Bundan sonra Bağırov, Akopov, Sumbatov-Topuridze, Yemelyanov, Markaryan, Qriqoryants, Borşev və başqalarının cəza maşını bütün gücü ilə işə düşdü. Aşağıdan-yuxarıya axın-axın məlumatlar, danoslar, ərizələr daxil olmağa başladı. Kütləvi informasiya vasitələrində "ictimai fikir" hazırlığı aparılmaqla yanaşı, fəhlələrin, kolxozçuların, alimlərin, mədəniyyət xadimlərinin, partiya fəallarının mitinq və ümumi yığıncaqlarından "Zəhmətkeşlərin qəzəbi", "Xalq düşmənlərinə ölüm", "Əksinqilabçılara aman yoxdur" və s. başlıqlı xəbərlər dərc edilməyə başlandı [61, 8].

Repressiyalar və təzyiqlərin nəticəsi olaraq azərbaycanlıların Qırğızıstana ilk mühacirəti 1929-30-cu illərə təsadüf edir. Buraya köçürülən azərbaycanlılar Çuy vadisi və onun əyaləti Arovan rayonunda yerləşdirilmişdir [129, 9].

1930-cu illərdə "Mədəni inqilabı" həyata keçirənlər belə bir müddəa ilə çıxış etdilər ki, sovetləşməyə qədərki, klassik irsə tənqidi yanaşmaq, onun ən mütərəqqi ideyalarından bəhrələnmək lazımdır. Lakin, o ideyalar mütərəqqi hesab edilirdi ki,

orada kommunist ideologiyasının elementləri görünürdü. Bunlardan uzaq olan sənət nümunələri isə mürtəce elan edilirdi. Məsələn, bolşevik ideologiyasının Azərbaycana, eləcə də Şərqə "Kommunizm cənnəti" gətirməyəcəyini görən və onu tənqid edən Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə mürtəce elan edildi və onların əsərlərinin nəşrinə, yayılmasına qadağa qoyuldu. Onların, eyni zamanda onlarla həmfikir olan yüzlərlə azərbaycanlı ziyalıların, elm, mədəniyyət xadimlərinin "Vətən xaini" adlandırılması və repressiyaya məruz qalması kütləvi hala çevrildi. 1930-cu ildə hətta Novruz bayramı da yasaq edilmişdi. Tar, kamança və dastanlarımız "Keçmişin qalığı" kimi tənqid edilirdi.

SSRİ MİK-nin 4 iyul 1934-cü il tarixli qərarına əsasən "vətən xaini" ittihamı ilə mühakimə olunanların ailə üzvlərinin sürgün edilməsi barədə qərarı əsas götürən hakim qüvvələr qısa müddət ərzində minlərlə günahsız Azərbaycan qadınının Mərkəzi Asiyaya, Sibirə sürgün etmişlər [93, 11]. Qadınların kütləvi məhvi bəşəriyyət tarixində az rast gəlinən hadisələrdəndir. Lakin bolşeviklər buna adi hal kimi yanaşmışlar.

MTN-nin arxivində 1930-1950-ci illərdə sovet hakimiyyəti tərəfindən repressiyaya məruz qalmış 3022 nəfər azərbaycanlı qadının siyahısı var [93, 10]. Bu siyahı millətimizin qan yaddaşı, sovet hakimiyyətinin isə qanla yazılmış qara siyahısıdır. Siyahı ilə tanış olanda sovet hakimiyyətinin nə qədər totalitar, işğalçı bir rejim olduğu daha qabarıq şəkildə aydın olur. Professor M.Qasımovun təbirincə desək "repressiya olunan təkcə 3022 nəfər Azərbaycan qadını deyil! Bu sayca özlərindən dəfələrlə çox azərbaycansevər, millətsevər oğlan və qızlarımızın hələ dünyaya gəlməmişdən qabaq məhvi, on minlərlə gələcək Azərbaycan əsgərinin qırılması deməkdir. Bu, minlərlə gələcək alim, şair, yazıçı və dövlət xadiminin məhvi deməkdir. Bu siyahı quru statistika deyil, sovet rejiminin mahiyyətini onun qurucularının və siyasətini həyata keçirən rəsmi şəxslərin şəxsi imzaları ilə təsdiq etdiyi tarixi sənəddir" [93, 12].

Azərbaycan qadını hakimiyyətin istədiyi kimi, yalnız pam-

bıqçı, taxılçı, sağıcı olmayıb o, həm də ana dilimizin, milli adət-ənənələrimizin qorunmasında, müstəqillik ruhunun cəmiyyətdə yayılmasında, sovet rejiminə qarşı mübarizədə əvəzsiz xidmətlərə malik olmuşdur. “Şərq qadını” jurnalının ilk redaktoru, Azərbaycan Ədliyyə komissarı və Respublika Ali Məhkəməsinin sədri vəzifələrinədək yüksəlmiş Ayna Sultanova, istedadlı pianoçu, Azərbaycan muğamlarının gözəl ifaçısı Xədicə Qayıbova, Tiflis şəhər Türk Pedaqoji Texnikumunun müdiri Mədinə Qiyasbəyova və onlarca başqalarının talelərinə sürgün həyatı yaşamaq hökmü yazıldı. Faciənin mahiyyətini və səbəblərini anlamayan sadəlövh qadınlar Moskvadan, “yoldaş Stalindən” imdad diləmiş dəfələrlə ona müraciət etmişdilər. Belə ki, sürgün olunan Xavər Qarayevanın Stalinə müraciətlərinə üç dəfə rədd cavabı verilmişdir. Şübhəsiz, Stalin və onun əlaltıları razı ola bilməzdilər ki, 1919-cu ildən bolşevik partiyasının üzvü olan, 1927-ci ildə Moskva Tibb İnstitutunu bitirərək orada elmi işçi kimi çalışmaqla yanaşı, ictimai-siyasi fəaliyyət göstərən Azərbaycan qadını ali mənsəbə çatsın [93, 8].

Akademik Ziya Bünyadov yazırdı: “Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir “xalq düşməni”nə “məhkəmə” zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəqiqə). İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər adamın güllələnməyə məhkum edildiyini, nə qədər cəza sahibinin-azərbaycanlıların güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), iki il yarımda isə 80 mindən çox” [33, 9].

Həmin illərdə Azərbaycan SSRİ-də geniş tətbiq olunan repressiya metodlarından biri də kütləvi köçürmələr, sürgünlər idi. Bu köçürmələrin, sürgünlərin əsas istiqaməti Orta Asiya, Qazaxıstan və Sibir idi.

Repressiyaların get-gedə güclənməsinə və kütləviləşməsinə təsir edən amillərdən biri də başqa millətləri, xüsusilə də türkləri məhv etməyi qarşısına məqsəd qoyan, onlara nifrətlə yanaşan və tarixi düşmənçiliklərini sovet ideologiyası ilə pərdələyərək sovet dövründə də davam etdirən ermənilərin hakimiy-

yət başına gətirilməsi olmuşdu. Mir Cəfər Bağırov məhkəmə zamanı deyirdi: “Mənim əsas səhvim odur ki, Beriyaya və onunla bağlı olan və onun düşmən mövqeyini müdafiə edən, orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədə olan Sumbatov, Borşev, Qriqoryan, Markaryana və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır” [97, 115].

Qazaxıstan SSR-də QULAQ-ın (İslah Əmək Düşərgələri Baş İdarəsi) rəisi olan M.Bermanın 1937-ci il 3 iyul tarixli şifrələnmiş teleqramında yaxın vaxtlarda güllələnmiş vətən xainlərinin və sağçıların ailə üzvlərindən ibarət təqribi sayı 6-7 min insan; əsasən qadınlar, az miqdarda qocaların daxil olduğu xüsusi təcrid rejiminin yaradılması haqqında qərarın müzakirə olunacağı və qəbul olunacağı qeyd olunur. Onlarla birlikdə məktəbəqədər yaşda olan uşaqları da göndəriləcəkdi. Daha sonra məktubda deyilirdi: “Bu kontingentlərin saxlanılması üçün iki əsir düşərgəsinin təşkili vacibdir. Qaçmanın qabağını almaq üçün təxminən üç min nəfərdən ibarət gücləndirilmiş mühafizə (yalnız muzdlulardan ibarət) dəstəsindən, hasarda tikanlı məftillərdən, xüsusi açarlardan, mühafizə qüllələrindən istifadə olunmalıdır. Düşərgənin daxilindəki işlərdə kontingentin əməyindən istifadə olunmalıdır. Bu düşərgənin təcili inşası ilə əlaqədar ilk növbədə Narıme və Karaqanda şəhərlərinin “əməksevərlərindən” istifadə olunaraq boş və ya az məskunlaşmış ərazilərin tez bir zamanda boşaldılaraq həmin ərazilərdən yararlanmağı məqsədəuyğun hesab edirəm” [158].

1937-ci il iyulun 30-da Xalq Daxili İşlər Komissarlığının “Keçmiş qolçomaqların, cinayətkarların və başqa antisovet elementlərin repressiya olunması üzrə əməliyyat haqqında” 00447 №-li operativ əmri Siyasi Büronun müzakirəsinə təqdim edildi. Bunun ardınca isə 1937-ci il avqustun 15-də “Vətən xainlərinin arvadlarının və uşaqlarının repressiya olunması üzrə

əməliyyatlar haqqında" SSRİ Xalq Daxili İşlər Komissarlığının 00486 №-li operativ əmri verildi. Sənəddə repressiya olunmalı kontingent çox dəqiq müəyyən edilmiş və iki kateqoriyaya ayrılmışdı. Birinci kateqoriyaya təcili həbs olunaraq güllələnənlər, ikinci kateqoriyaya isə 8 ildən 10 ilə qədər müddətə düşərgələrdə və ya həbsxanalarda azadlıqdan məhrum edilənlər aid idi. Hər bir vilayət, diyar və respublika üçün hər iki kateqoriyadan repressiya olunacaq insanların sayına görə limit müəyyən edilmişdi. Azərbaycan üçün müəyyən edilmiş limitdə birinci kateqoriyaya aid edilənlərin sayı 1500 nəfər, ikinci kateqoriyaya aid edilənlərin sayı isə 3750 nəfər idi. Bütün bunlardan əlavə, 3-cü kateqoriyaya aid edilən insanlar da var idi. Bu qrupa aid edilənlərin siyahısını yerli XDİK hazırlayırdı. Sürgün həyatı gözləyən belə insanların taleyini Azərbaycanda Xalq Daxili İşlər Komissarlığının Xüsusi Müşavirəsinin sədri Xoren Qriqoryan həll edirdi. Sürgün olunanlar üçün Uzaq Şərqdə, Sibirdə və Orta Asiya çöllərində xüsusi yaşayış sahələri ayrılmışdı [61, 9].

SSRİ XDİK-nin VXAÜ – "Vətən xainlərinin ailə üzvləri" haqqında 00486 saylı operativ əmrinə uyğun olaraq repressiya olunmuş qadınlar, uşaqlar ALJİR-da yerləşdirilmişdilər. ALJİR "Qulaq arxipelaqları" adlandırılan ən böyük sovet qadın düşərgəsindən biri idi. 1938-1953-cü illərdə Qazaxıstanın Karaqanda vilayətinin Akmolinski vilayətində mövcud olmuş ALJİR 17-ci qadın düşərgəsi idi. Düşərgə Akmolinskoy vilayətindəki 26-cı qəsəbədə yerləşdiyi üçün xalq arasında "26 nöqtə" düşərgəsi kimi məşhurlaşmışdı. 1938-ci ilin yanvar ayının 10-dən başlayaraq SSRİ-nin müxtəlif respublikalarından o cümlədən, Azərbaycandan repressiya olunanlar mərhələlərlə düşərgəyə köçürülməyə başlandı. 1938-ci ilin ən şaxtalı yanvar ayında ALJİR-ə ilk mərhələdə köçürülənlər gəldilər. Ətrafına iki cərgə tikanlı məftil çəkilmiş və samandan düzəldilmiş barrikadalarla əhatə olunmuş 30 hektar torpaq - bu məhbusları gözləyən həbs düşərgəsi idi. Qadınlar yeni gətiriləcək məhbuslar üçün baraklar tikməyə və tarlada işləməyə məcbur edilirdilər [158]. Yarım il ərzində düşərgə doldu və Karlaqın rəhbərliyi müvəqqəti olaraq yeni gələn

VXAÜ – “Vətən xainlərinin ailə üzvləri”ni digər düşərgələrə bölüşdürməyə, payızda isə VXAÜ üçün yeni bir düşərgə yaratmağa məcbur oldu. I yarımildə düşərgədə olan ciddi rejim bir qədər sonra daha da sərtləşdirildi. Belə ki, məhbuslara qohumları ilə yazışmaq, bağlama almağa qadağalar qoyulurdu. Məhbus həyatını yaşamağa məhkum edilən bu qadınlara öz peşələri ilə məşğul olmaq qadağan idi. Yalnız o qadınlar öz peşələri ilə məşğul ola bilərdilər ki, onların işləri islah-əmək düşərgələrinə lazım idi. Humanitar sahənin mütəxəssisləri – yazıçılar, müəllimələr, musiqiçilər və digərlərinə tibbi komissiya yalançı “TF” kateqoriyası (yəni ağır fiziki işi görməyə yararlıdır) təyin edirdi. Nəticədə onların əməyindən geniş əkin sahələrində kənd təsərrüfatı işlərində, tikintidə istifadə olunurdu. Xəstələr, zəiflər, qocalar və uşaqlar tikiş-toxuculuq fabriklərində işləməyə məhkum edilirdilər. Bu qadınların tərkibi çoxmillətli idi. Onların içərisində ukraynalı, belarus, rus və sair millətlərlə yanaşı azərbaycanlı qadınlar da var idi. Hələlik 44 nəfər azərbaycanlı qadının adı məlum olsa da onların sayının daha çox olduğu istisna edilmir. Belə ki, düşərgənin sakinləri olanlardan ağır, işgəncəli həyata dözməyib həlak olmuş qadın, qoca və uşaqların dəqiq sayı məlum deyildir. Onların hamısı Malinovka adlı kəndin yaxınlığındakı çöllükdə elə formada dəfn olunurdular ki, sonradan qəbirlərin sayını dəqiqləşdirmək mümkün olmurdu [160].

Bu qadınların ərləri antisovet ünsürlər adlandırılaraq, sürgün edilmiş daha sonra isə güllələnmişdilər. Sürgündə ərlərinin güllələndiklərindən xəbərsiz olan bu qadınları aldadaraq onlara “sizi ərləriniz ilə görüşdürmək üçün onların yanına aparırıq” demişlər. Bu qadınlar da ən gözəl, zərif paltarlarını geyinərək öz həyat yoldaşları ilə görüşə gedirmiş kimi hazırlaşmışlar. Lakin, artıq yük qatarlarına doldurulduqları andan qadınlar bu yolun heç də uğurlu olmayacağını hiss etməyə başlayırlar. Lakin, artıq gec idi... Onlar mənzil başına çatanda bildilər ki, onların övladları da əllərindən alınaraq xüsusi təyinatlı uşaq evlərinə verilmişdir.

Qazaxıstana sürgün olunan qadınlara rəhm edən yerli əhali bilirdi ki, bu qadınlara hər hansı kömək göstərsələr nəzarətçilər tərəfindən ağır cəzalandırılacaqlar. Lakin, qazax xalqı çox yardımsevər, cəfakeş xalqdır. Ona görə də onlar nə yolla olursa olsun, acınacaqlı vəziyyətə düşmüş bu qadınlara kömək etmək istəyirdilər. Bu qadınları acından ölməkdən xilas etmək üçün yerli əhali öz övladlarını başa salırdı ki, evdə hazırladıqları qurut dənələrini ehtiyatla bu qadınlara atsınlar. Kənardan bu heç bir şübhə ilə qarşılanmasın deyə, uşaqlar zahirən bunu çox qəzəblə etməli olurdular. Bunun daş olduğunu zənn edən nəzarətçilər qadınları lağa qoyaraq onlara "gör nə qədər rəzilsiniz ki, hətta uşaqlar da sizə nifrət edir, sizi daşa tuturlar" deyirdilər. Əsasən şərq mətbəxində geniş istifadə olunan bu qurutları görən qadınlar çox ehtiyatla onları yerdən götürərək gizlincə ağızlarına qoyaraq acından ölməkdən xilas olurdular [47].

Azərbaycan dünyanın əlverişli mülayim iqlim tipinə malik ölkə olduğundan sürgün edilən azərbaycanlıların böyük əksəriyyəti Qazaxıstanın çox əlverişsiz kəskin kontinental iqliminə heç cür uyğunlaşa bilməyib və həlak olmuşlar. (Qazaxıstanda qışda mənfi 40 dərəcəyə qədər şaxta olduğu halda, yayda müsbət 40 dərəcə (həşəratları belə külə döndərən) isti quru hava olur. Qışda qarı, yayda isə qumu sovurmaqla il boyu sakitləşməyən çöl küləyi əsir. 1953-cü il martın 5-i Stalinin həyatının və SSRİ-də kütləvi repressiyaların sonu kimi tarixə daxil oldu. 1953-cü ildə Karlaqın (Карагандинское лагер) 17-ci düşərgəsi olan ALJİR bağlandı.

2007-ci il may ayının 31-də "ALJİR" – muzey-memorial kompleksinin açılışı oldu. Bu muzey eyni adlı düşərgənin yerində salınmışdır. Muzeyin açılışı 1997-ci ildə "31 may" tarixinin "siyasi repressiya qurbanlarının xatirəsi günü" təyin olunması haqqında sərəncamın 10 illiyinə, kütləvi siyasi repressiyaların isə 70 illiyinə bir töhfə olmuşdur. Muzeyin açılışında Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev də iştirak etmiş və bir çox maraqlı tarixi faktlara toxunaraq çox təsirli nitq söyləmişdir [160]. Muzey 1938-1953-cü illərdə ALJİR-də məh-

kumluq həyatı yaşayan qadınların əl işləri, onların övladlarına tikdikləri paltar nümunələri, ayrı-ayrı uşaq evlərindən, düşərgələrdən uşaqların analarına ünvanlandıqları məktublar və s. tarixi eksponatlarla zəngindir. Muzeyin girişində qadınların düşərgələrə gətirildiyi yük qatarının vaqonlarından biri yerləşdirilib ki, bu da o qadınların necə çətin şəraitdə gətirildiyini nümayiş etdirir.

1933-cü ilin mayında Azərbaycanın müxtəlif rayonlarından minlərlə adam sürgün olundu. Onların arasında çoxlu qadın, qoca, uşaqlar vardı. Köçürülmə prosesi ailəliklə həyata keçirilirdi. Bu ailələr "kollektivləşdirmə siyasətinə qarşı çıxdıqları üçün" sürgün olunurdular. Əslində bu ailələrdən çox az bir qismi həqiqətən də 1929-cu illərdən başlanan və kütləvi şəkil alan kollektivləşməyə qarşı çıxıblar. Böyük əksəriyyəti ilə heç bir real səbəb olmadan sürgünə məruz qalmışlar.

1934-cü il dekabrın 25-də Azərbaycan Kommunist Partiyası, "qolçomaqlardan, qatı antisovet elementlərdən, keçmişdə iri kapitalist müəssisələrinin sahiblərindən, ittifaqın başqa bölgələrindən qaçmış qolçomaqlardan ibarət 87 ailənin əmlakları müsadirə olunmaqla inzibati qaydada konsentrasiya düşərgələrinə sürgün edilməsinə" sanksiya verilməsi xahişi ilə Siyasi Büroya müraciət etdi. 1937-ci il mayın 10-da 600 ailə yük vaqonlarında əsgərlərin müşayiəti ilə ömürlük yaşamaq üçün Mərkəzi Asiya çöllərinə yola salındı. 1937-ci ilin iyunundan başlayaraq isə xüsusi qrafik üzrə Azərbaycandan Mərkəzi Asiya və Sibirə belə eşelonların yola salınmasına başlandı. SSRİ Daxili İşlər Nazirliyinin 19 yanvar 1955-ci il tarixli 0026 №-li əmrinə əsasən repressiya olunmuşların 26 mininin işinin yandırılması bu əməliyyatların dəqiq miqyasını göstərməkdə çətinliklər yaradır. Lakin, bəzi sənədlərə əsasən aydınlaşdırmaq olur ki, 1937-ci ildən sonra Naxçıvan MR-dan 957, Biləsuvardan 290, Astraxanbazardan 205, Əli Bayramlıdan 145, Qaryagindən (Cəbrayıldan) 155, Ağcabədidən 195, İmişlidən 348, Masallıdan 208, Noraşendən 417, Naxçıvan şəhərindən 185 və Bakı şəhərindən 218 ailə sürgün olunmuşdur [61, 10].

1937-ci ildə Qazaxıstana sürgün olunmuş ailələrdən biri də Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin ailəsi olmuşdur. Bu ailənin Qazaxıstandakı sürgün həyatı ilə bağlı məlumatdan öncə qısaca da olsa bu faktları qeyd etmək istərdim:

1. Oğlu Rəsul. 19 yaşında 1938-ci ildə güllələnmişdir.

2. Həyat yoldaşı Ümmülbanu, anası Maral xanım, qızı Lətifə, nəvəsi Evşa sürgündə həlak olublar.

3. Qızı Xalidə, onun oğlu, nəvəsi Sona itkin düşüblər.

4. Oğlu Azər bəy 56 illik sürgündən sonra vətənə qayıdıb....ancaq tabutda [115].

1937-ci ilin noyabrın 27-də Azərbaycan XDİK-də Məhəmməd Əmin Rəsulzadənin ailəsinin Qazaxıstan SSR-də xüsusi köçürmə yerinə göndərilməsinə dair qərar qəbul olundu. Üç gündən sonra onları mühafizə dəstəsinin sərt nəzarəti altında uzun yük qatarının heyvan daşımaq üçün nəzərdə tutulan vaqonlarından birinə doldurdular. 29 sutkadan sonra Qazaxıstan SSR-in Çimkənd vilayətinin Suzax rayonunda Çulak-Kurqan deyilən aulda bu yük qatarlarından boşaldırdılar. Çulak-Kurqan qazax aulu idi. Lakin, 1930-cu illərin sonlarında buraya sürgün edilmiş ruslar, ukraynalılar, almanlar, latışlar, sonra da azərbaycanlılar qazaxların özlərindən çox idilər. 1937-ci ildə Çulak-Kurqanda məskunlaşan Rəsulzadə və Sultanovlar ailəsi ilk azərbaycanlılardan idilər. Onu da qeyd etmək lazımdır ki, Məhəmməd Əmin Rəsulzadənin ailəsinin faciəsi təkcə onlara 1989-cu ildə bəraət veriləne qədər deyil, sonra da davam etmişdir. Azərbaycanın kommunist rəhbərliyi Azər bəyin və onun oğlu, rəssam Rəisin talelərinə tam biganəlik göstərirdi. Sürgündən dönən ailə üzvləri (Məhəmməd Əmin Rəsulzadənin nəvələri – Azər bəyin oğlu Rəis, Lətifənin qızı Firuzə Bakıda, Azər bəyin oğlu Ramiz isə Naxçıvanda məskunlaşmışdılar) çətin şəraitdə, hətta uzun müddət zirzəmidə yaşamağa məcbur olmuşdular [115].

Sovet repressiyaları nəticəsində Qazaxıstana sürgün olunmuş ziyalı azərbaycanlılardan biri də “Kaspi” qəzetinin

redaktoru, “Həyat” qəzetinin, daha sonra “Füyuzat” jurnalının baş redaktoru və əsas yazarlarından biri olmuş ərəb, fars, rus və alman dillərini mükəmməl bilən pedaqoq, rəssam, filosof, jurnalist, həkim, türkçülüyün ideya müəlliflərindən biri olan ictimai xadim və bunların hamısından öncə isə vətənpərvər azərbaycanlı olan Əli bəy Hüseynzadənin ailəsidir. Belə ki, 1926-cı ildə Əli bəy Hüseynzadə Bakıya I Türkoloji qurultayda iştirak etmək üçün gəldi. Əli bəy Türkiyəyə qayıdanda qardaşı İsmayıl bəyə dedi: “Mən daha sizə məktub yazmayacağam. Bilirəm bu sizin üçün təhlükəlidir”. Bu, Əli bəyin Azərbaycana son gəlişi oldu. O vaxtdan daha buradakı əzizlərinə məktub da yollamadı. Amma Əli bəyin doğmalarını qorumaq cəhdi baş tutmadı. Əli bəy Hüseynzadənin yeganə qardaşı İsmayıl bəyin və onun övladlarının, gəlinlərinin, nəvələrinin başına Sovet hökuməti çox bəlalar gətirdi.

Əli bəy kimi İsmayıl bəyin də təhsilinə babası uşaq yaşlarından diqqət göstərmişdi. Əvvəl dini təhsil alan İsmayıl Hüseynzadə sonralar Tiflis gimnaziyasına daxil olsa da, bu məktəbi tamamlamadan nənəsinin xahişi ilə azad edildi. Salyanda yaşadı. Orada İkinci dərəcəli Müttəhid Zəhmət Məktəbində dərs dedi. Uzun illər Salyanda məktəb direktoru işlədi. İsmayıl bəy Əli bəydən fərqli olaraq ailə qurmağa gecikmədi. Xalası Fatmanın qızı Mina xanımla evləndi. Onların altı uşağı – beş oğlu, bir qızı oldu. Oğlanlarından biri uşaq ikən vəfat etdi. Böyük oğulları Sultan Hüseynzadə hərbçi oldu. Rus ordusunun zabiti idi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) bərqərar olduğu illərdə o, milli orduda qulluq elədi. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra adı “qara siyahı” düşdü, təqiblərə məruz qaldı. Gec-tez həbs ediləcəyini bilən Sultan Hüseynzadə İrana qaçdı. İran ordusunda xidmət edərək general rütbəsinə yüksəldi. Bir daha Vətəninə dönə bilmədi. İsmayıl bəyin qardaş həsrətinə bir də oğul həsrəti qarışdı. Sovet hökumətinin rəhbərləri düşmən axtarışındaydılar. Belə ağır, qorxulu günlərdə Hüseynzadələri də “unutmadılar”. İsmayıl bəyi qardaşı Əli bəyə və oğlu Sultan bəyə görə iki dəfə həbs etdilər,

sürgünə göndərdilər. Cəza müddəti bitdikdən sonra Bakıya qayıtdı. Onu bundan sonra daha ağır sınaqlar gözləyirdi…

1933-cü ildə İsmayıl bəyin oğlu Firudin Hüseynzadə həbs olundu. 1937-ci ildə Bəhram Hüseynzadənin ocağını söndürdülər. Onun həyat yoldaşı Alman qızı Lizaya Azərbaycanda yaşamaq qadağan edildi. Onu Almaniyaya geri göndərdilər. Qızını aparmağına icazə vermədilər. Bəhram Hüseynzadə də həbs olundu. Anasız, atasız qalan Rayananı əmisi Şəmsəddin Hüseynzadə himayəsinə götürdü. Bəhram Hüseynzadəyə ölüm cəzası kəsdilər. Sonra hökm iyirmi beş illik sürgünlə əvəz olundu. Qərar yerinə yetirildi. Böyük Vətən müharibəsindən xeyli qabaq İsmayıl bəyin qızı Böyükxanım Hacıağa İbrahimbəyli ilə ailə qurub, həyat yoldaşının soyadını qəbul elədi. Onu həbsxana, sürgün əzabından xilas eləyən də bu oldu.

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda Hüseynzadələr ailəsi belə ağır günlər yaşayırdı. Bəhram və Firudin Hüseynzadələr sürgündə idilər. Bakıda qalanlar da sabah başlarına nələr gətiriləcəyini bilmirdilər. İsmayıl bəy artıq işləmirdi. Şəmsəddin Hüseynzadə isə Bakı Neftayırma Texnikumunda dərs hissə müdiri vəzifəsində çalışırdı. Bir gün onların qapısı yenə döyüldü. Təşviş içərisində açdılar. Gələnlər sənəd belə təqdim etmədən yalnız bunu dedilər: "Sürgün edilirsiz". Onlara yır-yığış etmək üçün 24 saat vaxt verildi. Sürgün olunduqları yerə – Şimali Qazaxıstanın Balacarı kəndinə çatanadək çox əziyyətlərə qatlaşdılar. Yeni məskənlərində isə onları məhrumiyyətlərlə dolu daha acınacaqlı həyat gözləyirdi. Sürgündə yeni peşə öyrəndilər. Sürgün yoldaşları kimi faydalı yataqlarda işləməli, qızıl çıxartmalıydılar. Yaşamaq üçün mübarizə edirdilər. Belə çətin günlərdə də İsmayıl bəy kimsəyə yük olmaq istəmirdi. Hamıya bacardığı qədər köməklik göstərirdi. Gördüyü zülmlər, çəkdiyi əzablar sağlamlığını əlindən almışdı. 1942-ci ildə o, sürgündə vəfat etdi. Çətin günlər bitib-tükənmək bilmirdi. Şəmsəddin bəyin həyat yoldaşı Anna bu məşəqqətlərə tab gətirə bilməyib gənc yaşında dünyadan köçdü. Bir müddət sonra Şəmsəddin Hüseynzadə yenidən ailə qurdu. İkinci həyat

yoldaşı Sima ukraynalı idi. Sovet hökuməti onun da babasını güllələtmiş, ailənin qalan üzvlərini isə Şimali Qazaxıstana sürgün eləmişdi. Sima da sürgündə dünyaya gəlmişdi. Şəmsəddin Hüseynzadə və Sima xanımın qızları Cəmilə də sürgündə doğuldu. Hal-hazırda Türkiyədə yaşayan və tez-tez vətəni Azərbaycana da baş çəkən Cəmilə xanım babalarının yolunu davam etdirir [184].

Sovet repressiyaları nəticəsində Mərkəzi Asiyaya sürgün olunmuş ziyalı azərbaycanlılardan biri də Məqsud Şeyxzadə və onun ailəsi olmuşdur. Məqsud Məsim oğlu Şeyxzadə 1908-ci ildə Ağdaş şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atasının Ağdaşda açdığı məktəbdə oxuyarkən Nəriman Nərimanov bu şəhəri ziyarət edir. Məktəbin əlaçı şagirdi olan Məqsud şeir oxumaq üçün kürsüyə çıxır. Oxuduğu şeirlər Nərimanovun çox xoşuna gəlir. Nərimanov sonralar həmin şeirlərin üçünü 21 dekabr 1921-ci ildə "Kommunist" qəzetində dərc etdirir. Məqsud Şeyxzadə ədəbi fəaliyyətə də elə 1921-ci ildə başlamışdı. Onun "Nəriman Nərimanov haqqında şərq masalı" ilk qələm təcrübəsi hesab olunur. Bir müddət sonra Məqsud Şeyxzadə Ağdaşdan Bakıya yola düşür. Bakı Pedaqoji Məktəbində o vaxtların iki sevilən müəllimi dərs deyirdi – Hüseyn Cavid və Abdulla Şaiq. Məqsud onlardan vətənə, millətə eyni zamanda ədəbiyyata məhəbbəti, sədaqəti və türklüyün əsl dəyərini öyrənir. Sonralar Özbəkistanda yaşayanda "Mirzə Uluqbəy" əsərini qələmə alarkən Hüseyn Cavidin ona olan təsirlərindən də söz açırdı. 1925-ci ildə Bakıda Müəllimlər Məktəbini bitirmişdir. Məktəbi bitirər-bitirməz Dərbəndə göndərilir. M.Şeyxzadə 1925-27-ci illərdə Dağıstanın Buynaksk və Dərbənd şəhərlərində müəllim işləmişdir. Orada həm müəllimlik edir, həm də şeirlər yazır. Qəzetlərdə "Azad dağlar qızına", "Şeyx Şamil", "Bu axşam" və "Sahildə" adlı şeirləri dərc olunur. Dərbənddə yaşamasına baxmayaraq, tez-tez Bakıya gəlirdi. Burada Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsində oxuyurdu. 1927-ci ili Məqsud Şeyxzadənin qaranlıq illərinin başlanğıcı saymaq olar. Dağıstanın Sovet İttifaqına daxil olub-

olmaması mövzusunda aparılan müzakirələrin ən fəal iştirakçılarından biri də Məqsud Şeyxzadə olur. O, Dağıstanın Sovet İttifaqına daxil olunmasına etiraz edənlərdən biri idi [181]. Çox keçmir ki, Stalinin cəlladları tərəfindən yaxalanır və milliyyətçi damğası ilə həbsə atılır. Sonra isə sürgün edilir. Məqsud Şeyxzadəyə türklüyün odlu, alovlu müdafiəçilərinin yaşadığı Krım və Qafqaza getmək qadağan olunur. Atası onu Özbəkistanın paytaxtı Daşkəndə göndərir. Məqsud Şeyxzadə Daşkənddə ətrafına özü kimi düşünən insanları toplayır və mübarizəsini davam etdirir. Bir müddət "Qızıl Özbəkistan", "Şərq həqiqəti" qəzetlərində çalışan Məqsud Şeyxzadə 1938-ci ildə yenidən müəllimlik etməyə başlayır, Nizami adına Daşkənd Pedaqoji İnstitutunda dərs deyir. 1929-cu ildən ömrünün sonunadək Özbəkistanda yaşamışdır. 1933-35-ci illərdə Daşkənd Universitetinin aspirantı, 1935-38-ci illərdə Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi olmuşdur. 1938-ci ildə Nizami adına Daşkənd pedaqoji institutunda özbək ədəbiyyatı tarixindən dərs demişdir. 1929-cu ildən M.Şeyxzadə ancaq özbək dilində yazmağa başlayır. "Üçüncü kitab", "Ağsaqqal", "İllər və yollar", "Daşkəndnamə" və s. onun ən yaxşı əsərləridir. "Cəmaləddin" pyesi özbək xalqının monqol işğalçılarına qarşı mübarizəsinə həsr olunmuşdur. M.Şeyxzadə Nizami, Füzuli, M.F.Axundov, A.S.Puşkin, M.Lermontov, V.Şekspir, İ.Höte, C.Bayron, Ş.Rustaveli və bir sıra başqa dünya klassiklərini özbək dilinə tərcümə etmişdir. O, ən gözəl əsərlərini Daşkənddə yazıb. "Üçüncü kitab", "Cümhuriyyət", "Cəlaləddin Mengüberdi" kimi əsərləri özbək türkcəsində nəşr olunub. Məqsud Şeyxzadə 1952-ci ildə yenidən millətçilikdə günahlandırılaraq həbs edilir. Daşkənd məhkəməsi ona 25 il həbs cəzası kəsir. O, Sibirə göndərilir. 1953-cü ildə Stalinin ölüm xəbərini eşidən Məqsud Şeyxzadənin anası Fatma xanım SSRİ Ali Sovetinin Rəyasət Heyətinə oğlunun əfv olunması üçün məktub göndərir. 1954-cü ildə Məqsud azad olunur. Amma Daşkənd artıq köhnə Daşkənd deyildi. Bütün dostları ondan uzaq gəzməyə başlayır. Bir-iki dostundan başqa heç kəs ona salam vermir, hətta yazdığı

əsərlərin qəzet və dərgilərdə yayımlanmaması üçün əllərindən gələni edirlər. Xruşovun məşhur çıxışından sonra vəziyyət dəyişir və Məqsud Şeyxzadə köhnə vaxtlardakı kimi ədəbiyyat sahəsində görünməyə başlayır. O, böyük sevinc içində "Daşkəndnamə" adlı əsər yazır. Bu əsər dərc edildikdən sonra böyük əks-səda doğurur. 1958-ci ildə Daşkənddə təşkil olunmuş Asiya Afrika Yazıçılar Konqresinə qatılan Nazim Hikmət, Əziz Nesin, Melih Cevdet Anday kimi türkiyəli solçu şair və yazıçılarla əlaqə yaradır. Məqsud Şeyxzadə ölümünə qədər içindəki vətən həsrətini, vətən eşqini yazaraq təsəlli etməyə çalışır. Bəzən Uluqbəyə, bəzən də Xarəzm türklərinin məşhur lideri Cəlaləddin Xarəzmşaha baş vurur. Kitabları həm özbəkcə, həm də türkcə nəşr edilir. "Mirzə Uluqbəy" adlı əsəri ekranlaşdırılır. Məqsud Şeyxzadənin əsərləri sonuncu dəfə 1971-1974-cü illərdə altı cild şəklində nəşr olunub. M.Şeyxzadənin əsərləri bir sıra dünya dillərinə tərcümə olunmuşdur. Məqsud Şeyxzadə 1967-ci ildə Daşkənddə vəfat etmiş, orada da dəfn olunmuşdur. Qardaşı Fuad Şıxıyev (1913-1977) texnika elmləri doktoru, professor idi. Odessa Milli Dənizçilik Universitetinin hidrotexnika fakültəsinin yaradıcılarından biri, elmi işlər üzrə prorektoru olmuşdur (90-cı illərdə vəfat etmişdir).

1937-1938-ci illərdə sürgün olunanların arasında 700 nəfərə yaxın tacir ailəsinin olması sovet hakimiyyətində tacirləri "üzdəniraq bir sinif" hesab edərək onları imperiyanın yaşamaq üçün heç bir şəraiti olmayan ucqarlarına sürgün edirdilər. Lakin, sürgün olunanların içərisində müəllimlər, həkimlər, din xadimləri, imkanlı ailələr və eyni zamanda sadə zəhmətkeş insanlar da az deyildi. Bu insanlar bir neçə gün yol getdikdən sonra Qazaxıstanın Şotland kəndi yaxınlığında boşaldıldılar. Qarovulçu məntəqələri postları qoyur və adamlara izah edirdilər ki, onlar hər ailəyə bir otaqdan artıq olmamaq şərti ilə iki ayın müddətinə özlərinə daimi mənzil tikməlidirlər. Tikinti üçün material bunlardan ibarət idi: çiy kərpic, qamış, qovaq ağacları. Adambaşı sutkada 200-400 qram qara çörək və həftədə bir dəfə hər ailəyə bir vedrə çürümüş kartof verirdilər. Sürgün olunmuş

insanlar qısa müddətdə başlarına gələn bu faciələrin şokundan ayılıb bu işə ciddi yanaşa bilmirdilər. Onlara elə gəlirdi ki, tezliklə hər şey aydınlaşacaq, onlar geri qaytarılacaqlar. Həm də onlar buraya yayda köçürüldüklərindən havaların isti keçməsi də insanları bir qədər ev tikmək məsələsinə tələsməməsinə səbəb olmuşdur. Qarşıda onları hansı fəlakətlərin gözlədiyindən xəbərsiz olan insanlar sentyabr ayında ilk qarın şahidi oldular. Bunun arxasınca şaxtalar başlandı. Bu vaxta qədər yalnız ümumi yeməkxana və hamam tikilib başa gəlmişdi, evlərin isə əksəriyyəti hazır deyildi. Şahidlərin dediyinə görə, yaza yalnız min nəfər adam sağ çıxdı. Qalan bütün azərbaycanlıların bəziləri soyuqdan, bəziləri xəstəlikdən digərləri isə aclıqdan həlak olmuşdular. Soyuqlar başlayanda ilk həlak olanlar arasında qocalar, uşaqlar üstünlük təşkil edirdilər. Qışda torpaq elə donmuşdu ki, onu bellə qazmaq mümkün olmadığından həlak olanların meyitlərini açıq havada bir-birinin üstünə qalaqlayıb, yazın açılmasını gözləyirdilər. Yazda isə onları ümumi qəbirlərdə dəfn edirdilər [70, 38-41].

Sürgün olunmuşların içərisində Hacıyev Həsən adlı bir həkim Stalinə məktub yazaraq bildirir ki, əgər bizim hamımızı sinfi düşmən kimi məhv etmək istəyirsinizsə, əzab-əziyyət vermədən birdəfəlik güllələyin. Yox əgər sürgün olunmuşları cəmiyyətin tam hüquqlu üzvləri sayırsınızsa, onda bizi elə yerdə yerləşdirin ki, orada yaşamaq mümkün olsun. “Biz heç vaxt bu qədər qar görməmiş cənublularıq, mənfi 40 dərəcə şaxtaya dözə bilmirik” [68, 32].

1934-cü ilin yayında Hacıyevin ailəsindən başqa, sürgün olunmuş ailələrin hamısını Qırğızıstanın Qara Balta rayonuna köçürtdülər. Sonra isə bu insanların bir hissəsini Kant rayonunun çuğundurçuluqla məşğul olan sovxozun ikinci şöbəsinə göndərdilər [68, 33]. Hətta bu vəziyyətdə də camaatı bir-birindən ayırmaq sanki onların başlıca vəzifəsinə çevrilmişdi. Təsadüfi deyildir ki, Ümummilli liderimiz Heydər Əliyev 1997-ci ilin iyununda Qazaxıstana rəsmi səfəri zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşəndə demişdir: ”Siz çox

bəlalar görmüsünüz, ən yaxın adamlarınızı itirmisiniz, qismətinizə düşən dəhşətli sınaqlardan çıxmısınız. Lakin bu cəhənnəmdən mərdlik və mətanətlə keçmisiniz”... [6, 189].

Onu da qeyd etmək lazımdır ki, bir qədər sonra başlayan və SSRİ tarixşünaslığında Böyük Vətən müharibəsi kimi tarixə daxil olan müharibədə sovet hökuməti sinfi düşmən adlandırdığı bu insanların əməyindən geniş istifadə etdi. Belə ki, sürgündə sağ qalan kişilər müharibəyə səfərbər edildilər. Faşizm üzərində qələbədə əllərindən gələni edən bu kişilərin böyük əksəriyyəti müharibədən qayıtmadılar. Qadınlar isə cəbhənin ehtiyaclarını ödəmək üçün tarlada işlədilər. Lakin, faşizm üzərində qələbə belə sürgündə olan azərbaycanlıların arzusunda olduqları normal həyatı onlara qaytarmadı.

SSRİ dövlət müdafiə komitəsinin 31 iyul 1944-cü ilin noyabr ayında Qərbi Gürcüstanın sərhəd rayonlarında yaşayan 500 mindən çox əhalisi olan 220 yaşayış məntəqəsinin müsəlman sakinlərini, ahıska türklərini (onların arasında 70 mindən çox azərbaycanlı olmuşdur), 1947-1950-ci illərdə isə İrandan SSRİ-yə pənah gətirmiş Gürcüstanda (Tbilisi şəhərində, Marneuli və Qardabani rayonlarında) və Azərbaycanın Gəncə şəhərində, Quba və İmişli rayonlarında yaşayan azərbaycanlıları siyasi motivlərlə bağlı olaraq “xüsusi köçkünlər” adı altında sürgün edilməsi həyata keçirildi. “Xüsusi köçkün” statusu almış və eləcə də “xalq düşməni”, “sinfi düşmən”, “kulak” və s. adlarla saxlanılan repressiya qurbanlarının bütün vətəndaşlıq hüquqları məhdudlaşdırılmışdı. Xüsusi icazə olmadan onlar yaşadıqları ərazini tərk edə bilməzdilər. Beş kilometr məsafədən uzağa gedən hər kəs qaçmış hesab olunurdu və müəyyən cəzaya məruz qalırdı. İki həftədən bir (sonralar ayda bir dəfə) qeydiyyatdan keçməli idilər.

SSRİ Ali Sovetinin 26 noyabr 1948-ci il tarixli fərmanında almanların, inquşların, çeçenlərin, kamıkların, latışların, tatarların və eləcə də azərbaycanlıların onlara verilən rayonlara daimi köçürüldüyü göstərilmişdi. Daxili işlər nazirliyinin xüsusi icazəsi olmadan yaşayış yerlərini dəyişən hər kəs 20 il müddətinə

katorqa işləri ilə cəzalandırılmalıdır. Bu fərmanla onların "xüsusi köçkün" statusu yenə də qüvvədə saxlanılırdı. "Xüsusi köçkün" statusu əslində "xalq düşməni", "sinfi düşmən", "kulak" və s. kimi adların hələ də saxlanılması demək idi .

Stalin 1938-ci il yanvarın 17-də Xalq Daxili İşlər Komissarı N.Yejova ünvanlandığı məktubda yazırdı: "Bakıdakı və Azərbaycandakı iranlıların aşkar olunub həbs edilməsi ilə bağlı hansı işlər görülüb? Sizi istiqamətləndirmək üçün deyə bilərəm ki, vaxtilə eserlər Saratovda, Tambovda, Ukraynada, ordunun komandir heyətində, Daşkənddə və ümumiyyətlə bütün Orta Asiyada, Bakının elektrik stansiyalarında daha çox idilər. Bakının elektrik stansiyalarındakı eserlər hələ də orada oturub neft sənayesinə ciddi ziyan vurmaqla məşğuldurlar. Fəal və bacarıqla hərəkət etmək lazımdır!" [70, 38-41].

Repressiya miqyasının rəsmi tədqiqi zamanı SSRİ DİN-nin 1954-cü ilin yanvarında Xruşov və Malenkov üçün hazırlandığı raportda deyilirdi ki, Xalq Daxili İşlər Komissarlığı SSRİ ərazisində 20-ci ildən 50-ci illərin əvvəllərinədək olan dövrdə 3,5 milyon insan həbs edilmiş, onlardan 1 milyon 380 min nəfəri güllələnmiş, qalanı məhkum edilmiş, 3 milyon 180 min nəfəri isə sürgün olunmuşdur. Bu sənəddə həmçinin Azərbaycan SSRİ-də 12 min nəfərin güllələnməsindən və məhkum edilməsindən, 90 min adamın başqa regionlara sürgün olunmasından bəhs olunur. Lakin, o dövrün bütün tədqiqatçıları qeyd edilmiş rəqəmlərin dəfələrlə azaldıldığını bildirirlər. Azərbaycanlılar əsasən Orta Asiyaya, Sibirə sürgün edilmişlər. Orta Asiyaya gələn insanların əksəriyyəti Qazaxıstana, qalanı isə Özbəkistana, Qırğızıstana, Tacikistana, Türkmənistana göndərilmişdir.

1953-cü il martın 4-də radio ilə Sov. İKP və Nazirlər Sovetinin sovet xalqına İ.V.Stalin ağır xəstə olması barədə müraciəti səsləndi. Böyük rəhbərin beyninə qan sızmışdı... Hökumət ölkə başçısını müalicə etmək üçün dəvət olunmuş ən yaxşı həkimlərin siyahısı ilə tanış etdi. Əslində, həmin vaxt ən yaxşı həkimlər həbsxanada müstəntiqin suallarına cavab verirdilər. Martın 5-i günü gecə-gündüz radioda rəhbərin vəziy-

yətinin ağır olması barədə məlumatlar səslənirdi. Nəhayət, martın 6-da səhər tezdən Stalinin ölüm xəbəri ildırım sürəti ilə bütün dünyaya yayıldı...

1934-cü il dekabrın 1-də Leninqrad vilayət partiya komitəsinin katibi S.M.Kirovun öldürülməsi SSRİ-də total repressiyaların başlanması üçün bəhanə, 1953-cü il martın 5-də İ.Stalinin ölümü isə bu repressiyaların dayandırılması üçün səbəb oldu. 1953-cü ilin sentyabrından SSRİ MK-nin birinci katibi olan N.Xruşşov Stalinin yaxın adamlarını hakimiyyətdən uzaqlaşdırmaqla yanaşı, onun illərdən bəri apardığı ağır repressiya siyasətinin qurbanlarına da bəraət verdi. Ölkədə İslah-Əmək Düşərgələri ləğv olundu. Nəhayət, SSRİ Ali Sovetinin 13 dekabr 1955-ci il fərmanı ilə sürgündə olan insanların (o cümlədən azərbaycanlıların) üstündən "xüsusi köçkün" statusu götürülərək inzibati nəzarətdən azad edildilər. Lakin, həmin fərmana əsasən sürgün vaxtı müsadirə olunmuş əmlaklarının qaytarılmasına və onların öz doğma yurdlarına köçməsinə icazə verilmirdi. Göstərilən fərmandan təxminən 5 ay sonra, 1956-cı ilin aprel ayının 29-da SSRİ DİN-in xüsusi əmri ilə xalqlar üzərindəki (alman, krım tatarları və Məhsəti türklərindən başqa) bütün qadağalar demək olar ki, ləğv olundu. 1956-cı il ilin fevralında keçirilmiş Sov. İKP-nin XX qurultayında Stalinin şəxsiyyətinə pərəstiş kəskin tənqid olundu. 1956-cı il iyunun 30-da MK-da "Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılması barədə" qərar qəbul olundu. 1930-1940-cı illərdə repressiyaya məruz qalan minlərlə insana bəraət verildi. Lakin artıq bəraət qazananların bir hissəsi Mərkəzi Asiya və Sibirin iqliminə və məhrumiyyətlərlə dolu həyata dözməyib həlak olmuşdular. Sağ qalanlar isə həyatlarını qaldıqları yerdən davam edirdilər. Yəni bu bəraətlər onların həyatına xüsusi bir firavanlıq gətirmədi. Onsuz da onlara bəraət verən N.Xruşşov hökumətinə onların vəziyyətini yaxşılaşdırmaq və ya haqq ədalətin bərqərar olması maraqlı deyildi. Bu bəraətlərin verilməsi N.Xruşşov hökumətinə lazım olan siyasi gediş idi.

Əgər XX əsrin ortalarında azərbaycanlıların Qazaxıstana

miqrasiyasının əsas səbəbi xam və dincə qoyulmuş torpaqların istismarı idisə Mərkəzi Asiyanın digər respublikası olan Türkmənistana miqrasiyanın əsas səbəbi isə Azərbaycanın ixtisaslı, təcrübəli neftçilərinə Türkmənistanda böyük ehtiyac var idi. Alman faşizminə qarşı müharibə zamanı Şimali Qafqaz dəmir yolu 1942-ci ildə almanlar tərəfindən tutulduğundan Bakı nefti gəmilərlə Krasnovodskiyə (indiki Türkmənbaşı) daşınır və oradan da Aşqabad dəmir yolu vasitəsilə cəbhəyə göndərilirdi. Dövlət Müdafiə Komitəsi Mərkəzi Asiyanın müharibə təhlükəsindən uzaqlığını nəzərə alaraq, Türkmənistanda olan zəngin neft yataqlarından istifadə olunmasına diqqəti artırırdı. Yaranmış şərait Türkmənistan neft sənayesinin neft-maşın avadanlığı və xüsusilə ixtisaslı kadrlarla təmin edilməsini tələb edirdi ki, bu sahədə də əsas vəzifə Azərbaycan Respublikasının üzərinə düşürdü.

1940-cı ilədək türkmənlər içərisində neftçıxarma və qazma ustası, neftçi mühəndis yox idi. Azərbaycan neftçilərinin köməyi ilə Türkmənistan neft sənayesinin ixtisaslı kadrlarla təmin edilməsi üç yolla həyata keçirilirdi: 1. Türkmənistana ixtisaslı kadrlar göndərmək, 2. Yerli gəncləri Azərbaycanın institut və orta ixtisas peşə məktəblərinə cəlb etmək, 3. Türkmənistana göndərilmiş Azərbaycan neftçilərinin təşkil etdiyi kurslar vasitəsilə yerli kadrları hazırlamaq.

1942-ci ilin noyabr ayında DMK-nin qərarı ilə Azərbaycanın "Əzizbəyovneft", "Leninneft", "Kirovneft" və s. trestlərindən Türkmənistan neft sənayesinə 116 çilingər, 80 buruq ustası, 26 operator, 11 operator köməkçisi, 62 elektrik montyoru, 24 traktorçu, 16 sürücü, 14 dülgər, 27 neft istehsalı ustası, 5 təmir ustası, 2 geoloq, 35 xidmətçi, 10 mexanik, 86 ixtisaslı fəhlə, 3 maşinist, 98 müxtəlif ixtisaslı işçi və 38 mühəndis-texnik göndərilmişdir. Onların içərisində 182-si ailəli idi ki, ailə üzvlərinin də sayı 1231 nəfərə çatırdı. Ümumiyyətlə, Bakıdan Türkmənistan neft sənayesinə 1942-ci ildə 1624 nəfər, 1943-cü ildə 129 nəfər və 1944-cü ildə isə 92 nəfər müxtəlif ixtisaslı neftçi göndərilmişdir [98, 116].

1942-ci ildə DMK-nın qərarı ilə Türkmənistan neft mədənlərində işləməyə göndərilən Azərbaycan Neft və Kimya İnstitutunun məzunu Şeyxəli Dadaşov orada çalışdığı 40 ildən çox bir müddət ərzində sıravi istehsalat rəhbərliyindən "Türkmənneft" İstehsalat Birliyinin baş direktoru vəzifəsinədək yüksəlmişdir. 1948-1960-cı illərdə Birliyin rəis müavini, 1960-1976-cı illərdə rəisi, 1976-cı ildən isə baş direktoru vəzifəsində işləməyə başlamışdır. O, şərəfli əməyinə görə 1951-ci ildə SSRİ Dövlət Mükafatı laureatı, 1964-cü ildə Türkmənistan SSR-in əməkdar neftçisi, 1965-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sosialist Əməyi Qəhrəmanı kimi fəxri adlara layiq görülmüşdür. 1961-ci ildən Türkmənistan KP MK-nin üzvü, 6-9-cu çağırış Türkmənistan SSR Ali Sovetinin deputatı olmuş, 2 dəfə Lenin ordeni və daha bir neçə orden və medallarla təltif olunmuşdur [50, 385].

Azərbaycan neftçiləri Türkmənistanda Nebitdağ, Okarem, Bursa Gəlməs, Qoturtəpə, Çələkən və s. kimi zəngin neft və qaz yataqlarının kəşf edilməsi və işlədilməsində türkmən neftçilərinə hərtərəfli köməklik göstərmişlər. Bütün bu faktlardan belə nəticəyə gəlmək olar ki, Türkmənistan neft və qaz sənayesinin yaranması və inkişafında məhz buraya miqrasiya etmiş azərbaycanlıların çox böyük xidmətləri olmuşdur. Buraya miqrasiya etmiş azərbaycanlıların bir çoxu mövsümi fəaliyyətlərini başa vurduqdan sonra vətənə qayıtmışdılar. Lakin onların müəyyən hissəsi Mərkəzi Asiya ölkələrində uğurlu karyera qurduqları və ya burada ailə qurduqları üçün həyatlarının qalan hissəsini bu ölkələrdə yaşamışlar. Bu ölkələrdə fəaliyyət göstərmək üçün göndərilən azərbaycanlılar o dövrün təbirincə desək "Böyük Vətənin" vətəndaşları idilər. Lakin Böyük Vətənin süqutundan sonra hərə öz həqiqi vətəninin vətəndaşı, vətənindən uzaqda digər respublikalarda yaşayanlar isə diaspor nümayəndələrinə çevrildilər.

### 1.3. 1950-1980-ci illərdə Mərkəzi Asiya Respublikalarında azərbaycanlıların məskunlaşması

Mərkəzi Asiya Respublikalarında azərbaycanlıların məskunlaşması prosesinin növbəti mərhələsi XX əsrin ortalarından başlayır. Belə ki, Sov. İKP MK-nın 1953-cü ilin sentyabr, 1954-cü ilin fevral-mart, 1965-ci ilin mart plenumlarının tarixi qərarları xam və dincə qoyulmuş torpaqların kütləvi surətdə istifadə edilməsini nəzərdə tuturdu. Orta Asiya, Sibir, Ural və Povoljyedə olan xam və dincə qoyulmuş torpaqların hesabına yaxın illərdə taxıl əkini sahələrini genişləndirmək kimi "çox böyük dövlət əhəmiyyətli vəzifə" partiya təşkilatlarının, sovet və kənd təsərrüfatı idarələrinin qarşısında qoyulmuşdu [32, 146].

Azərbaycan KP MK bürosu və Azərbaycan SSR Nazirlər Soveti 1954-cü il mart ayının 16-da respublikanın sənaye müəssisələrində, idarələrində və kənd təsərrüfatında çalışan komsomolçulardan və gənclərdən xam və dincə qoyulmuş torpaqlardan istifadə etməyə getmək istəyən "könüllülərin" təşəbbüsünü müzakirə edib bəyəndilər. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Respublika Nazirlər Soveti xam və dincə qoyulmuş torpaqlara getmək istəyənləri Kənd Təsərrüfatı və Sovxoz nazirlikləri ilə birlikdə qeydə alıb, onları mütəşəkkil surətdə yola salmağı Azərbaycan LKGİ Mərkəzi Komitəsinə və Bakı Komitəsinə tapşırdılar.

1954-cü il martın 22-də Azərbaycan KP MK-nin, Azərbaycan SSR Nazirlər Sovetinin, Azərbaycan LKGİ MK-nin və Bakı Komitəsinin nümayəndələri ilə Qazaxıstan SSR-in Pavlodar vilayətinə göndərilən gənclərlə görüş oldu. Ertəsi gün Bakı sərnişin vağzalından Pavlodar vilayətinə 230 traktorçu, dəmirçi, çilingər, elektrik qaynaqçısı, inşaatçı və sürücü göndərildi. 1954-cü ilin aprel ayında Qazaxıstan SSR-in Karaqanda vilayətinə 20 sürücü və 100 nəfər təmirçi göndərildi. May ayında Qazaxıstana 130 nəfər tibb işçisi, iyul ayında Altay ölkəsinə 295

nəfər aqronom, mexanizator, həkim və digər kənd təsərrüfatı mütəxəssisi göndərildi («Бакински рабочи» qəzeti 23.3.1954).

1955-ci il mayın 10-da Qazaxıstan SSR-in Pavlodar vilayətinə 100 nəfər mühəndis, texnik, quraşdırıcı və daşyonan göndərildi. 1955-ci ilin mart ayının 14-də Azərbaycan Kommunist partiyası MK-nın, Azərbaycan KP Bakı Komitəsinin və Azərbaycan LKGİ MK-nın nümayəndələri 400 nəfər gənci "Dağıstan" gəmisi ilə Qazaxıstana yola saldılar [114, 16].

1955-ci ilin birinci yarısında Azərbaycan SSR-dən Qazaxıstan SSR-in "Makançinski", "Urcar" və "Korostelevski" taxılçılıq sovxozlarına komsomol putyovkası ilə 600 nəfər oğlan və qız göndərildi. Azərbaycan SSR-in ehtiyat əmək qüvvələri idarəsinin kənd təsərrüfatını mexanikləşdirmək məktəblərini qurtaranlardan 200 nəfəri Şimali Qazaxıstan vilayətinin "Cerkasski" taxılçılıq sovxozuna, 200 nəfər isə Petropavlovsk vilayətinə göndərildi.

1955-ci il 15 dekabrda Azərbaycan LKGİ-nin XX qurultayına MK-nın hesabat məruzəsində deyilirdi ki, Qazaxıstan SSR-in Semipalatinsk vilayətinə göndərilmiş 200 nəfərdən çox komsomolçunun fəal iştirakı ilə "Makancinski", "Urcar" və "Korestelevsk" sovxozları yaradılmışdır [114, 12].

Bakı şəhərinin 26 Bakı komissarı rayonunun komsomolçuları, gəncləri və fəhlələrinin də böyük bir dəstəsi 1956-cı ildə Qazaxıstan SSR-in Semipalatinsk vilayəti Kokcetav rayonundakı Ulqulmaşi sovxozunun xam və dincə qoyulmuş torpaqlarında yetişdirilmiş bol taxıl məhsulunu yığmaqda və başqa işlərdə kömək etmək üçün getdi [72, 3].

Sov. İKP MK və SSRİ Nazirlər Soveti 1957-ci il iyun ayının 4-də SSR-in xam və dincə qoyulmuş torpaqlarda məhsul yığımına kömək etmək haqqında məsələ müzakirə etdilər [128, 137]. Həmin qərara əsasən Azərbaycan SSR-də 1957-ci ilin məhsul yığımına 3000 nəfər göndərməli idi. Azərbaycan SSR-dən Qazaxıstana 1957-ci il iyulun 16-da 1900 nəfər, 18-də isə 1100 nəfər – cəmi 3000 nəfər yola salındı. Onlar Qərbi Qazaxıstan vilayətinin 9 rayonunda işə başladılar. Zelenovski

rayonunun Furmanov adına kolxozunda çalışan dəstəyə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi A.Əliyev başçılıq edirdi. Onunla birlikdə bir neçə tələbə “Yeni torpaqlardan istifadə edilməsi üçün” nişanı ilə təltif edildilər [114, 41].

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1958-ci il iyulun 1-də Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin qərarına əsasən, Azərbaycan komsomolçu və gənclərinin 1958-ci ildə xam və dincə qoyulmuş torpaqlarda məhsul yığımında iştirakı haqqında xüsusi qərar qəbul etdilər. Həmin qərara görə, Azərbaycan SSR 1958-ci ildə məhsul yığımında kömək etmək üçün 4000 nəfər göndərməli idi [20, 282]. Onu da qeyd etmək lazımdır ki, vaxtaşırı Özbəkistandan, Türkmənistandan, Tacikistandan da geniş nümayəndə heyətləri Azərbaycan SSR-dəki qabaqcıl təcrübəni öyrənmək üçün bura gəlirdilər

Bakı, Kirovabad (Gəncə), Naxçıvan, Sumqayıt, Mingəçevir şəhərlərindən, respublikanın Ağdam, Göyçay və başqa rayonlarından olan bu 4000 nəfər – traktorçu, kombaynçı, mühəndis və başqa kənd təsərrüfatı mütəxəssisləri Orta Asiyanın bir sıra bölgələrinə göndərildi. Burada yerləşən azərbaycanlılardan yüzlərlə insan fədakar əməyinə görə fəxri fərman və medallarla təltif olundu.

Sovet Rusiyası Azərbaycan zəhmətkeşlərinin əməyindən təkcə kənd təsərrüfatının inkişafı sahəsində deyil, eyni zamanda məktəb, klub, uşaq bağçası, körpələr evi və yaşayış binalarının tikilməsində də geniş istifadə etmişdir. Belə ki, azərbaycanlılardan ibarət 3 sovxozda doqquz inşaat briqadası yaradılmışdı. Bu briqadaların köməyi ilə Qərbi Qazaxıstanın və Aktyubinskin sovxoz və kolxozlarında 11 məktəb, 28 yaşayış evi, 34 heyvandarlıq binası, 19 taxıl anbarı, 3 yataqxana, 3 MTS emalatxanası tikildi. Təkcə Sumqayıt şəhərinin nümayəndələri 3 məktəb, 2 yaşayış evi, 6 heyvandarlıq binası tikdilər («Молодёжь Азербайджана» qəzeti 19.1.1955) .

Yuxarıda qeyd olunan faktlar bu fikri söyləməyə əsas verir ki, sovet hakimiyyəti illərində Azərbaycan, belarus, qazax,

özbək, qırğız və s. kimi əsarətə alınmış xalqların əmək ehtiyatlarının, resurslarının tükəldilməsi hesabına "Böyük Vətənin" inkişafına nail olunmuşdur.

Azərbaycan KP MK-nın birinci katibi olmuş İ.D.Mustafayevin Orta Asiyadan və Qazaxıstandan Azərbaycana köçmək istəyən ahıskalılara dövlət yardımı ilə əlaqədar SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırdıqdan sonra köçürülmə prosesi başlamış oldu. Qeyd etmək lazımdır ki, bütün köçürülən ahıskalılar azərbaycanlı kimi qeydiyyata alınmış, bütün sənədlərdə milliyyəti azərbaycanlı kimi göstərilmişdir [106, 25].

Az. KP MK 4 iyul 1958-ci ildə SSRİ Nazirlər Sovetinin 1958-ci il 17 iyun tarixli 1903 saylı "Azərbaycan millətindən olan SSRİ vətəndaşlarının, Özbəkistan SSRİ-dən, Qırğızıstan SSR-dən, Qazaxıstan SSR-dən 1958-1960-cı illərdə Azərbaycan SSRİ-yə köçürülməsi haqqında" sərəncamının reallaşdırılması tədbirlərini müzakirə etmiş və qərar çıxarmışlar.

Repressiyalar vaxtı Qazaxıstan respublikasının Çimkənd vilayətinə sürgün olunmuş və burada məskunlaşmış azərbaycanlılar bəraət aldıqdan sonra vətənə dönməklə bağlı olan arzularını reallaşdırmaq istəyirlər. Bu məqsədlə soydaşlarımızın bir qrup nümayəndəsi 1959-cu ildə Az. KP MK-də olmuş və öz istəklərini bildirərək vətənə qayıtmaq üçün icazə almışlar. Razılıq aldıqdan sonra həmin ilin avqustunda öz hesablarına eşelonlarla Azərbaycana gəlmişdilər. Burada onların Qərb zonasında, Gəncə, Şəmkir, Tovuz, Qazax və Ağstafa bölgələrində yerləşdirilməsi məsləhət bilinmişdi [77, 4].

Bütün bu miqrasiyalar, yerdəyişmələr azərbaycanlıların Mərkəzi Asiya ölkələrində məskunlaşmasına və əksinə səbəb olmuşdur. Belə azərbaycanlıların bir hissəsinin övladları həmin ölkələrdə dünyaya göz açmışlar. Lakin öz milli mənsubiyyətlərini unutmamışlar.

Görkəmli alimlər Ə.G. Rüstəmov və Əkbər Ruhi (Əliyev) Aşqabadda dünyaya gəlmiş milliyyətcə azərbaycanlı olan elm xadimləri idilər. Əkbər Ruhi görkəmli şair, yazıçı və ədəbiyyatşünas idi. O, 20 ilə yaxın Türkmənistan Yazıçılar İttifaqının

məsul katibi olmaqla yanaşı Türkmənistan Dövlət Universitetində dil və ədəbiyyat fakültəsinin dekanı vəzifəsində də fəaliyyət göstərmişdir [30, 235-236].

Ə.G.Rüstəmov M.İ.Kalinin adına Türkmənistan Kənd Təsərrüfatı İnstitutunun rektoru (1960), Türkmənistan SSR EA müxbir üzvü (1969-cu il), SSR EA-nın akademiki, SSR Ali Sovetinin deputatı, Türkmənistan SSR Təbiəti Mühafizə Cəmiyyətinin sədri olmuşdur. Görkəmli alimin elmi tədqiqatı, əsasən səhra landşaftının qorunması və səmərəli istifadəsinə həsr edilmişdir. Səhra şəraitində müxtəlif heyvanlarda aşkar edilmiş eyni uyğunlaşmaların, əsasən "səhra yaşayış forması" olduğunu ilk dəfə Ə.G.Rüstəmov sübut etmişdir [41, 132-144].

Azərbaycan alimləri Türkmənistan iqtisadiyyatının inkişafı istiqamətində öz səylərini əsirgəmirdilər. 1960-cı illərdə elmi-texniki kömək göstərmək daha çox faydalı nəticələr verirdi. Türkmənistanın Xəzərsahili Çələkən rayonunda aşkar edilmiş yeni neft yataqlarının öyrənilməsi baxımından belə bir köməyə ciddi ehtiyac duyulduğunu xəbər verirdi. Həmin rayonda mədən yaratmaq üçün ərazinin hidrometeoroloji xüsusiyyətlərini öyrənmək lazım idi. Bu məqsədlə Türkmənistan XTŞ Azərbaycan Hidrometeorologiya xidmət İdarəsi ilə müqavilə bağlamışdı. Hidrometeoroloqlarımız Şərqi Xəzərdə, Çələkən rayonunda tədqiqatlarını 1965-ci ilə qədər davam etdirərək nəyinki Türkmənistanın eyni zamanda bütün Mərkəzi Asiya regionunun iqtisadi inkişafına böyük töhfə vermişlər [41, 140].

Azərbaycanın neftçi alimlərinin Qazaxıstan və Mərkəzi Asiyanın digər respublikalarının neftçiləri ilə birgə işgüzar əlaqələri elə səviyyəyə yüksəlmişdi ki, hətta elmi-tədqiqat işlərinin mövzuları müəyyən edilərkən onların sifarişləri birinci növbədə hesaba alınırdı. Belə ki, təkcə 1967-ci ildə Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutu tərəfindən ancaq Qazaxıstanın Manqışlaq yarımadasının neft yataqlarının öyrənilməsi məqsədi ilə 5 elmi tədqiqat mövzusu işlənib təhvil verilmişdir [48, 607-610].

Azərbaycan SSR EA Qubkin adına Geologiya İnstitutu

Türkmənistan üçün elmi kadrlar hazırlanmasında da öz köməyini əsirgəmirdi. Yüksək ixtisaslı neftçi alimlərə Türkmənistanın böyük ehtiyacı olduğu üçün bu instituta da tez-tez müraciət edirdilər. 1960-cı illərdə Azərbaycan neftçiləri və neftçi alimlərinin türkmən həmkarları ilə əməkdaşlığı nəticəsində "Qoturtəpə", "Qızılqum" və "Barsagəlməz" kimi zəngin yataqlarda neft hasilatını genişləndirmək mümkün olmuşdur.

Azərbaycan-Özbəkistan neftçilərinin əməkdaşlığı da öz səmərəli nəticələrini göstərməkdə idi. 1960-cı illərdə Azərbaycan-özbək alimlərinin iş birliyinin nəticəsi olaraq Özbəkistanda 5 neft-qaz yatağı və 17 perspektivli sahə aşkar edilmişdir [50, 387].

Görkəmli azərbaycanlı alim Aydın Əhmədov 1973-1093-cü illərdə müqavilə əsasında Özbəkistan Respublikasında Geofizika İşləri Birliyində elmi texniki rəhbər vəzifəsində çalışmışdır. Seysmotoqrafiya metodunun yaradıcılarından biri olan Aydın Əhmədovun şərəfinə bir neçə seysmik struktura onun doğulduğu Şəki şəhərinin adı verilmişdir [42, 113-118].

Mərkəzi Asiya respublikalarından biri olan Tacikistan respublikası ilə də ölkəmiz arasında münasibətlərin normal inkişafı nəticəsində həmvətənlərimizin miqrasiya etdiyi ölkələr içərisində onun da özünəməxsus yeri var. Həmvətənlərimizin bu ölkəyə miqrasiyası demək olar ki, heç vaxt kütləvi şəkil almayıb. Bu ölkə ilə dostluq əlaqələrimizin tarixi qədim olsa da həmvətənlərimizin Tacikistana, taciklərin isə vətənimizə azsaylı miqrasiyaları əsasən 1960-cı illərdən sonra elmi əlaqələr, elmi mübadilə fonunda baş vermişdir. 1964-1965-ci illərdə Azərbaycanın neftçi alimlərinin bilavasitə köməyi və texniki yardımı sayəsində Tacikistanın "Qaraqum" sahəsində 3-5 min metr dərinliyində kəşfiyyat quyuları qazılmışdır. "Sulutau", "Xocaqaznan", "Qızıltunşuk", "Qaraqum" və s. mədənlərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində Bakı neftçilərinin köməyi xüsusilə qeyd olunmalıdır [47, 114-122].

Yuxarıda qeyd olunduğu kimi 1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində həmvətənlərimizin Mərkəzi Asiyaya olan

miqrasiyasının əsas səbəbi işsizlik və iqtisadi problemlərlə bağlı idi. Belə ki, SSRİ-nin süqutu və yeni müstəqillik qazanmış ölkəmizin iqtisadiyyatının bazar iqtisadiyyatına uyğunlaşdırılması üçün "keçid dövrü" başlamışdır. Bu zaman ölkəmizdə olan köhnə iş yerlərinin bir çoxunun bağlanması, yenilərinin isə hələ açılmaması nəticəsində ölkəmizdə işsizlik problemi kəskin səviyyəyə qalxmışdır. İş tapmaq üçün dünyanın müxtəlif yerlərinə müxtəlif sayda köç etmiş həmvətənlərimizin bir hissəsi də Mərkəzi Asiyada məskunlaşmışlar.

1980-ci illərin məlumatlarına əsasən Qırğızıstanda 17 min azərbaycanlı var idi. Onlardan 12 mini Çuy vadisinin müxtəlif yerlərində, 5 mini isə Frunze, Prejevalsk, Tokmak, Kant və Qara Balta şəhərlərində yaşayırdılar [70, 41]. Bu azərbaycanlılar 1930-cu illərdə Qazaxıstana, oradan da Qırğızıstana sürgün olunmuş insanların nəsilləridir. Yuxarıda qeyd etdiyimiz kimi, həmvətənlərimizin bir hissəsi çətin şəraitə dözə bilməyib həlak oldu, bir hissəsi II dünya müharibəsinin cəbhələrində həlak oldu, yerli əhalinin köməyi və dəstəyi sayəsində sağ qalan digər bir hissəsi isə (1953-cü ildə Stalin repressiyalarına məruz qalanların bəraət qazanmasından sonra) təhsil alaraq və övladlarını təhsilli böyüdərək 1980-ci illərdə Qırğızıstan Respublikasında istər hakimiyyətdə, istərsə də cəmiyyət arasında çox hörmətli, önəmli mövqeyə sahib oldular. Bunlardan İqtisad elmləri namizədi, Qırğızıstanın ən uğurlu iş adamlarından biri hesab olunan, "Lina" şirkətinin direktoru Qiyas İsmayıl oğlu Xəlilovu, Qırğızıstanın Əməkdar hüquqşünası və hal hazırda Azərbaycanın Qırğızıstanda fəaliyyət göstərən diaspor təşkilatının rəhbəri Əzizağa Əliyevi, Qırğızıstanın fəxri inşaatçısı, Böyük Vətən müharibəsinin veteranı Ə.Həsənovu, Qırğızıstanın Aqrar Universitetinin professoru Arif Paşa oğlu Qəmərlini, Qırğızıstan Rus-Slavyan Universitetinin tibbi mərkəzinin rəhbəri Zakir Paşa oğlu Qəmərlini və onlarca başqalarını misal göstərmək olar [129, 19].

Beləliklə, tarixi faktlar sübut edir ki, müxtəlif dövrlərdə azərbaycanlılar dövrün ictimai-siyasi hadisələri ilə bağlı bu və

ya başqa səbəblərdən vətənlərindən kənarda yaşamaq məcburiyyətində qalmışlar. Bu gün həmin həmvətənlərimiz Azərbaycan diasporunun aparıcı qüvvələrinə çevriliblər. Müasir dövrdə diaspor amilinin beynəlxalq aləmdə xalq diplomatiyasının subyekti statusu qazanmasını nəzərə alsaq bu həmvətənlərimizin xalqımız, dövlətçiliyimiz üçün nə dərəcədə qiymətli olduğu aydın olar.

Respublikalar üzrə "Bazar günü" məktəbləri və onların fəaliyyət göstərdiyi illər üzrə sayı



Mərkəzi Asiya respublikaları ilə Azərbaycan Respublikasının əlaqələri



## Mərkəzi Asiya respublikalarında Azərbaycan diaspor təşkilatları və onların yaranma ili



# II FƏSİL. MƏRKƏZİ ASİYA RESPUBLİKALARINDA AZƏRBAYCAN DİASPORUNUN FƏALİYYƏTİ

## 2.1. Dünya azərbaycanlılarının qurultaylarının, türk dövlətlərinin diaspor təşkilatlarının toplantılarının, forumlarının Azərbaycan diasporunun fəaliyyətinə təsiri

Müasir dünyanın obyektiv reallığı olan qloballaşma prosesi cəmiyyətin bütün sahələrinə sirayət etmişdir. Qloballaşma dünyanın və insanların universallaşması, həyat tərzi və davranışların vahid standartlarının yaranması, istehsal, istehlak və ticarətin unifikasiyasıdır. Bu proses dünya ölkələrini vahid və universal dəyərlər, texnologiya, nəqliyyat-kommunikasiya mexanizmləri, ticarət və maliyyə sistemləri ilə vahid mexanizmə çevirməyə hesablanıb. Bütün tarixi proseslər kimi qloballaşmanın da mənfi və müsbət təzahürləri var. Bu prosesin mənfi cəhətlərindən biri məhz ayrı-ayrı xalqlara məxsus olan milli mənəvi dəyərlərin, adət-ənənələrin qaynayıb qarışması, bir çox hallarda iqtisadi cəhətdən zəif olan xalqların mənəvi dəyərlərinin güclü dövlətlərin mənəvi dəyərləri tərəfindən "zəbt olunması"dır. Bu gün cəmiyyətdə haqlı olaraq belə bir fikir formalaşıb ki, qloballaşmadan ən çox ziyan çəkən milli mədəniyyət və digər milli dəyərlərdir.

Dünyada qloballaşmanın yayıldığı zamanda bu prosesə öz milli-mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası da məhz bu qlobal çağırışlara cavab verir. Başqa sözlə desək, azərbaycançılıq Azərbaycanın dünya birliyinə inteqrasiyasının ideya əsasını təşkil edir. Biz bu ideya ilə özümüzü dünyaya tanıdır, onu mütərəqqi dünya dəyərlərini (tolerantlıq, etnik müxtəliflik) özündə birləşdirən ideologiya kimi təbliğ edirik. Avropa ilə Asiyanın qovşağında

yerləşən Azərbaycan üçün bu ideologiya mədəniyyətlərarası dialoqa mühüm bir körpüdür. Azərbaycançılıq termini ictimai elmlər dövriyyəsində nisbətən yeni yaranan anlayışdır. Bununla belə, son illər alim və tədqiqatçılar, ictimai xadim və yazarlar tərəfindən bu mövzuda bir sıra dəyərli məqalələr, monoqrafiya və dərsliklər yazılmış, azərbaycançılığın əsasları, mahiyyəti və konseptual tərəfləri şərh edilmişdir. Akademik Ramiz Mehdiyev qeyd edir ki, azərbaycançılıq "ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının həyata keçirilməsi kimi, 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmişdir" [96, 15].

Buradan belə nəticəyə gəlmək olar ki, azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, demokratik inkişafı təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanıb. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.

Çoxmillətli Azərbaycan Respublikasını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan parlamentindəki çıxışında demişdir: "Azərbaycan ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bunu əməli surətdə həyata keçirə bilsək, Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik" [20].

Lakin azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya davakar millətçiliyi inkar etməklə bərabər, Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir.

Azərbaycançılıq coğrafi anlayış deyil, o daha çox siyasi anlayışdır. Azərbaycançılıq ideologiyası Azərbaycan cəmiyyətində milli birliyi və ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini izah, təsdiq və inkişaf etdirmək məqsədini daşıyır.

Beləliklə, azərbaycançılıq milli-mənəvi varlığının ilkin əlamətlərini, xalqın kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır.

Tarixdən məlumdur ki, mütərəqqi ideyalar olmadan insanları konkret məqsədlər ətrafında səfərbər etmək, birləşdirmək mümkün deyildir. Azərbaycan polietnik dövlət kimi ərazisində yaşayan bütün xalqların vətənidir. Bu mənada, ölkədə reallaşdırılmasına səy göstərilən hər hansı ideya təkcə milliyyətcə azərbaycanlıların deyil, bütün etnosların maraqlarını özündə tam ehtiva edir. Yəni, dövlətin irəli sürdüyü hər hansı ideya və fikir etnik mənsubiyyətindən, dinindən asılı olmayaraq, ölkənin bütün əhalisinin maraqlarını önə çəkir. Dünyəvi və demokratik dövlət modelini qəbul etməsinə baxmayaraq, respublikamızda insanların dini inancları, habelə vicdan azadlığı yüksək səviyyədə təmin olunur. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir həmvətənimizin bu torpaq üçün sahiblik və məsuliyyət hissi yaşaması milli həmrəyliyin bariz təzahürüdür. Azərbaycançılıq ideologiyası bu gün, ilk növbədə, etnik-dini tolerantlığın və milli həmrəyliyin başlıca təminatçısı kimi çıxış edir. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi

regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Türk dövlət başçıları səviyyəsində siyasi-diplomatik münasibətlərin formalaşması, şübhəsiz ki, öz növbəsində ölkələr arasında mədəni, iqtisadi, siyasi əlaqələrin intensivləşməsinə, o cümlədən diasporların təşkilatlanması prosesinə böyük təkan vermişdir.

1992-ci ildə Türkiyənin baş naziri Süleyman Dəmirəl 1992-ci ilin may ayında Azərbaycan və Orta Asiya respublikalarına səfəri zamanı həmin ölkələrin rəhbərlərinin iştirakı ilə zirvə toplantısı keçirmək təşəbbüsünü irəli sürmüşdü.

Uzun müddət Sovet İttifaqının tərkibində olan türk respublikaları ilə Türkiyə arasında “dəmir pərdə” yaradıldığından yenicə formalaşmaqda olan əlaqələri intensivləşdirmək heç də asan deyildi. Bu ölkələrin siyasi rəhbərlərinin birgə zirvə toplantısını keçirmək MDB-nin təşkilatlanma mərhələsinə təsadüf etdiyindən Rusiya tərəfindən xüsusi qısqanclıqla qarşılanırdı. Cənubi Qafqaza nisbətən Mərkəzi Asiyada Rusiyanın təsir dairəsinin daha güclü olması bu ölkələrin Türk birliyinə inteqrasiyasını ləngidirdi. Lakin bütün çətinliklərə baxmayaraq Türkdilli dövlət başçılarının qətiyyəti sayəsində bu Zirvə görüşləri tarixi reallığa çevrildi. Heydər Əliyev Türkiyə ilə qardaşlıq bağlarını möhkəmlətməklə bərabər, Mərkəzi Asiyadakı türk respublikaları ilə sıx əməkdaşlığı da daima prioritet saymışdır. Çünki Azərbaycan bu coğrafiyadakı strateji yerinə, güclü iqtisadi və infrastruktur imkanlarına görə Türkiyə və Mərkəzi Asiyanın türk ölkələri arasında əvəzolunmaz körpüdür. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə bu körpünün real tərəfdaşlıq müstəvisi kimi təşəkkül tapmasında mühüm rol oynamışdır. O, türkdilli ölkələrin dövlət başçılarının 1994-2001-ci illərdə keçirilmiş 6 sammitinin hamısında (18-19 oktyabr 1994-cü il – İstanbul, 28 avqust 1995-ci il – Bişkek, 21 oktyabr 1996-cı il – Daşkənd, 9-10 iyun 1998-ci il – Astana, 8 aprel 2000-ci il – Bakı, 26-27 aprel 2001-ci il – İstanbul) iştirak etmişdir və bu əməkdaşlıq formatında Azərbaycanın fəal,

təşəbbüskar mövqeyi hər zaman öndə olmuşdur [57, 81].

Zirvə görüşlərinin konkret tarixi əhəmiyyətə malik olan günlərə təsadüf etməsi – Türkiyə dövlətinin yaradılmasının 69-cu ildönümü, “Manas” dastanının 1000 illiyi, Əmir Teymurun 660 illiyi, Qazaxıstanın yeni paytaxtı Astana şəhərinin təqdimat mərasimi ümumtürk dəyərlərinin təbliğinə mühüm töhfə idi.

Azərbaycan Respublikasının əsas prioritetlərindən biri milli dəyərlərimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməkdir. Bu inteqrasiyada Azərbaycanın öz yerini tapması, eyni zamanda milli identifikasiyasını qoruyub saxlaması müstəsna əhəmiyyət kəsb edir ki, onu da azərbaycançılıq ideologiyası təmin edir. Bu ideologiya ilk dəfə Dünya Azərbaycanlılarının I Qurultayında elan edilmişdir. Əslində bu qurultayların təşkil olunmasında əsas məqsəd azərbaycançılıq ideologiyası ətrafında dünyanın bütün ölkələrində (o cümlədən Mərkəzi Asiya respublikalarında) yaşayan azərbaycanlıları birləşdirməkdən, səfərbər etməkdən ibarətdir.

2001-ci ilin noyabr ayının 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsi Azərbaycan diaspor tarixində ən önəmli hadisələrdən birinə çevrildi. “Bu gün keçirilən qurultay xaricdə yaşayan soydaşlarımızın daha da həmrəy olması, təşkilatlanması üçün yeni bir mərhələnin başlanğıcıdır” – deyə onun əhəmiyyətini xüsusi vurğulayan Ümummilli lider Heydər Əliyev öz nitqində dünya azərbaycanlıları ilə əlaqələri təmin edən dövlət qurumunun yaradılmasına ehtiyac duyulduğunu da bildirmişdir: “Mən qurultayın sonunda belə nəticəyə gəldim ki, həqiqətən Azərbaycanda diaspor ilə iş üçün xüsusi bir dövlət orqanı yaradılmalıdır. Güman edirəm ki, biz bu günlərdə belə bir orqanı yaradacağıq, əlaqələr daha da genişlənəcək, inkişaf edəcək, irəliyə doğru gedəcəkdir” [58, 45]. Qurultayda milli birliyimiz, həmrəyliyimiz, xaricdə yaşayan həmvətənlərimizin diaspor şəklində formalaşması, təşkilatlanması üçün strateji proqram müəyyən edildi. Dünya Azərbaycanlılarının I Qurultayının mühüm nəticələrindən biri də Dünya Azərbaycanlılarının Əlaqələndirmə

Şurasının yaradılması olmuşdur. Bu istiqamətdə aparılan işlərin məntiqi davamı olaraq ölkə Prezidentinin 2002-ci il 5 iyun tarixli 730 saylı Fərmanına uyğun olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (2008-ci ilin noyabr ayından etibarən Diasporla İş üzrə Dövlət Komitəsi) yaradıldı. Komitə müxtəlif ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilə mütəmadi görüşlər keçirir, forumlar təşkil edir, diaspor nümayəndələri ilə söhbətlər aparır və onları müstəqil dövlətimizin maraqlarının qorunması naminə səfərbər olmağa dəvət edir.

Dünya Azərbaycanlılarının I Qurultayı qeyd etdiyimiz bu nəticələrin əldə olunmasına səbəb oldusa, 2006-cı ilin 8 fevral tarixində Prezident İlham Əliyevin fərmanı ilə həmin ilin mart ayının 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi işlərin daha da geniş müstəviyə çıxarılmasına şərait yaratdı. Dünya Azərbaycanlılarının II Qurultayı ilk növbədə yeni dövr üçün qarşıda duran əsas vəzifələri müəyyənləşdirdi. Çünki I qurultaydan keçən dövr ərzində diaspor quruculuğu sahəsində bir çox işlər görülüb, irəliyə doğru mühüm addımlar atılmışdır. Dünya Azərbaycanlılarının II Qurultayı tarixi məzmununa və ictimai əhəmiyyətinə görə ilk qurultaydan bir çox cəhətləri ilə seçilirdi. İlk qurultaydan keçən dövr ərzində xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan icmaları arasında əlaqələrin yaradılması, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporun rolunun artırılması, soydaşlarımızın təşkilatlanması prosesinin təkmilləşdirilməsi, gənclərin diaspor quruculuğu işinə cəlb olunması, milli-mənəvi dəyərlərimizin qorunması, həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi sahəsində bir sıra uğurlar qazanılmışdır. Qurultayda Mərkəzi Asiya respublikaları də daxil olmaqla 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdir. Bu nümayəndələr və qonaqlar yaşadıqları ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatının müxtəlif sahələrində fəal iştirak edən, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə

daim dəstək verən tanınmış alimlər və ziyalılar, iş adamları, müxtəlif ölkələrin parlament üzvləri, siyasi və ictimai xadimlər idilər [40, 56].

Qurultay 109 nəfərdən ibarət Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının və 23 nəfərdən ibarət İdarə Heyətinin yeni tərkibini təsdiqləmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının sədri seçilmişdir [20, 317].

Burada həmçinin bir sıra mühüm tarixi sənədlər "Dünya azərbaycanlılarının Qətnaməsi", "Dünya azərbaycanlılarının II qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti", "Dünya azərbaycanlılarının II qurultayı nümayəndələrinin dünya azərbaycanlılarına müraciəti", "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə dövlət və hökumət başçılarına müraciəti", "BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatına (YUNESKO) müraciəti", "Azərbaycan və türk diaspor təşkilatlarına müraciəti" qəbul olunmuşdur [20, 316].

Qurultayda xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və diaspor quruculuğu siyasətinin yeni mərhələsinin başlıca istiqamətlərini və bu mərhələdə qarşıda duran vəzifələri müəyyənləşdirmişdir. Çıxış edən natiqlərin nitqlərindəki tövsiyə və tapşırıqlar Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etməklə yanaşı, dünya azərbaycanlılarının birliyinin konseptual əsaslarının milli dövlətçilik ideologiyası müstəvisində formalaşmasının tarixi-siyasi əhəmiyyətini daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır. Bu mötəbər tədbir dünyanın bir çox ölkələrində olduğu kimi Mərkəzi Asiya respublikalarında da fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının işinə böyük töhfə verdi.

2006-cı il martın 31-də Almatı şəhərində Qazaxıstan Xalqlar Assambleyasının binasında "Turan" Konqresinin təşkilatçılığı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı mərasim keçirilmişdir. Bu böyük faciəni lazımı səviyyədə Qaza-

xıstan ictimaiyyətinin və orada fəaliyyət göstərən digər dövlətlərin nümayəndələrinin diqqətinə çatdırmaq istiqamətində səylərini davam etdirən Azərbaycan diaspor təşkilatı olan "Xəzər" Mədəniyyət Mərkəzi də öz növbəsində Astana şəhərində 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı geniş tərkibli tədbir keçirmişdir [78]. Belə silsilə tədbirlərdən biri də Qazaxıstanın Aktau şəhərində "Dostluq" Azərbaycan Milli-Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunmuşdur.

Azərbaycanın Özbəkistandakı səfirliyi və Daşkənddə Azərbaycan diasporunun birgə təşkilatçılığı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar mərasim keçirilmişdir. Mərasimin sonunda təbliğatı genişləndirmək məqsədi ilə iştirakçılara azərbaycanlıların soyqırımı, erməni terrorizminə dair materiallar toplusu paylanmışdır. Bu məlumatlar Özbəkistanın kütləvi informasiya vasitələrinə və bu ölkədə akkreditə olunmuş diplomatik korpuslara, beynəlxalq təşkilatların yerli nümayəndəliklərinə də göndərilmişdir [103].

Digər Mərkəzi Asiya respublikaları olan Tacikistan və Qırğızıstan respublikalarında mövcud olan Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində də canlanma baş verdi. Dünya Azərbaycanlılarının II Qurultayında qonaq qismində iştirak etmiş Qırğızıstanın dövlət katibi Dastan Sarıqulov qurultayda çıxışı zamanı qeyd etmişdir: "Qırğız torpağının nümayəndələrinin də iştirak etdiyi bu tədbir, heç şübhəsiz, Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaqdır. ... Türk dünyasının qızıl körpüsü olan ulu Azərbaycan eli daha da çiçəklənsin və inkişaf etsin" [40, 62].

Dastan Sarıqulov Azərbaycanla Qırğızıstanın bütün sahələrdə əməkdaşlığının genişləndirilməsinə ehtiyac duyulduğunu diqqətə çatdırmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Qırğızıstanın dövlət katibi Dastan Sarıqulovu qəbul etmişdir. Görüş zamanı Azərbaycan-Qırğızıstan respublikalarının ikitərəfli münasibətlərinin müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilmişdir. Bütün bu görüşlərin uğurlu nəticələri Qırğızıstanda mövcud olan

Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə də öz müsbət təsirini göstərmişdir.

Dünya Azərbaycanlılarının II qurultayından sonra başlanan yeni mərhələdə artıq təşkilatlanmış diaspor qurumlarının mövcud olduqları Mərkəzi Asiya ölkələrində daha yüksək mövqe tutmaları üçün xüsusi layihələr hazırlanmış və həyata keçirilmişdir. Onlardan biri də diaspor təşkilatlarımızın güclü olduğu ölkələrdə ictimai-siyasi xadimləri, dövlət adamlarını, müxtəlif rəhbər vəzifə tutan şəxsləri diasporumuzun vasitəsilə Bakıya dəvət edərək, Azərbaycan diasporu ilə onların əlaqələrini möhkəmləndirməkdir ki, gələcəkdə diaspor təşkilatlarımız həmin dövlətlərdə, şəhərlərdə olan insanların gücündən istifadə edə bilsinlər, öz mövqelərini daha da gücləndirsinlər və Azərbaycanın haqq səsini daha da yüksəklərə çatdırsınlar.

2007-ci il Bakıda Azərbaycan və Türk diaspor rəhbərlərinin I Forumu keçirilməsi ideyası, ilk növbədə, Azərbaycan Respublikasının türk xalqları arasında birliyin möhkəmləndirilməsinə verdiyi xüsusi önəmin göstəricisidir. Ölkəmiz həmişə Türk Dünyası Birliyinin möhkəmlənməsinə dəstək verir, türkdilli xalqlar arasında əməkdaşlığın inkişafı üçün çox mühüm addımlar atır.

2007-ci ilin noyabr ayında Bakıda Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı keçirilmişdir. Qurultayda Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev, Qırğızıstanın təhsil və elm naziri Kanıbek Osmonaliyev, Qazaxıstan mədəniyyət və informasiya nazirinin müavini Askar Buribayev də çıxış edərək Qurultayın əhəmiyyəti və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparmışlar.

II Dünya müharibəsindən sonra Qırğızıstan azərbaycanlıları elm və təhsil almaq üçün ölkənin ali məktəblərinə daxil olmağa başladılar. Bunun sayəsində Qırğızıstanda Azərbaycan diasporunun ziyalı təbəqəsi yarandı. Müxtəlif sahələr üzrə təhsil alan soydaşlarımızın bir çoxu öz sahələri üzrə peşəkar mütəxəssis kimi tanınırdılar. Beləliklə, onlar tədricən Qırğızıstanın

ictimai-mədəni həyatında rolu artmağa başlamışdır. Bişkek başda olmaqla, digər şəhərlərə köçməyə başlayan soydaşlarımız öz milli adət-ənənələrini qoruyub saxlamaqla yerli cəmiyyətə sürətlə inteqrasiya olunaraq burada özlərinə layiqli mövqe tutmuşlar.

Qırğızıstan parlamentinin spikeri Axmatbek Keldibekov qurultaydakı çıxışında bildirirdi: "Bizim xalqlarımız böyük türk dünyasına mənsubdurlar və coğrafi baxımdan bir-birimizdən uzaq olmağımıza baxmayaraq, münasibətlərimizin tarixi zəngindir. Hələ 1924-cü ildə qırğız xalqının görkəmli oğulları K.Tınıstanov, İ.Arabayev, O.Bolobalayev və başqalarının daxil olduğu nümayəndə heyəti Şərqin türkdilli xalqlarının birinci qurultayında iştirak etmişdir. Sonrakı illərdə Azərbaycanın görkəmli oğul və qızları – Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Rəşid Behbudov, Sara Qədimova, Polad Bülbüloğlu dəfələrlə bizim ölkəmizdə olmuşlar. II Dünya müharibəsi illərində xeyli sayda azərbaycanlı Qırğızıstana köçürülmüşdür. Qırğızlar çətin vəziyyətə salınmış bu insanlara kömək etmək üçün axırıncı bir tikə çörəyini, paltarını, evlərini onlarla bölüşürdülər. İlk zamanlar ağır iş şəraiti və soyuq iqlimə dözməyən yüzlərlə soydaşımız vəfat edirdi. Qırğız xalqı onlara bu çətin vəziyyətdən çıxmaq üçün əllərindən gələni etmişlər. Bəlkə də yerli əhalinin bu fədakar köməyi olmasaydı köçürülən bütün azərbaycanlılar məhv olardı... İndi 20 mindən çox azərbaycanlı Qırğızıstan Respublikasının tamhüquqlu vətəndaşı olaraq öz fədakar əməkləri ilə ölkənin inkişafına töhfə verirlər" [39, 67].

2011-ci ilə qədər dünyada 416 Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərirdi ki, onlardan 102-si Dünya Azərbaycanlılarının II qurultayından sonra yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında" 2011-ci il 21 yanvar tarixli Sərəncamına uyğun olaraq, 2011-ci il iyul ayında Bakı şəhərində Dünya Azərbaycanlılarının III qurultayı keçirilmişdir [39, 69].

Qurultayda Mərkəzi Asiya respublikaları da daxil olmaqla

dünyanın 42 ölkəsindən 579 nümayəndə və 211 qonaq iştirak etmişdir [39, 67]. Onu da qeyd etmək lazımdır ki, Mərkəzi Asiya respublikaları olan Özbəkistan, Qazaxıstan və Qırğızıstan ən çox nümayəndə və qonaqla təmsil olunan ölkələr sırasında idilər. Dünya azərbaycanlılarının həmrəyliyinin güclənməsi, xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə bir sıra fəal diaspor nümayəndələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şöhrət" və "Tərəqqi" medalı ilə təltif edilmişdir. Belə həmvətənlərimizdən biri də Qazaxıstan Respublikasında fəaliyyət göstərən Azərbaycan diasporunun rəhbəri Vidadi Koroğlu oğlu Salahovdur [78].

Dünya azərbaycanlılarının III qurultayında Qırğızıstan Respublikası Parlamentinin sədri Axmatbek Keldibekov öz çıxışında xalqımızın Ümummilli lideri Heydər Əliyevlə bağlı maraqlı xatirələrini belə ifadə etdi: "1995-ci ildə qırğız xalqının Manas eposunun min illiyi bayram edilərkən görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev başda olmaqla böyük nümayəndə heyəti bizə gəlmişdi. Heydər Əliyev çox məşğul olmasına baxmayaraq qırğız xalqına hörmət əlaməti kimi və iki türkdilli xalq arasında qardaşcasına dostluğun möhkəmlənməsi məqsədilə üç gün bizim dağlıq diyarda oldu, əfsanəvi "Manas"ın adı ilə bağlı bütün tarixi yerləri gəzdi. Qırğız xalqı bunu xatırlayır və Azərbaycan xalqının bu görkəmli oğlunu hörmətlə yad edir" [39].

Hələ ötən əsrin 90-cı illərindən başlayaraq türkdilli xalqların birliyinə xidmət edən müxtəlif tədbirlər həyata keçirilmişdir. Türkdilli ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantılarının təşkili ənənəsinin əsası qoyulmuş, Türkdilli Ölkələrin Parlament Assambleyası yaradılmış, kütləvi informasiya vasitələri, elmi müəssisələr, ictimai qurumlar arasında sıx əməkdaşlıq əlaqələri qurulmuşdur. Türkdilli xalqların qarşılaşdığı problemlərin həlli, bu xalqların məruz qaldığı haqsızlıqlar barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ortaq mənafelərdən doğan ümumi məqsəd kimi qəbul olunmağa

başlanmışdır. Türkdilli xalqların diasporları arasında əməkdaşlığın inkişaf etdirilməsi də məhz bu məqsədə xidmət edir.

Türkdilli xalqların vahid ideologiya ətrafında birləşməsi istiqamətində atılan ən uğurlu addımlardan biri 2013-cü ilin 21 iyun tarixində Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunun keçirilməsi olmuşdur. Forumda "Türkdilli ölkələrin diaspor təşkilatlarının Birgə Fəaliyyət Strategiyası" hazırlanmışdır. Bu strategiya mövcud vəziyyətdə qarşıda duran vəzifələri müəyyənləşdirərək onların həlli yolunu göstərir.

Forumun sonunda imzalanmış Bakı bəyannaməsinin bir neçə bəndini xüsusi olaraq qeyd etmək məqsədəuyğun olardı:

- Türkdilli ölkələrin iştirakı ilə həyata keçirilən transmilli layihələrin iqtisadi və siyasi əhəmiyyətinin təbliğində türkdilli diaspor təşkilatlarının fəal iştirakına nail olunması;

- Türkdilli xalqların əleyhinə aparılan anti-təbliğat kompaniyalarının qarşısının alınması, həmçinin İslam dini və onun təbliğ etdiyi mənəvi dəyərlər haqqında son zamanlar dünya ictimaiyyətində yayılmış yanlış təsəvvürlərin aradan qaldırılması məqsədi ilə birgə tədbirlərin keçirilməsi;

- Türkdilli xalqların üzləşdiyi problemlər barədə dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində birgə fəaliyyət göstərilməsi; internet məkanında, virtual şəbəkələrdə bu istiqamətdə təbliğatın aparılması;

- Türkdilli xalqların güclü lobbisinin yaradılması məqsədilə nüfuzlu beynəlxalq ictimai təşkilatlar və beynəlxalq qeyri-hökumət təşkilatları, həmçinin kütləvi informasiya vasitələri ilə Türkdilli icmaların qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi [122, 7].

Forumda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı türk xalqlarının ortaq əlifbasının və dilinin qəbul olunmasını, ortaq tarix və ədəbiyyat dərsliklərinin hazırlanmasını, universitetlərarası əlaqələrin inkişaf etdirilməsini, diplomların qarşılıqlı tanınması və ortaq təhsil telekanalının

yaradılmasını zəruri hesab etməklə bağlı maraqlı fikirlər səsləndirmişdir: “Bu günə qədər geniş mənada dünya ictimaiyyətində haqqımızda tam həqiqəti əks etdirən rəy yoxdur. Bunun da səbəbləri var. Əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. O, bütün türk dünyasına qarşı düşmənçilik mövqeyindədir və bizi ləkələmək, ölkəmizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyasını aparmaq onların əsas peşəsidir. Biz bunun qarşısında öz səylərimizi, təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq. Ona görə xaricdə yaşayan soydaşlarımız daha da güclənməlidir, təşkilatlanma prosesi daha da sürətlə aparılmalıdır. Onlar yaşadıqları ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha da fəal inteqrasiya etməlidirlər [22, 49].

Bir sıra uğurlarına baxmayaraq onu da qeyd etmək lazımdır ki, Mərkəzi Asiya respublikalarının heç birində Azərbaycan diasporunun inkişafı özünün lobbi səviyyəsinə gəlib çatmamışdır. Lobbizm hər hansı bu və ya digər aktiv qrupun maraqlarının nəzərə alınması məqsədilə hökumət qurumlarına birbaşa, yaxud dolayı yolla təsiretmə fəaliyyəti kimi xarakterizə olunur. Lakin lobbizm fəaliyyətinə bu cür yanaşma ümumi xarakter daşıyır və bir sıra dəqiqləşdirmələr aparmaq zərurəti yaranır.

Birincisi, qurum dedikdə konkret olaraq vəzifəli şəxslər nəzərdə tutulur ki, hansısa qərarın qəbul olunması və ya olunmaması onlardan asılı olur. Bu, bir, yaxud bir neçə adam ola bilər. Məsələn, deputatlar qrupu, hökumət üzvü, yaxud administrasiyanın yüksək vəzifəli nümayəndəsi.

İkincisi, lobbiləşdirilmiş qərar həm müsbət, həm də mənfi xarakter daşıya bilər. Məsələn, ABŞ-dakı erməni lobbisi vaxtilə Konqres tərəfindən məlum 907-ci düzəlişin qəbul olunmasına nail olmuşdur. Yəni lobbizm eyni dərəcədə həm müsbət, həm də mənfi istiqamətə yönəldilə bilər.

Üçüncüsü, lobbiləşmə vəzifəli şəxslərin yalnız maddi stimullaşdırma prinsiplərinə əsaslanmasa da, bu metod lobbizmdə ən geniş yayılmış və təsirli amil hesab olunur. Primitiv mahiyyətli və qanunla təhdid olunan rüşvətvermə əvəzinə,

hazırda başqa metodlardan istifadə olunur; seçki fondlarına birdəfəlik, yaxud mütəmadi yardım göstərilməsi, pulsuz xarici səfərlərin təşkil olunması, sərfəli mühazirə turları, vəzifəli şəxslərin qohumlarının, köməkçilərinin, bəzən də ki, hökumət qurumundakı yerlərini itirdikdə özlərinin də "yağlı yerlərlə" təmin olunması.

Dördüncüsü, lobbizmi dövlət strukturları üzərində mafioz, klan, yaxud mason nəzarəti ilə qarışdırmaq düzgün olmazdı. Ona görə ki, dediklərimiz gizli və qanunazidd mahiyyət daşıdıqları üçün lobbizmdən tamamilə fərqlənir. Bütövlükdə isə lobbizm məqsədə çatmaq üçün təbii forma hesab olunur. O, istər hərəkət formasında (müxtəlif ictimai birliklər, məsələn: qadın, ekoloji, etnomədəni, sahibkarlar birliyi, müxtəlif komitələr və s.), istərsə də, peşəkar fəaliyyətdə təzahür edir. Hər hansı bir ölkədə lobbizmin inkişafı və yayılması həmin ölkənin siyasi və iqtisadi inkişaf səviyyəsi, həmçinin həmin ölkədə formalaşmış siyasi və dövlət ənənələri ilə müəyyən olunur. Ancaq şübhə yoxdur ki, cəmiyyətin yüksək inkişaf səviyyəsi lobbizmin peşəkar formada daha da mədəni səviyyədə fəaliyyətini şərtləndirir. Məsələn, təkcə Vaşinqtonda bir neçə min lobbi təşkilatları və kontorları qeydə alınmışdır. Bu, müşavir və məsləhətçi kimi ən yaxşı vəkillərin, iqtisadçıların, istefada olan hərbiçilərin, siyasətçilərin və dövlət nümayəndələrinin də məşğul olduğu yüksəkmaaşlı fəaliyyət formasıdır. Müasir peşəkar lobbi təşkilatları lazımı qərarları qəbul etdirmək üçün siyasətçilərin, vəzifəli şəxslərin ənənəvi stimullaşdırma metodu ilə yanaşı, mətbuat və televiziyada lazımı kompaniyaların təşkil olunması, fraksiyalararası mübarizə mexanizminin işə salınması, seçicilərdən məktub və teleqram axınını təşkil etmək kimi təsirli imkanlara malikdir. Birləşmiş Ştatlarda isə bu termin 1829-cu ildən geniş vüsət aldı. İlk zamanlar ABŞ – da müxtəlif maraqların "müdafiəçisi" olan maliyyə və siyasət kluarlarında siyasi mənada işlədilməyə başlanan lobbi termini konqresin dəhlizində pulla səs almağı bildirirdi. ABŞ-da Lobbiçiliyin gündəmə gəlməsi Birləşmiş Ştatların 18-ci Prezidenti Uliss

Qrantın dövrünə təsadüf edir. Ölkə Prezidenti Qrant işdən sonra iqamətgahı ilə üz-üzə yerləşən qəlyanaltıya düşərək onun vestibülündə dincəlməklə qeyri-rəsmi görüşlər keçirirdi. Bunu bilən ictimaiyyətin nümayəndələri onun yanına gələrək öz problemlərindən, çətinliklərindən danışaraq prezidentdən kömək umurdular. Bu işdən xaric qeyri-rəsmi görüşlər siyasi xadimlər arasında əlaqə xarakteri olmaqla yanaşı siyasət tarixində mürəkkəb taleli siyasi hadisə olan Lobbizmin bünövrəsinin qoyulması idi. 1864-cü ildən başlayaraq Konqresin dəhlizində "Pul ilə səs almağı" bildirən lobbiçilik xeyli müddət qeyri-peşəkar siyasət kimi qiymətləndirilirdi. Lobbiçilik yalnız XX əsrdən başlayaraq siyasi təsir vasitəsi kimi istifadə olunmağa başlayır. Daha sonradan Lobbiçilik siyasətdə müəyyən şəraitdə münaqişələri azaltmaq, digər hallarda isə mənafelərini həyata keçirdiyi tərəfin mövqeyindən münaqişə yaratmaq üçün siyasi alət kimi başqa dövlətlərdə də istifadə olunmağa başlandı. Lobbiçilik 1946-cı ildə Birləşmiş Ştatların Ədliyyə Nazirliyində rəsmən qeydiyyata alınır və qanunvericilik əsasında maliyyə nəzarətinə keçir. Federal Lobbi qanununda Lobbiçilik fəaliyyətinə aşağıdakı öhdəliklər qoyur: Amerika Konqresində qanunlara təsir göstərən və ya qanunun qəbuluna və əngəllənməsinə çalışan birbaşa və dolayı pul və qiymətli əşyaları alan və ya toplayan, ya da əsas məqsədi bu olan şəxslər hər 3 aydan bir xərcləmələrinə aid olan qeydləri müəyyən idarəyə təqdim etməlidirlər. Qanundan irəli gələn maddələri incələdikdən sonra lobbiçiliyə bu cür izah vermək olar: "Lobbiçilik bir qrup və topluluq adına hərəkət edərək hökumət qərarlarına təsir göstərmək məqsəd ilə planlanan və bu məqsədlə vətəndaşlarla qərar verənlər arasında qruplaşmağa çalışan bir iş, əlaqə və münasibət olaraq tanınır" [177]. Təəssüflər olsun ki, Mərkəzi Asiya respublikalarının hər birində Azərbaycan diasporunun böyük lobbi potensialı olmasına baxmayaraq hələlik bu sahədə ciddi işlər görülməmişdir.

Etnik vətəninə bağlı diaspora malik olan xalq tarixi inkişafın gedişində qısa zaman ərzində həm iqtisadi, həm də

milli təhlükəsizlik məsələlərinin həllində mühüm nəticələr əldə edə bilər. Artıq diaspor sözü öz etnosuna bağlı, onun problemlərinə biganə olmayan bir ictimai xadim, siyasətçi sözünün sinonimi kimi də səslənməyə başlamışdır. Amma, bu fikri diaspor kimi təmsil olunan bütün şəxslər haqqında söyləmək doğru olmaz. Etnik vətənindən kənarda yaşayan bütün soydaşlar diaspor fəaliyyəti ilə məşğul olmurlar. Əslində diasporun aktiv və passiv üzvləri vardır. Müəyyən təşkilat və cəmiyyətlər ətrafında birləşərək vətən naminə şüurlu fəaliyyət göstərən, iqtisadi-siyasi məsələlərin həllində öz sözünü deyə bilən diaspor nümayəndələri bu hərəkatın öncül iştirakçılarıdır. Diaspor icması yaratmaq, üzvlər cəlb etmək, rəhbərlik vərdişlərinə yiyələnmək, lobbiçilik fəaliyyəti göstərmək kimi istəklər vətənə məhəbbətdən irəli gəlməklə yanaşı, həm də onun naminə lazımlı bir iş görmək arzusunu reallaşdırmaq yolunda atılan addımlardır.

Bu gün dünyada öz iqtisadi potensialı ilə vətəninin çiçəklənməsinə kömək göstərən diasporlar sırasında çin, yəhudi, erməni və b. misal göstərmək olar. Əsrlər boyu formalaşmış, təşkilatlanmış, miqrasiya etdiyi ölkəyə inteqrasiya olunmuş, maliyyə imkanları ilə lobbiçiliyin "zirvəsinə" yüksəlmiş erməni diasporu hələ ötən yüzilliyin 90-cı illərində müstəqillik əldə etmiş Ermənistana 14 iri təşkilatının hesabına 900 milyon ABŞ dolları miqdarında humanitar yardım göstərmişdi [185]. Bu gün Ermənistan öz milli lobbisinin köməyi ilə hər il ABŞ-dan 200 milyon dollar vəsait alır [186].

Azərbaycan dövləti diaspor təşkilatlarının fəaliyyətini gücləndirmək üçün 2012-ci ildə prezidentin ehtiyat fondundan 3 milyon manat vəsait ayırmışdır. Bu onu göstərir ki, Azərbaycan diasporunun təşkilatlanması, səfərbər olunması dövlət əhəmiyyətli bir məsələdir və onun iqtisadi qüdrətinin yüksəlməsi mühüm əhəmiyyət kəsb edir [9].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 dekabr 2003-cü il tarixli Dünya azərbaycanlılarına müraciətində də əmin etmişdir ki, onların respublikamızın iqtisadi, mədəni

həyatında, dövlət quruculuğunda hərtərəfli iştirakı üçün zəruri işlər görüləcəkdir.

Cədvəl 2.3 (20)

**Mərkəzi Asiya respublikalarında fəaliyyət göstərən "Bazar günü" məktəblərinin sayı**

| Ölkənin adı | Məktəbin sayı | Yaranma ili |
|---|---|---|
| Qazaxıstan Respublikası | 1 | 2002 |
| Qazaxıstan Respublikası | 2 | 2003 |
| Qazaxıstan Respublikası | 3 | 2004 |
| Qırğızıstan Respublikası | 1 | 2004 |
| Özbəkistan Respublikası | 2 | 2004 |
| Qazaxıstan Respublikası | 2 | 2005 |
| Özbəkistan Respublikası | 1 | 2006 |
| Qırğızıstan Respublikası | 2 | 2006 |

Cədvəl 2.2 (20)

**Mərkəzi Asiya respublikalarında Azərbaycan diaspor təşkilatları**

| Azərbaycan diaspor təşkilatlarının adı | Mövcud olduğu ölkə | Təşkilatın yaranma ili |
|---|---|---|
| "Dostluq" Azərbaycan Mədəniyyət Mərkəzi | Qazaxıstan | 2002 |
| Azərbaycan Mədəniyyət Mərkəzi | Qazaxıstan | 2003 |
| Azərbaycanlıların Milli-Mədəni Mərkəzləri Assosiasiyası | Özbəkistan | 2003 |
| Azərbaycan Mədəniyyət Mərkəzi | Özbəkistan | 2003 |
| Azərbaycan Gənclər Təşkilatı | Qırğızıstan | 2004 |
| Azərbaycan Mədəniyyət Mərkəzi | Özbəkistan | 2004 |
| Azərbaycan Qadınlar Şurası | Özbəkistan | 2004 |
| Azərbaycan Gənclər Təşkilatı | Özbəkistan | 2004 |
| Almatı Azərbaycan Gənclər Təşkilatı | Qazaxıstan | 2005 |
| Daşkənd Azərbaycan Gənclər Təşkilatı | Özbəkistan | 2005 |
| Azərbaycanlı Qadınlar Şurası | Özbəkistan | 2005 |
| Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu | Qırğızıstan | 2005 |
| "Türkel" İctimai Birliyi | Qırğızıstan | 2005 |
| Qazaxıstan Azərbaycanlıları Assosiasiyası | Qazaxıstan | 2010 |

## 2.2. Qazaxıstan Respublikasında Azərbaycan diasporunun fəaliyyəti

XX əsrin 80-90-cı illərində, daha doğrusu, müstəqillik ərəfəsində və az sonra ölkə əhalisinin müəyyən bir qisminin xarici ölkələrə üz tutmasının əsas səbəbləri qısa da olsa aşağıdakı şərhdə öz əksini tapmışdır.

İlk növbədə onu qeyd etmək lazımdır ki, 1980-ci illərin ortalarında SSRİ-nin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında böhran yaranmışdı. Böhranlı vəziyyətin əlamətləri hələ 70-ci illərin ortalarından görünürdü. Belə ki, elmi-texniki tərəqqi ləngiyirdi, sənayedə avadanlıqların dövrün tələbinə cavab verməməsi, infrastrukturun zəifliyi, təbii ehtiyatlar hasilatının çətinləşməsi və bahalaşması, maddi ehtiyatlar qıtlığının meydana gəlməsi təzahür edirdi. Ölkədə effektli olmayan iqtisadiyyat, ekstensiv inkişaf modeli qalmaqda idi.

1985-ci ildə Sov. İKP MK-nın Baş karibi M.S.Qarbaçovun irəli sürdüyü "sürətləndirmə" konsepsiyası, 1987-ci ildə isə "aşkarlıq və demokratiya xətti" adlı siyasi oyunlar SSRİ-nin süqutunu daha da tezləşdirdi. 1991-ci il 18 oktyabr tarixində Azərbaycan Respublikasının müstəqilliyi haqqında konstitusiya aktının qəbul edilməsi ilə ölkəmiz uzun illərdən sonra yenidən müstəqilliyini bərpa etdi. Lakin müstəqilliyi əldə etmək nə qədər çətin idisə onu qoruyub saxlamaq demək olar ki, ondan da çətin idi. Müstəqilliyin elə ilk illərində ölkəmizin qayğıları azmış kimi, erməni təcavüzü nəticəsində vətənimiz müharibə meydanına çevrildi. Müharibə nəticəsində torpaqlarımızın 20%-i işğal olundu, vətəndaşlarımızın 1 milyonu qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Dünyada mövcud olan 17 milyon qaçqın və məcburi köçkünün 1 milyonu və yaxud 6 faizi Azərbaycanın payına düşür (2006-cı ilin statistik göstəricilərinə əsasən). Nəticədə ölkədə böhran özünün ən yüksək nöqtəsinə çatdı. Nəzarətsiz qalan kommersiya strukturlarının və "qara" bazarın fəaliyyəti, bank sistemindəki xaos sayəsində inflyasiya dəfələrlə

artmış, ölkənin valyuta ehtiyatları azalmış, əhalinin yaşayış səviyyəsi olduqca pisləşmişdi. Belə vəziyyətdə iqtisadi islahatların keçirilməsinin gecikdirilməsi müstəqil Azərbaycan dövləti üçün çox təhlükəli olardı. Bunu nəzərə alan Ümummilli lideri Heydər Əliyev 1994-cü ilin 20 sentyabrında sonralar ”Əsrin müqaviləsi” kimi tanınan “neft” müqaviləsinin bağlanılmasına nail oldu. Bundan sonra Azərbaycan hökuməti islahatlara başladı. 1995-ci ildə ölkədə kredit-pul siyasətini tənzimləmək istiqamətində ciddi tədbirlər həyata keçirildi. Nəticədə 1996-cı ilin əvvəlinə inflyasiyaya nəzarət etmək, manatın kursunu sabitləşdirmək və maliyyə-iqtisadi göstəriciləri müəyyən qədər yaxşılaşdırmaq mümkün olmuşdur.

Beləliklə, bazar iqtisadiyyatına keçid, digər respublikalarla iqtisadi əlaqələrin pozulması, özəlləşdirmə, ölkənin işğal olunmuş ərazilərində 300 min iş yerinin itirilməsi daxili əmək bazarında böyük gərginlik yaratmış və əhalinin müəyyən hissəsinin iş axtarmaq üçün xarici ölkələrə o cümlədən, Mərkəzi Asiya respublikalarına miqrasiya etməsinə səbəb olmuşdur. Miqrasiya proseslərinə təkan verən amil kimi qloballaşmanı da qeyd etmək lazımdır. Qloballaşma xalqlar və dövlətlər arasında “məsafələri”, “arakəsmələri” qısaldır. Dünyada milyonlarla insanın daha yaxşı həyat axtarışı üçün öz vətənlərini tərk edərək digər ölkələrə köçməsi adi hala çevrilmişdir. Miqrasiyalarla bağlı statistik rəqəmlərə nəzər saldıqda son 50 ildə beynəlxalq miqrantların sayı təqribən 3 dəfə artmışdır. Əgər 1910-cu ildə bütün dünyada öz doğulduğu ölkədən kənarda yaşayan insanların sayı 75,5 mln. nəfər idisə 2009-cu ildə bu rəqəm 213,9 mln. nəfər təşkil etmişdir. BMT ekspertlərinin qiymətləndirmələrinə görə hazırda yer kürəsinin hər 35 nəfərindən biri inkişaf etmiş ölkələrdə isə hər 10 nəfərdən biri beynəlxalq miqrantdır [178].

Mərkəzi Asiya respublikalarında mühacir həyatı yaşayan soydaşlarımız azad respublikaların vətəndaşları olaraq təşkilatlanmağa başladılar. Bu gün Azərbaycanın Mərkəzi Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlıq mənzərəsinə, ortada olan iqtisadi

layihələrə nəzər salsaq, onların hamısında Azərbaycanın təşəbbüslərini qeyd edə bilərik. 1998-ci ildə "Böyük İpək yolu" layihəsinə (Avropa-Asiya nəqliyyat dəhlizi) Bakıda, Azərbaycanın ev sahibliyi ilə start verilməsi, 1999-cu ildə Qazaxıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan və Türkiyənin iştirakı ilə Şərq-Qərb enerji dəhlizi üzrə tarixi İstanbul anlaşmalarının əldə olunması və s. Türk dövlətlərinin mədəni inteqrasiyasının mühüm təməli olan TÜRKSOY təşkilatının formalaşması, bu formatda bir çox layihələrin reallaşması da Azərbaycanın fəal rolu sayəsində mümkün olmuşdur.

Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısında bəyan etmişdi: "Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin-milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək iş birliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq" [57, 82].

Qazaxıstan Mərkəzi Asiya regionunun ərazi baxımından ən böyük dövlətidir (ümumi sahəsi 2 724 900 $km^2$-dir). Ölkə kəskin kontinental iqlimə malikdir. Elə bu səbəbdən də SSRİ-nin hakim dairələri cəza vermək istədiyi insanların böyük əksəriyyətini ya Sibirə, ya da Qazaxıstanın ucsuz-bucaqsız çöllərinə sürgün edirdi. Bütün bu sürgünlərin nəticəsidir ki, Qazaxıstan çoxmillətli ölkəyə çevrilmişdir (əhalinin ümumi sayı 16,004,800 nəfərdir). Qazaxıstan Respublikası Statistika Agentliyinin 2010-cu il məlumatına əsasən ölkə əhalisinin 63,1%-ni qazaxlar, 23,7%-ni ruslar, 2,8%-ni özbəklər, 2,1%-ni ukraynalı, 1,4%-ni uyğurlar, 4,5%-ni isə digər xalqlar təşkil edir. Qazaxlar türklərin Qıpçaq qolunun ən böyük xalqıdır. Rəsmi məlumatlara əsasən 90 min, qeyri rəsmi məlumatlara əsasən isə 150 min nəfər azərbaycanlı Qazaxıstan Respublikasında yaşayır.

Cədvəl 2.6 (78)

**XX-XXI əsrlərdə Qazaxıstandakı azərbaycanlı əhalinin say dinamikası**

| **İllər** | **1926** | **1939** | **1959** | **1970** | **1979** | **1989** | **1999** | **2009** |
|---|---|---|---|---|---|---|---|---|
| İnsan | 46 | 12996 | 38362 | 56166 | 73345 | 90083 | 78325 | 85292 |

Bu gün azərbaycanlılar Qazaxıstanın demək olar ki, bütün rayon və əyalətlərində yaşayırlar. Böyük əksəriyyəti qazax dilini bilir və ondan lazımı səviyyədə istifadə edirlər. Sovetlər birliyində olduğu kimi, müstəqillik illərində də azərbaycanlılar ölkənin əsasən cənub rayonlarında məskunlaşmışlar. Cənubi Qazaxıstan əyalətlərində iri diaspor təşkilatları mövcuddur ki, onlar da öz ətrafında 28956 nəfər birləşdirməyə nail olmuşlar. Qazaxıstanın cənub əyalətlərində məskunlaşmış azərbaycanlıların əsas məşğuliyyəti kənd təsərrüfatı sahələridir. Ölkənin iri şəhər və rayonlarında azərbaycanlılar öz cəmiyyətlərini yaratmışlar. Bunlardan bir neçəsinin adlarını çəkmək olar: Almatıda “Qobustan”, Jamblda – “Azəri”, Pavlodarskidə – “Vətən”, Kostanayda – “Heydər”, Manqıstauda – “Dostluq” və s. Bu cür mədəniyyət mərkəzlərinin nəzdində ana dili kursları, həmçinin milli musiqi və rəqslərin öyrədildiyi kurslar fəaliyyət göstərir. Milli instrumental və folklor kollektivlər (”Azərbaycan”, “Sevinc”, “Arzu”, Qəriblər”, “Ozan”) mövcuddur.

Cədvəl 2.7 (78)

**2009-cu il siyahıyaalmasına görə Qazaxıstanın regionlarında azərbaycanlıların sayı**

| Ərazilərin adı | Ümumi ins. sayı | Azərbay-canlı əhali | Ərazilə-rin adı | Ümumi ins. sayı | Azərbaycanlı əhali |
|---|---|---|---|---|---|
| Qazaxıstan Respublikası | 16009597 | 85292 | | | |
| Akmolinsk | 737495 | 1855 | Qızıl orda əyaləti | 678794 | 232 |
| Aktyubinsk | 757768 | 986 | Mangistau | 485392 | 3776 |
| Almaata əyaləti | 1807894 | 14881 | CB.Qazax. əyaləti | 2469357 | 28956 |
| Atırau əyaləti | 510377 | 388 | Pavlodar əyaləti | 742475 | 1823 |
| Qb. Qazax. əyaləti | 598880 | 1102 | Şm. Qazax əyaləti | 596535 | 1564 |
| Cambul (Jambl) əyaləti | 1022129 | 10781 | Şq. Qazax. əyaləti | 1396593 | 1373 |
| Karaqanda əyaləti | 1341700 | 4122 | Astana şəhəri | 613006 | 2618 |
| Kostanay əyaləti | 885570 | 3405 | Almatı şəhəri | 1365631 | 7430 |

Qazaxıstan SSRİ-nin süqutundan sonra 1991-ci ildə müstəqilliyini elan etmişdir. Ölkənin ilk Prezidenti seçilmiş Nursultan Nazarbayevin hakimiyyəti hələ də davam etməkdədir. 1997-ci ildə paytaxt Almatıdan Astanaya köçürülmüşdür. Almatı ölkənin ən böyük şəhəri olmaqla əyalət statusuna malikdir. İSESCO şurası son iclasında 2015-ci ildə İslam mədəniyyəti şəhəri elan olunması ilə bağlı Almatının namizədliyini təsdiqləmişdir. Qazaxıstanın xarici siyasət prioritetləri Rusiya, Çin,

ABŞ, Avropa Birliyi, Mərkəzi Asiya dövlətləri həmçinin türk-dilli ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmişdir.

SSRİ-nin dağılması ərəfəsində, onun tərkibində olan respublikaların liderləri öz ölkələrini bürümüş iqtisadi və siyasi böhranı aradan qaldırmaq məqsədilə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin dəvəti ilə 1991-ci ilin oktyabr ayında Almatı şəhərinə toplaşaraq SSRİ-nin dağılmasını gözləmədən öz gələcək inkişaflarını müzakirə etmişlər [62, 75]. Bu müzakirələrdə, sazişlərin və müqavilələrin bağlanmasında Azərbaycan da iştirak edirdi. Almatı görüşündə suveren dövlətlərin iqtisadi əməkdaşlığının, respublikalararası iqtisadi, elmi-texniki, mədəni əlaqələrin əsas prinsipləri razılaşdırılmış, respublikalararası iqtisadi sazişlərin və müqavilələrin imzalanmasının yeni iqtisadi şəraitə uyğunlaşdırılması problemləri müzakirə obyektinə çıxarılmışdır. Görüşdə bütün respublikaları bürümüş iqtisadi böhrandan yeganə çıxış yolunun bazar iqtisadiyyatı münasibətlərinə tezliklə keçməkdən, sahibkarlığı hər vasitə ilə inkişaf etdirməkdən, qarşılıqlı şəkildə əlaqələri genişləndirməkdən ibarət olduğu qənaətinə gəlinmişdir.

1991-ci il 30 sentyabr - 2 oktyabr tarixlərində Azərbaycan Respublikası nümayəndə heyətinin Qazaxıstana rəsmi səfərinin yekunu olaraq oktyabr ayının 1-də “Azərbaycan SSR ilə Qazaxıstan SSR arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında” müqavilə imzalanmışdır [62, 82]. (Bu müqavilə 1996-cı ilin sentyabr ayında Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri zamanı imzalanacaq müqavilələrə qədərki dövrdə Azərbaycan və Qazaxıstan münasibətlərini tənzimləyən sənəd oldu).

1991-ci il dekabr ayının 21-də Qazaxıstan Azərbaycanın müstəqilliyini tanıdığını bildirmişdir. 1992-ci il avqust ayının 27-də hər iki dövlət arasında diplomatik münasibətlər yaradılmışdır. 1993-cü ildə Qazaxıstanın Azərbaycanda səfirliyi fəaliyyətə göstərməyə başladı. Lakin bütün bunlara baxmayaraq, iki ölkə arasında qarşılıqlı əlaqələr əsasən ayrı-ayrı türk dövlət

başçılarının Zirvə toplantısı, müxtəlif beynəlxalq və məhəlli təşkilatlarda dövlət və hökumət nümayəndə heyətlərinin görüşləri əsasında həyata keçirilirdi.

1993-1995-ci illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həm müxtəlif beynəlxalq və məhəlli təşkilatlarda iştirak, həm birgə layihələrin işlənib hazırlanması çərçivəsində, həm də Türksoy xətti ilə keçirilən tədbirlərdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə dəfələrlə ikitərəfli, səmərəli görüşlər keçirmişlər. Bütün bu görüşlərin, dövlət başçılarının qarşılıqlı səylərinin nəticəsində 1996-cı ildə ölkələrimiz arasında qarşılıqlı əlaqələr praktik müstəviyə keçdi. Belə ki, 1996-cı il sentyabrın ortalarında Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri zamanı iki ölkə arasında qarşılıqlı münasibətlərin müxtəlif istiqamətləri üzrə inkişaf etdirilməsini nəzərdə tutan 12 sənəd imzalanmışdır [13, iş 58, v.53-72]. İki dövlət arasında münasibətlərin yaxınlığı az müddət ərzində daha yeni sənədlərin imzalanmasına ehtiyac yaratmışdır. Bakıda bu mühüm sənədlərin imzalanmasında əldə olunmuş nailiyyət Qazaxıstanda təxminən bir il sonra davam etdirilmiş və hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edən daha 17 sənədin imzalanmasına gətirib çıxarmışdır [13, iş 58, v.53-72].

Qazaxıstan çoxmillətli ölkə olduğundan burada xalqların qarşılıqlı anlaşma şəraitində yaşamasını daha davamlı və uğurlu etmək üçün bu sahədə istər ölkə qanunvericiliyi istərsə də qanunların işləmə mexanizmi çox yüksək səviyyədədir. Belə ki, 1995-ci ildən Qazaxıstanda Respublikanın milli mədəniyyət mərkəzlərini birləşdirən Qazaxıstan Xalqları Assambleyası fəaliyyət göstərir. Bu assambleyanın sədri, ölkənin Prezidenti Nursultan Nazarbayevdir. Assambleyanın sessiyalarındakı çıxışları zamanı dövlət başçısı tez-tez Qazaxıstanın etnik münaqişələrdən uzaq ölkə olduğunu diqqətə çatdırmışdır. N.Nazarbayev etniklərarası sabitliyin bərqərar olmasını həm də iqtisadi, sosial-siyasi islahatlar üçün zəmin kimi qiymətləndirmişdir.

Qazaxıstan Xalqları Assambleyasının üzvlərindən ibarət

nümayəndə heyəti 2008-ci ilin noyabr ayının birinci yarısında Bakıda səfərdə olmuşdur. Nümayəndə heyəti Azərbaycan Mədəniyyət və Turizm Nazirliyində "Azərbaycan-Qazaxıstan" Dostluq Cəmiyyətində görüşlər keçirmişlər. Səfərin son günü Rəşid Behbudov adına Mahnı Teatrında Azərbaycan və Qazaxıstan incəsənət ustalarının iştirakı ilə "Dostluq Aləmi-Dostluq Planeti" adlı konsert proqramı yüksək səviyyədə təşkil olunmuşdur. Təbii ki, xalqlar arasında dostluğun möhkəmlənməsinə yönəlmiş bütün bu tədbirlər Qazaxıstan respublikasında fəaliyyət göstərən Azərbaycan Diasporunun fəaliyyətinə də müsbət təsir göstərmişdir [163].

Qazaxıstanda yaşayan azərbaycanlılar elm, incəsənət, kənd təsərrüfatı, kiçik, orta biznes və digər sahələrdə çalışırlar. Eyni zamanda onlar Qazaxıstan Respublikasının ictimai-siyasi həyatında yaxından iştirak edir, dövlət orqanlarında təmsil olunurlar. Bununla yanaşı, həmvətənlərimiz Qazaxıstan Respublikasının qanunlarına uyğun olaraq özlərinin bir neçə milli-mədəniyyət təşkilatlarını yaratmışlar. Belə təşkilatların yaranmasının ilk təşəbbüskarı Müseyib Novruzovdur. O, Azərbaycan İncəsənət İnstitutunu bitirdikdən sonra Sank-Peterburq Humanitar İnstitutunda təhsilini davam etdirmiş sonralar isə işi ilə əlaqədar olaraq Qazaxıstanda fəaliyyətə başlamışdır. M.Novruzov hələ diaspor təşkilatı yaratmamışdan öncə də həmişə Qazaxıstanda azərbaycanlıların sıx yaşadığı şəhərlərdə, vilayətlərdə olur onların həyat tərzi, problemləri, qayğıları ilə maraqlanmışdır. Belə axtarışlardan birində o, azərbaycanlılardan ibarət "Sevil" və "Qəriblər" ansamblları ilə tanış olur. Günü-gündən ətrafına xeyli sayda azərbaycanlı toplaya bilən Müseyib Novruzov öz arzusunu 29 mart 1992-ci ildə "Turan Azərbaycanlıların Mədəniyyət Mərkəzi" adlı diaspor təşkilatını rəsmi qeydiyyatdan keçirməklə reallaşdırmışdır. Elə həmin ildə Qazaxıstan Dövlət Radiosunda həftəlik yayımlanan ədəbi-bədii və musiqili proqram olan "Azəri" verilişinin müəllifi olmuşdur. Səxsən özünün aparıcılıq etdiyi veriliş Azərbaycan dilində yayımlanır. Daha sonra Turan bədii studiyasını yaradan Müseyib Novruzov hal-hazırda "Dost-

luq” və “Türk dünyası” qəzetlərinin redaksiya heyətinin üzvüdür [78]. Onu da Qeyd etmək lazımdır ki, qazax dilində nəşr olunan bu qəzetin hər nömrəsində Azərbaycanın dünənki tarixi, bugünkü inkişafı və perspektivləri, eyni zamanda Qazaxıstan Respublikası ilə Azərbaycan Respublikasının qarşılıqlı, mehriban dostluq və əməkdaşlıq münasibətlərindən bəhs edən yazılar geniş yer alır.

1990-cı illərin sonlarından etibarən Aktyubinsk vilayətində “Dostluq”, Jambul vilayətində “Azəri”, Qərbi-Qazaxıstan vilayətində “Birlik”, Qaraqanda vilayətində “Namus”, Kustanay vilayətində “Heydər”, Pavlodar vilayətində “Vətən” və s. Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir [20, 281].

2001-ci ildə Müseyib Novruzovun təşəbbüsü ilə Qazaxıstan, Qırğızıstan və Özbəkistan azərbaycanlılarının milli mədəniyyət mərkəzlərini “Turan” Konqresində birləşdirdi. Sonradan yaranan “Ozan” (Almatı şəhərində), “Qardaşlıq” (Daşkənd şəhərində), “Xəzər” (Bişkek şəhərində) diaspor təşkilatları “Turan” Konqresinin ideya davamçılarıdırlar.

Hal-hazırda Qazaxıstanda fəaliyyət göstərən Qazaxıstan Azərbaycanlılarının Mədəni Mərkəzləri İttifaqı böyük bir qurumdur. 12 diaspor təşkilatını birləşdirən bu İttifaq koordinasiya mərkəzidir. Bu Mərkəzə Qazaxıstanda yaşayan azərbaycanlı ziyalıların ən qabaqcıl nümayəndələrindən biri olan Vidadi Salahov rəhbərlik edir. 1957-ci ildə Azərbaycanın Kəlbəcər rayonunda anadan olan Vidadi Salahov orta məktəbi bitirdikdən sonra ali təhsilini Qazaxıstanın Voronej Dövlət Universitetində almış və elə həmin ölkədə də pedaqoji fəaliyyətə başlamışdır. Sonralar elmi axtarışlarını davam etdirən Vidadi müəllim tarix üzrə fəlsəfə doktoru elmi adını almışdır. 2004-cü ildən “Turan-ekspress” qəzetinin baş redaktoru vəzifəsində çalışmağa başlamışdır. Qazaxıstan Respublikası Prezidentinin 2 minnətdarlıq məktubu, “Qızıl qartal” ordeni ilə, 10-dan çox diplom və fəxri fərmanla təltif olunmuşdur. 2011-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahə-

sindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur [78].

Qazaxıstanın paytaxtı Astananın mərkəzi küçələrindən biri erməni Mirzoyanın adını daşıyırdı. O, Mirzoyan ki, Stalin totalitarizminin, repressiya siyasətinin həyata keçirilməsində aktiv fəaliyyət göstərməklə 1937-1940-cı illərdə qazax xalqının kütləvi qırğınına şəxsən başçılıq etmişdir. "Tarix fakta əsaslananda dəqiq olur" fikrini rəhbər tutan Vidadi Salahov Qazaxıstanın dövlət arxivində tədqiqat apararaq Mirzoyanın 1 dekabr 1937-ci il tarixində Alma-Ata şəhərindən Stalinə göndərdiyi gizli məktubu aşkar etmiş və erməni diasporunun tənələrinə baxmayaraq bu məktubu mətbuatda işıqlandırmaqla Qazaxıstan ictimaiyyətinin diqqətinə çatdırmışdır. Məktubda Mirzoyan cinayətlərini böyük qəhrəmanlıq hissi ilə şərh edərək yazırdı: "Antisovet ünsürlərindən birinci kateqoriya 8 min insan, ikinci kateqoriya 8 min insanı repressiya edilməsi ixtiyarı bizə verilmişdir. İndi demək olar ki, bu limiti doldurmuşuq. Biz 10 dekabra qədər antisovet elementlərini tamamilə məhv etməli və təmizləməliyik. Şipyon və təxribat işlərinə görə bu iki kateqoriyaya aid təşkilatlar və qurumlar bizim tərəfimizdən ləğv olunub ki, bu da qoyulmuş 1600 nəfər limitdən çoxdur. Bütövlükdə sıralarımızı təmizləmək üçün I kateqoriyadan 600 nəfər, II kateqoriyadan 1000 nəfər repressiya etməyimizə icazə verəsiniz" [78].

## КОРОТКА НАРОДНАЯ ПАМЯТЬ

Удивительно то, что в столице Казахстана - городе Астане - есть улица, которая носит имя большого большевицкого палача Левона Мирзояна. Кто и чем руководствовался, когда эту улицу назвали?

Если учесть, что великий Жамбыл Жабаев, чтобы смягчить гнев палача назвал его «Мирзожаном» в духе казахского языка, и это может быть был единственный ход, который мог спасти его жизнь, но это не означает, что палач Левон Мирзоян был национальным героем, или видным политическим деятелем, подействовавций процветанием казахского народа. Наоборот этот эгоист уничтожил не одну тысячу славных сынов казахского народа. Почти полностью истребил его интеллигенцию. Особо ярко это видно из архивных документов. Перевыполнив план Москвы по уничтожению казахстанцев, он (Мирзоян) попросил у Сталина дополнительный лимит для дальнейших репрессий. Еще, будучи первым секретарем Таразского обкома партии (большевиков), переименовал тысячелетний казахстанский город на свою фамилию, сделав его городом Мирзояна. Впрочем, это и не удивительно, что другой палач, Сталин, услышав это, пришел в ярость. «За какие такие заслуги он (Мирзоян) присваивает свое имя городам?», - спросил он у Берии Л.П. Сегодня у многих историков и обычных людей возникает тот же вопрос. За что палач получил такую честь? Кто лоббировал это безобразие? И кто стоит сейчас за тем, чтобы упразднить эту улицу? Вопрос, который ждет своего справедливого решения у властей города.



СТРОГО СЕКРЕТНО — ПОДЛЕЖИТ ВОЗВРАТУ В 48 ЧАС.

(Пост. ПБ от 5 мая 27 г. пр. № 100 п. 5)

Снятие копий воспрещается

Кому послано

**ШИФРОВКА**

Из АЛМА-АТА отправлена 18-20 1.XII 1937 г. Поступила в ЦК ВКП

Из расшифрования 1.XII 1937 г. ч22 м. —

Вх. № 2748/Ш

МОСКВА ЦК ВКП(б) тов.СТАЛИНУ.

По антисоветским элементам нам было продоставлено право репрессировать по первой категории 8 тысяч человек и по второй категории 8 тысяч человек. Сейчас эти лохмты почти полностью использованы - мы должны к 10 декабря окончательно зачистить и покончить с активным антисоветским элементом. По этим двум категориям активного повстанческого, диверсионного и шпионского элемента нами из'ято по ликвидированным организациям и группам на 1600 человек больше установленного лимита.

Для полной зачистки остатков мы просим разрешить нам дополнительно репрессировать по первой категории 600 человек и по второй категории 1 тысячу человек.

СЕКРЕТАРЬ ЦК КП(б)КАЗАХСТАНА МИРЗОЯН.

Расшифровала 2.XII 193 7 г. в 10 ч. 36 м. Напечатано 5 экз. Козлов.

ИЗВЛЕЧЕНИЕ ИЗ ИНСТРУКЦИИ

Совет Министров
Азербайджанской ССР

# СОВЕТ МИНИСТРОВ СССР

ПОСТАНОВЛЕНИЕ №

декабря 1947 г. Москва, Кремль.

О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР.

Совет Министров Союза ССР ПОСТАНОВЛЯЕТ:

1. Переселить в 1948-1950 гг. на добровольных началах в Кура-Араксинскую низменность Азербайджанской ССР 100 тыс. колхозников и другого азербайджанского населения из Армянской ССР, из них: 10 тыс. человек - в 1948 году, 40 тыс. человек - в 1949 году и 50 тыс. человек - в 1950 году.

2. Разрешить Совету Министров Армянской ССР освобождаемые азербайджанским населением постройки и жилые дома в связи с переселением их в Кура-Араксинскую низменность Азербайджанской ССР использовать для расселения зарубежных армян, прибывающих в Армянскую ССР.

Председатель
Совета Министров Союза ССР И.Сталин

Управляющий Делами
Совета Министров СССР Я.Чадаев

Bu məktub Qazaxıstan ictimaiyyəti tərəfindən böyük maraq və nifrətlə qarşılanmışdır. Qazaxıstanın ziyalı insanları mətbuatda, sosial şəbəkələrdə bu haqda çox maraqlı fikirlər söyləmiş, əslində qazax xalqının düşməni olan Mirzoyanın adını daşıyan küçənin adının dəyişdirilərək qazax xalqının həyatında həqiqətən müsbət xidmətləri olmuş digər şəxsin adı ilə əvəz olunmasını tələb etmişlər. Hələlik yeni ad verilməsə də Mirzoyanın adı bu küçədən götürülmüşdür. Bax, bu sözün həqiqi mənasında diasporun fəaliyyətidir. Həm də erməni diasporunun tətbiq etdiyi terror, böhtan atmaq və sair kimi düzgün olmayan metodlarla yox, sağlam, fakta əsaslanan, sivil mübarizə yolu ilə qələbə!

1 fevral 2000-ci ildə Qazaxıstanın paytaxtı Astana şəhərində yaşayan azərbaycanlılar tərəfindən "Xəzər" Milli-Mədəniyyət Mərkəzi təsis olunmuşdur. Bu təşkilat artıq 14 ildir ki, uğurla fəaliyyət göstərir. 7 sentyabr 2004-cü il tarixində "Xəzər" Milli Mədəniyyət Mərkəzinin təsis etdiyi aylıq "Turan-ekspress" qəzeti rus və qazax dillərində nəşr olunur. Qəzetin səhifələrində Qazaxıstan Respublikası ilə yanaşı Azərbaycan Respublikasının da reallıqlarını özündə əks etdirən yazılara geniş yer verilir. "Xəzər" Milli Mədəniyyət Mərkəzinin rəhbəri Vidadi Ağayevdir. Vidadi Ağayev 80-ci illərdə işləmək məqsədi ilə Qazaxıstana miqrasiya etmiş azərbaycanlılardan biridir. O, ömrünün uzun illərini vətəndən uzaqda yaşasa da vətənə, milli dəyərlərimizə sadiq bir diaspor nümayəndəsi olmuşdur. O, rəhbərlik etdiyi təşkilatda Azərbaycan diasporunun gələcəyi və inkişafı naminə ətrafına çox bacarıqlı, savadlı və vətənpərvər gəncləri toplamışdır. Bunlardan görkəmli hüquqşünas Oruc Allahverdiyevi misal göstərmək olar.

Qazaxıstanda fəaliyyət göstərən Azərbaycan Diasporunun görkəmli nümayəndəsi, uğurlu iş adamı Ədalət Hüseynov haqqında bir neçə faktı qeyd etmək yerinə düşərdi. Allahverdiyev Ədalət Mahmud oğlu 1951-ci ildə Ermənistan SSR-in İcevan rayonunda anadan olmuşdur. Ali təhsilini Azərbaycan Dövlət Politexnik İnstitutunda alan Ədalət Allahverdiyev Moskvanın

təyinatı ilə işləmək üçün Qazaxıstana göndərilmişdir. 1991-ci ilə qədər bir neçə dəfə Rayon Soveti deputatı, daha sonra iki dəfə Vilayət Soveti deputatı, 1991-ci ildə isə Ali Sovetin deputatı seçilmişdir. 1996-cı ildə Şərqi Qazaxıstan Dövlət Universitetinin İqtisadiyyat və Menecment fakültəsini bitirmişdir. Hal-hazırda Qazaxıstanda Kənd Təsərrüfat İnstitutunun professoru və Qazaxıstan iqtisadiyyatında aparıcı mövqeyə malik olan "Универсальной Товарной Биржи Астана" şirkətinin direktoru vəzifəsində çalışır [78]. Ədalət müəllim təkcə alim, dövlət xadimi, iş adamı kimi yox, həm də Qazaxıstanda Azərbaycan Diaspor nümayəndələri arasında böyük hörmətə malik vətənpərvər ziyalıdır. Fikrimizi əsaslandırmaq üçün bir faktı xüsusi olaraq qeyd etmək istərdik. 1990-cı ilin 20 yanvar faciəsi zamanı 76 nəfər azərbaycanlı Qazaxıstan Respublikasında hərbi xidmətdə idi. Azərbaycanda baş verən bu faciədən xəbər tutan həmin azərbaycanlı əsgərlər silaha sarılaraq müdiriyyətdən Vətənə göndərilmələrini təkidlə tələb edirlər. Hadisədən xəbər tutan Ədalət müəllim işə qarışır azərbaycanlı gənclərlə söhbət edərək silahı yerə qoymalarına nail olur. Əks təqdirdə onların ciddi cəzalandırılacaqlarını bilən Ədalət müəllim Qazaxıstanın hakim dairələri ilə danışıqlar apararaq azərbaycanlı əsgərlərin Vətənə göndərilməsinə müvəffəq olur. Həmin azərbaycanlı əsgərlər bu günə qədər minnətdarlıqla Ədalət müəllimi yad edirlər.

Hal-hazırda rəhbərlik etdiyi şirkətdə xeyli sayda azərbaycanlı çalışır. Burada çalışan azərbaycanlılar da həmişə Ədalət müəllimin diqqət və qayğısını hiss edirlər.

2003-cü ildə Astanada "Dünya azərbaycanlılarının Mədəniyyət Mərkəzi" ictimai təşkilatının nümayəndəliyi açılmışdır. Son dövrlər Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Qazaxıstanın Taldıkurqan şəhərində "Naxçıvan", Çuy şəhərində "Azərbaycanlıların Mədəniyyət Mərkəzi" təsis edilmiş və Astana, Almatı, Taldıkurqan, Qaraqanda şəhərlərində Azərbaycan dilində "Bazar günü" məktəbləri açılmışdır.

25 sentyabr 2006-cı il tarixində Qazaxıstanın Cambul

vilayətinin Çu rayonunda 5 mindən artıq soydaşımızın yaşadığı Novıy put (Yeni yol) kəndində "Nəsimi" adlı Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyətə başlamışdır. Bu təşkilatın üzvlərinin böyük əksəriyyəti 1937-ci ildə Azərbaycanın müxtəlif bölgələrindən bu əraziyə sürgün olunmuş azərbaycanlıların övladlarıdır.

2001-ci ildə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin fərmanı ilə Qazaxıstan Azərbaycanlıları Assosiasiyası İctimai Birliyinin sədri, Qazaxıstan Xalqları Assambleyası Şurasının üzvü, texniki elmlər namizədi Əbülfəz Müslümoğlu "KÜRMET" ("Şərəf") ordeni ilə təltif olunmuşdur. Əbülfəz Müslümoğlunun ata-babaları 1932-37-ci illərində Azərbaycandan Qazaxıstana sürgün olunublar. Əbülfəz Müslümoğlu hazırda ölkənin 20 ən yaxşı investisiya qabiliyyətinə malik sahibkarlarından hesab olunur. Eyni zamanda 2000-ci ilin əvvəllərindən başlayaraq, Qazaxıstan Azərbaycanlıları Assosiasiyası İctimai Birliyinə başçılıq edir. Bu diaspor təşkilatının mətbu orqanı "VƏTƏN" qəzetidir. Assosiasiyanın nəzdində Bazar günü məktəbi, "Bahar" rəqs qrupu fəaliyyət göstərir [20, 282].

Qazaxıstanda nəşr olunan "Türkell" və "Vətən" qəzetinin, həmçinin "Altın körpü" dərgisinin baş redaktoru peşəkar jurnalist Ramiz Məşədihəsənlidir. Adlarını qeyd etdiyimiz bu üç mətbu orqan Azərbaycan həqiqətlərinin, mədəniyyətinin, iqtisadiyyatının hətta turizminin təbliğində əvəzsiz rola malikdir. "Türkell" qəzetinin Mərkəzi Asiyanın iki respublikasında (Qazaxıstan, Qırğızıstan), eyni zamanda Türkiyədə və Azərbaycanda da redaksiyaları fəaliyyət göstərir [148, 10].

1990-cı illərdən Aktyubinsk vilayətində "Birlik", Astana şəhərində "Xəzər", Karaqanda vilayətində "Namus", Povladar vilayətində "Vətən" və s. Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Azərbaycan Mədəniyyət Mərkəzi Cambul vilayətinin Çu rayonunun Yeni yol kəndində yaradılmışdır. Qazaxıstanda yaşayan azərbaycanlıların ilk təşkilatlarından biri də "Turan" Mədəniyyət Mərkəzidir. Bu qurum ictimai-mədəni fəaliyyətlə məşğul olur. 1993-cü ilin may ayından Qazaxıstan

Ədliyyə Nazirliyində qeydiyyatdan keçən “Turan” Mədəniyyət Mərkəzi 1997-ci ildən fəaliyyətə başlamışdır. Bu mərkəzin rəhbərliyi ilə Almatıda “Ozan” şəhər Mədəniyyət Cəmiyyəti təsis olunmuşdur. Bunun ardınca digər vilayətlərdə də bu proses davam etdirilmişdir [20, 283].

Astana şəhərində Qazaxıstan Azərbaycanlılarının Mədəni Mərkəzləri İttifaqı fəaliyyət göstərir. Bu ittifaq böyük bir qurum olmaqla yanaşı həm də Koordinasiya mərkəzidir. Burada 12 diaspor təşkilatı birləşmişdir [78].

Qazaxıstanda Azərbaycan diasporunun nəzdində Bazar günü məktəbi fəaliyyət göstərir Məktəbdə əsasən üç fənn geniş tədris olunur: Azərbaycan dili və ədəbiyyatı, Folklor, Tarix və mədəniyyət. Məktəbdə iki sinif fəaliyyət göstərir. Ümumilikdə Astana şəhərində ayrı-ayrı xalqlara məxsus olan 11 bazar günü məktəbi fəaliyyət göstərir. Hər il bu məktəblər arasında bilik bayramları çərçivəsində elmi yarışlar keçirilir. Bu yarışlarda çox aktiv iştirak edən Azərbaycan bazar günü məktəbi 3 dəfə qələbə əldə edərək mükafatlandırılmışlar [78].

Qazaxıstanda Azərbaycan diasporunun nəzdində fəaliyyət göstərən Qadınlar cəmiyyəti 1996-cı ildə təsis olunmuşdur. Bu cəmiyyətin üzvü olan qadınlar ictimai tədbirlərdə yaxından iştirak etməklə yanaşı Azərbaycan mətbəxini, milli kulinariyamızı da yeri gəldikcə yüksək səviyyədə təbliğ edirlər. Belə ki, hər il Novruz bayramı Qazaxıstanda da dövlət səviyyəsində keçirilir. Paytaxtın ən geniş parklarından birində açıq havada gözəl sərgi və musiqili bədii proqram təşkil olunur. Bu bayram şənliyində Qazaxıstanda yaşayan bütün xalqların mədəniyyət mərkəzləri öz sərgi guşələrində mənsub olduqları xalqların tarixini, mədəniyyətini və hətta milli kulinariyasını nümayiş etdirirlər. Azərbaycan Milli Mədəniyyət mərkəzinin təşkil etdiyi sərgi hər il bir-birindən rəngarəng və zəngin olduğu üçün böyük

maraqla qarşılanır. Bu mərasimdə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev başda olmaqla bir sıra dövlət rəsmiləri də iştirak edirlər.

Qazaxıstan Respublikasında Azərbaycan diasporu əsasən mədəni və ictimai fəaliyyətlə məşğul olur. Hüquq, iqtisadiyyat, ictimai işlər, elmi və digər sahələrdə çalışan soydaşlarımızın müəyyən hissəsi öz peşəsi üzrə təkminləşərək, mühüm vəzifələr tutmuşlar. Buna misal olaraq beş nəfər vilayət, üç nəfər azərbaycanlı şəhər deputatını, Çu şəhərinin merini (Nizami Məmmədov) qeyd etmək olar.

Azərbaycan Diasporunun Qazaxıstan Respublikasındakı uğurlu fəaliyyəti bir tərəfdən dövlətimizin onlara olan diqqət və qayğısının, digər tərəfdən Qazaxıstanda olan sağlam mühitin nəticəsidir. Belə ki, Qazaxıstanda insanların milli, dini, irqi zəmində demək olar ki, heç bir problemi yoxdur. Bu ölkədə insanların irəliləməsi üçün onların milliyyəti yox, bacarıqları mühüm əhəmiyyət kəsb edir.

2005-ci ildən başlayaraq bu günə qədər Astana, Almatı, Karaqanda, Taldıkurqan, Qaranda şəhərlərində Azərbaycan dilində Bazar günü məktəbləri fəaliyyət göstərir. Xoca Əhməd Yasəvi adına Türküstan Universitetində azərbaycanlılara hər il 10 yer verilir [20, 282].

2007-ci il may ayının 31-də Astananın 300 kilometrliyində "ALJİR" – muzey-memorial kompleksinin açılışı olmuşdur [78]. Bu muzey "ALJİR" adı ilə məşhur olan 17-ci qadın düşərgəsinin yerində salınmışdır. Muzeyin arxivində sürgün olunmuş Azərbaycan qadınlarının siyahısı da saxlanılır. Muzeyin açılışı 1997-ci ildə "31 may" tarixinin "siyasi repressiya qurbanlarının xatirəsi günü" təyin olunması haqqında sərəncamın 10 illiyinə, kütləvi siyasi repressiyaların isə 70 illiyinə bir töhfə olmuşdur.

Tədbir Qazaxıstanda fəaliyyət göstərən bir sıra xalqların, o cümlədən Azərbaycan diaspor təşkilatlarının yaxından iştirakı və dəstəyi ilə təşkil olunmuşdur. Muzeyin açılışında Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev də iştirak etmiş və bir çox maraqlı tarixi faktlara toxunaraq çox təsirli nitq söyləmişdir. Muzey 1938-1953-cü illərdə ALJİR-də məhkumluq həyatı yaşayan qadınların əl işləri, onların övladlarına tikdikləri paltar nümunələri, ayrı-ayrı uşaq evlərindən, düşərgələrdən uşaqların analarına ünvanlandıqları məktublar və s. tarixi eksponatlarla zəngindir. Muzeyin girişində qadınların düşərgələrə gətirildiyi yük qatarının vaqonlarından biri yerləşdirilmişdir ki, bu da o qadınların necə çətin şəraitdə gətirildiyini nümayiş etdirir. Muzeyin həyətində Azərbaycan diasporunun maliyyəsi ilə sürgün həyatı yaşamış Azərbaycan qadınlarının xatirəsinə həsr olunmuş abidənin yerləşdirilməsi xüsusilə diqqətə layiqdir.

## ALJİR-də sürgün həyatı yaşamış azərbaycanlı qadınların siyahısı

1. Abdullayeva Mirniriya İbrahim qızı
2. Əliyeva Kənizə İmam Əli qızı
3. Əliyeva Mahrux Süleyman qızı
4. Əmrahova Gülrux Bala qızı
5. Bayramova Ceyran Şirin qızı
6. Baratzadə-Bədəlova Leyla Əli qızı
7. Biləndərli Sayad Qasım qızı
8. Vəzirova İzzət İsmayıl qızı
9. Qəmzəyeva Həvva Bəyim qızı
10. Hüseynova Tamara Fətəli qızı
11. Hüseynova Şövkət Mirzəəli qızı
12. Hüseynova Əminə Məmmədşəfi qızı
13. Zeynalova-Nuriyeva Ruavsa Cangir qızı
14. İsmayılova Xədicə Məhərrəm qızı
15. İsazadə Suqra Rəhim qızı
16. Qarayeva-Səlimxanova Səkinə İsabəy qızı
17. Qasımova Bibixanım Ağarəhim qızı
18. Kərimova Firuzə Əsgər qızı
19. Kərimova Həmayil Həsən qızı
20. Quliyeva Validə Cəlal qızı
21. Qurbanova Ruqiyə Qənif qızı
22. Mədətova Hafizə Yarəli qızı
23. Məmmədova Nanə Rəşid qızı
24. Məmmədxanova Şövkət İsmayıl qızı
25. Mehtizadə Ziba Əbdüləzim qızı

26.Mehtiyeva Səttar Hüseyn qızı
27.Mehtiyeva Dursun Həmzə qızı
28.Muradova Səfura Nəsib qızı
29.Nayibova Məryəm Əli qızı
30.Nurməmmədova Fatma Əbdül qızı
31.Rzayeva Balabaci Hüseyn qızı
32.Rzayeva Firəngiz Mirzə qızı
33.Sadıqova Qeysə Nəsir qızı
34.Salamzadə Fəridə Rəhmanova
35.Soroker-Aqaeva Gülrux Həsən qızı
36.Xəlifəzadə Səriyyə Süleyman qızı
37.Xocayeva Sarra Riza qızı
38.Şərifova Səyar Səttar qızı
39.Şükürbəyli Minarə Abuş qızı
40.Eldarova Zara Əmir qızı
41.Eminbəyli Firuzə Məmmədtaqı qızı
42.Əfəndiyeva Əsmət Əhməd qızı
43.Əyubova  Sənubər Nəsib qızı
44.Yusifova Aişə Osman qızı






НАЦИОНАЛЬНЫЙ СОСТАВ УЗНИЦ АКМОЛИНСКОГО ЛАГЕРЯ ЖЕН ИЗМЕННИКОВ РОДИНЫ. 1938-1953 ГГ.

| № | НАЦИОНАЛЬНОСТЬ | КОЛИЧЕСТВО |
|---|---|---|
| 1 | Абазинки | 9 |
| 2 | Абхазки | 4 |
| 3 | Аварка | 1 |
| 4 | Австрийка | 1 |
| 5 | Аджарки | 4 |
| 6 | Азербайджанки | 44 |
| 7 | Англичанки | 3 |

| № | НАЦИОНАЛЬНОСТЬ | КОЛИЧЕСТВО |
|---|---|---|
| 32 | Мокша | 1 |
| 33 | Молдаванки | 4 |
| 34 | Мордовки | 21 |
| 35 | Ногайки | 2 |
| 36 | Немки | 169 |
| 37 | Норвежка | 1 |
| 38 | Осетинки | 10 |


ГУЛАГ
Не көрсем де алаш үшін көргенім,
Маған атақ, ұятым үшін өлгенім.
Мен өлсем де, алаш өлмес, көркейер,
Істей берсін қолдарынан келгенін!
Мағжан Жұмабаев,
ақын
Нам не верит страна. Ни единый прохожий
Нам навстречу ответной улыбки не шлет.
Нам не верит страна! Что же делать, мой любимый!
Как же ей доказать, что мы сердцем чисты!
Софья Солунова,
узница «АЛЖИРа»
АЛЖИР,
КАРЛАГ, АКТЮБИНСКИЙ, КАМЫШЛАГ, ПЕСЧАНЫЙ, СТЕПНОЙ, ДАЛЬНИЙ,
УСТЬ-КАМЕНОГОРСКИЙ, СПЕЦЛАГЕРЬ КЕНГИР, ПЕТРОПАВЛОВСКИЙ, ЖЕЗКАЗГАНЛАГ
ЛАГЕРЛЕР ТОЗАҒЫНАН ӨТКЕНДЕРГЕ
ПРОШЕДШИМ АД ЛАГЕРЕЙ










«АЛЖИР»
САЯСИ ҚУҒЫН-СҮРГІН ЖӘНЕ ТОТАЛИТАРИЗМ
ҚҰРБАНДАРЫНЫҢ МЕМОРИАЛДЫ-МҰРАЖАЙ КЕШЕНІ


САЯСИ
ӘЙЕЛДЕР МӘҢГІЛІК
ХАЛҚЫ СІЗДЕРДІ
ҰМЫТПАЙДЫ!
CÜ İLLƏRDƏ
ÇƏKMİŞ
ƏBƏDİ XATİRƏSİNƏ!
SİZİ HEÇ VAXT

Qazaxıstan Respublikasında fəaliyyət göstərən Azərbaycan diasporunun layiqli simaları tərəfindən ALJİR–də sürgün həyatı yaşamış 44 nəfər azərbaycanlı qadının əziz xatirəsinə həsr olunmuş abidə ucaldılmışdır.

2010-cu ildə Qazaxıstan Azərbaycanlıları Assosiasiyasının birinci qurultayı keçirilmişdir. Qurultaya Qazaxıstanın dövlət, hökumət strukturlarının nümayəndələri, millət vəkilləri ilə yanaşı, Qazaxıstan Xalqları Assambleyasına üzv olan müxtəlif xalqların etnomədəni təşkilatlarının təmsilçiləri, ziyalılar, incəsənət xadimləri, o cümlədən Türkiyə, Rusiya, Qırğızıstan, Almaniya, Özbəkistan və digər xalqların Qazaxıstandakı mədəniyyət mərkəzlərinin rəhbərləri iştirak etmişlər. Qurultayda assosiasiyaya üzv olan vilayət, şəhər, rayon təşkilatlarının hesabatları dinlənilmiş, görülmüş işlər və qarşıda duran vəzifələr ətrafında fikir mübadiləsi aparılmış, assosiasiya rəhbərliyinə seçkilər keçirilmişdir [20, 329].

2013-cü il iyunun 21-də Bakı şəhəri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Formu kimi mühüm tədbirə ev sahibliyi etmişdir [122, 10]. Forumda Qazaxıstan Respublikasından olan nümayəndə heyəti də yaxından iştirak etdilər. Ümid edirik ki, bu tədbir Qazaxıstandakı Azərbaycan Diasporunun fəaliyyətinə yeni bir töhfə verəcəkdir.

## 2.3. Özbəkistan Respublikasında Azərbaycan diasporunun fəaliyyəti

Özbəkistan Mərkəzi Asiyanın mərkəzi və şimal-qərb hissəsində yerləşən müstəqil Türk dövlətidir. Özbəkistan Mərkəzi Asiya regionunun ən çox əhali yaşayan respublikasıdır. Burada 29,6 milyon nəfər əhali yaşayır (1 yanvar 2013-cü ilin məlumatına əsasən). Etnik tərkibinə görə əhalinin 82%-i özbəklərdir. Bu ərazidə yaşayan türklərə özbək adı ilk dəfə 1313-1342-ci illərdə Qızıl Orda dövlətinin hökmdarı olmuş Qiyasəddin Məhəmməd Özbək Xan tərəfindən verilmişdir. Özbək Türkləri İslam dinini məhz Özbək xanın hakimiyyəti dövründə rəsmi din kimi qəbul etmişlər.

Hal-hazırda Özbəkistan dünyəvi dövlətdir və ölkədə bütün dinlərə ibadət sərbəstdir. Lakin ölkənin ümumi görüntüsü belə onun dərin tarixi olan İslam dövləti olduğunu əks etdirir. Özbəkistanın, xüsusilə onun paytaxtının İslam sivilizasiyası tarixində xüsusi rola malik olmasının təsdiqi kimi onu göstərmək olar ki, İslam Konfransı Təşkilatının qurumlarından biri olan İSESCO (elm, təhsil və mədəniyyət məsələləri üzrə İslam təşkilatı) Daşkəndi 2007-ci ilin İslam mədəniyyətinin paytaxtı elan etmişdi. Qədim Xivə müxtəlif xalqlara məxsus tarixi abidələrin məkanı olduğu üçün 1967-ci ildə, İçan-Qala isə 1990-da YUNESKO-nun Ümumdünya irsinə daxil edilmişdir [166].

Xalqlarımız arasındakı əlaqələr dərin tarixi köklərə malikdir. Uzun əsrlər boyu xalqlarımızı ümumi dil, din və mədəniyyətə əsaslanan dostluq və qarşılıqlı anlaşma əlaqələri bağlayır. Əsrlər boyu hər iki xalqın nümayəndələri arasında elm, mədəniyyət və ədəbiyyat sahəsində müşahidə olunan sıx əməkdaşlıq əlaqələri bunun bariz nümunəsidir. Belə ki, dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri artıq orta əsrlərdə özbək dilinə tərcümə edilmişdir. Rüstəm, Mirvari Dilbazi, Xəlil Rza Ulutürk kimi Azərbaycan şairlərinin əsərləri dəfələrlə nəşr olunmuşdur. Bundan başqa “Azərbaycan şairləri antologiyası” da nəşr

olunmuşdur . Milliyyətcə azərbaycanlı olan dahi şair və yazıçı Məqsud Şeyxzadə özbək ədəbiyyatının inkişafına öz dəyərli töhfəsini vermişdir. Onun əsərləri ədəbi janr, eləcə də tarixi aspektdən çox yüksək dəyərləndirilir [20, 287].

Azərbaycan Özbəkistan və Mərkəzi Asiyanın digər türk dövlətləri ilə beynəlxalq müqavilələrdə yaxından iştirak edir. İpək yolunun mücəssəməsi olan TRASEKA layihəsi məhz belə layihədir. Bu layihənin və digər layihələrin həyata keçirilməsi Avropa, Asiya, Yaxın və Orta Şərq ölkələri arasında yaranmış xoş münasibətlərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında bağlanmış dördtərəfli saziş məhz bu məqsədə xidmət edərək, ölkələrimiz arasındakı münasibətlərin möhkəmləndirilməsini nəzərdə tutur.

İpək yolunun tədqiqi ilə məşğul olan tədqiqatçı Habil Həmidov bu haqda yazır: "Orta Asiyanın Mərkəzi dövlətlərindən biri olan Özbəkistan Respublikası da beynəlxalq əlaqələrin möhkəmləndirilməsində İpək yolunun bərpasını və Avropa-Qafqaz-Asiya dəhlizinin işə düşməsini vacib sayır... Azərbaycanla beynəlxalq münasibətləri etibarlı zəminlər üzərində quran Özbəkistan dövləti İpək yolunun Transqafqaz dəhlizinin əsas mərkəzi dövləti kimi geosiyasi baxımdan respublikamızın mövqeyini dəstəkləyərək daimi katibliyin Bakı şəhərində yerləşdirilməsini də məqsədəuyğun saymışdır" [63, 67].

Qeyd etmək lazımdır ki, həm Özbəkistan respublikası, həm də ölkəmizin 1991-ci ildə müstəqillik qazanmalarına baxmayaraq iki ölkə arasında münasibətlərin dinamik inkişafı 1990-cı illərin ikinci yarısına təsadüf edir. Belə ki, 1996-cı ildə Azərbaycanın Özbəkistanda səfirliyi açılmışdır. 1996-cı ildə Özbəkistan Respublikasının Prezidenti İ.Kərimov ölkəmizə rəsmi səfərində dövlətlərimizin arasındakı münasibətlərin daha da inkişaf etdirilməsində çox maraqlı olduğunu və hər iki ölkənin ayrı-ayrılıqda dövlətçiliyin inkişafı və möhkəmləndirilməsi istiqamətində xeyli iş gördüklərini ifadə etmişdir: "Biz müstəqilliyimizin dörd il yarımı ərzində, ola bilsin ki, onilliklərə

bərabər bir dövrü yaşamışıq ...bu dövrdə ən başlıca nailiyyətimiz sabitlikdir-siyasi, sosial və vətəndaş sabitliyidir. Bu baxımdan hesab edirik ki, məhz bu nailiyyəti göz bəbəyi kimi qorumaq lazımdır. Çünki o, istər iqtisadiyyatda, istər sosial həyatda, istərsə də siyasətdə bütün uğurların və bütün nailiyyətlərin başlıca rəhnidir" [62, 103].

1997-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Özbəkistan Respublikasında rəsmi səfərdə olmuşdur. Bu səfər zamanı aparılan ikitərəfli danışıqlar və imzalanmış müqavilələr müstəqil suveren dövlətlərin və iki dost, qardaş xalqın əməkdaşlığına, münasibətlərinin inkişafına yeni bir mərhələ kimi daxil olmuşdur, eyni zamanda, siyasi və sosial-iqtisadi, mədəni münasibətlərin qarşılıqlı etimad şəraitində möhkəmləndirilməsinə xüsusi təkan vermişdir. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev burada yaşayan soydaşlarımızla, diaspor nümayəndələri ilə görüşmüşdür. 1996-1997-ci illərdə iki ölkə arasında 40-a qədər sənəd imzalanmışdır [11, 30-56]. Bu sənədlər hər iki respublikanın gələcək inkişafında normativ-hüquqi baza rolunu oynayaraq əməkdaşlığın uğurla inkişaf etdirilməsi üçün yaxşı əsasdır.

Rəsmi məlumatlara əsasən hal-hazırda Özbəkistan respublikasında 41 min nəfər, qeyri-rəsmi məlumatlara görə 60 min nəfərə yaxın azərbaycanlı yaşayır. Ölkənin 7 vilayətində (Səmərqənd, Nəvai, Buxara, Fərqanə, Sırdərya və s.), o cümlədən paytaxt Daşkənd şəhərində soydaşlarımız daha sıx məskunlaşmışlar.

Özbəkistan Respublikasının qanunlarına uyğun olaraq oradakı həmvətənlərimiz özlərinin bir neçə ictimai, milli-mədəni təşkilatlarını yaratmışlar. Buradakı soydaşlarımızın ağsaqqallar şurası, qadınlar cəmiyyəti, gənclər təşkilatı və digər ictimai qurumları var.

Özbəkistanda bir neçə Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Onlardan ən birincisi 1989-cu ildə Daşkənddə fəaliyyətə başlayan "Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzi olmuşdur. Mərkəzin əsas məqsədi bir diaspor təşkilatı

olaraq Özbəkistanda yaşayan soydaşlarımız arasında sıx əlaqələr yaratmaq, onları Azərbaycanda baş verən hadisələrlə yaxından tanış etmək, milli mənəvi dəyərlərin qorunub saxlanılmasına çalışmaq, Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının xalqları arasında dostluq əlaqələrini möhkəmləndirməkdir [20, 423].

1990-cı illərin ikinci yarısında Daşkənddə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzlərindən birinə görkəmli rejissor, həm Azərbaycanın, həm də Özbəkistanın xalq artisti Firidun Səfərov başçılıq etmişdir. 1997-ci ildə Özbəkistan ictimaiyyəti onun Özbəkistandakı fəaliyyətinin 20 illiyini təntənəli surətdə qeyd etmişdir [130, 125]. Daşkənd Akademik Opera və Balet Teatrında Azərbaycanın görkəmli bəstəkarlarının əsərlərinin tamaşaya qoyulmasında Firidun Səfərovun böyük xidməti olmuşdur.

Səmərqənddə 8 (Komitənin hesabatlarında 13 min göstərilmişdir) mindən artıq azərbaycanlı yaşayır. Onu da qeyd etmək lazımdır ki, Özbəkistan Respublikasının bir çox şəhərlərində yaşayan azərbaycanlılar kimi, Səmərqənd şəhərində yaşayan azərbaycanlıların da əksəriyyəti çox təəssüf olsun ki, iranlı kimi, qeydiyyata alınmışdır. Səmərqənd şəhərində yaşayan həmvətənlərimizi öz ətrafında birləşdirən "Azərbaycan-Özbəkistan" Mədəni-İqtisadi Əlaqələr Cəmiyyəti 1992-ci ildə fəaliyyətə başlamışdır. Səmərqənd şəhərində mərkəzi küçələrdən biri XIX əsrin sonu – XX əsrin əvvəllərində Mərkəzi Asiyada fəaliyyət göstərən azərbaycanlılardan biri olan, böyük maarifçi və pedaqoq, yazıçı və publisist Seyid Rza Əlizadənin adını daşıyır. Bu küçədə həmçinin Seyid Rza Əlizadənin ev muzeyi, büstü var [127, 35].

Özbəkistan Respublikasında "Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası" 2003-cü ilin yanvarında təsis olunmuşdur. AMMA-nın şöbələri Səmərqənd, Buxara, Fərqanə, Sırdərya vilayətləri və Daşkənd şəhərində fəaliyyət göstərir. Assosiasiyanın nəzdində "Azəri" qızlar rəqs ansamblı fəaliyyət göstərir. Kollektiv 2003-cü ildə Özbəkistanda keçirilən dostluq

və mədəniyyət festivalının laureatı olmuşdur. Təşkilatlanmış Azərbaycan cəmiyyətləri ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Soydaşlarımız dövlət və hökumət strukturlarında təmsil olunurlar, özəl müəssisələrə rəhbərlik edirlər. Soydaşlarımız tərəfindən mütəmadi olaraq Azərbaycanın Dövlət və milli bayramları, eləcə də hüzn günləri qeyd edilir. “Azərbaycan Evi” (2004-cü ildən) də fəaliyyət göstərir. “Azərbaycan Evi”ndə ana dili və kompüter üzrə siniflər, güləş zalı, kitabxana, Heydər Əliyev adına muzey, “Azərbaycan xalqına qarşı genosid” ekspozisiyası mövcuddur [164].

Buxara vilayətində 2 mindən çox azərbaycanlı yaşayır (2012-ci ilin statistikasına əsasən). 2004-cü ildə Buxara vilayətində də Azərbaycan Mədəniyyət Mərkəzi yaradılmışdır. Mərkəzlərin nəzdində hazırda bir neçə yaradıcılıq kollektivləri fəaliyyət göstərir. Bunlardan “Qardaşlıq” ansamblını, “Çənlibel” ansamblını və “Azəri” rəqs ansamblını misal göstərmək olar. Bu kollektivlər tək Azərbaycan musiqisini deyil, həmçinin dünya xalqlarının musiqilərini də ifa edirlər. Həmin yaradıcılıq kollektivləri Özbəkistanda keçirilən bütün festival və bayramlarda fəal iştirak edirlər. 2004-cü ildə Özbəkistandakı Azərbaycan diasporunun və Özbəkistanın Respublika Beynəlmiləl Mədəniyyət Mərkəzinin dəstəyi ilə “Dostluq evi” açılmışdır. Burada Özbəkistanın əməkdar artisti K.Əliyevanın rəhbərliyi altında “Azəri qızları” və “Bülbüllər” xalq yaradıcılığı kollektivləri öz məşqlərini aparırlar. Həmin bu kollektivlər 2003 və 2005-ci ildə keçirilmiş “Özbəkistan – bizim ümumi evimiz” adlı dostluq və mədəniyyət festivalının laureatlarıdır. Respublikanın mədəni həyatında uzun illər ərzində fəal iştirak edən Özbəkistan azərbaycanlıları arasında ən məşhurları Ə.Nəvai adına DABT-ın baş rejissoru, Özbəkistan və Azərbaycanın xalq artisti F.Səfərovu, həmçinin yazıçı A.Nəcəfov, Özbəkistan Respublikası Rəssamlar Akademiyasının rəssamı Y.Hüseynov, Özbəkistanın xalq artisti N.Abdullayeva, Özbəkistanın əməkdar artisti K.Əliyeva, Daşkənd Yüngül və Tikiş Sənayesi Toxuculuq İnstitutunun professoru F.Vəliyev və digərlərinin adlarını

çəkmək olar.

Özbəkistan Respublikasında fəaliyyət göstərən Azərbaycan diasporunun dəstəyi ilə Azərbaycan Respublikasının bütün dövlət bayramları, milli və dini bayramları (Novruz bayramı, Ramazan bayramı) yüksək səviyyədə keçirilir. Bununla yanaşı xalqımızın tarixinə qara hərflərlə yazılmış 31 mart soyqırımının, 20 yanvar faciəsinin, Xocalı soyqırımının anım günləri xüsusi tədbirlərlə yad olunur. Görkəmli ictimai-siyasi xadimlərin yubiley tədbirləri də müntəzəm şəkildə qeyd olunur. Assosiasiyasının təşəbbüsü ilə bu tədbirlər silsilə şəklində Daşkənd şəhərində eləcə də Səmərqənd, Buxara, Fərqanə, Almalıq, Sırdərya, Nəvai vilayətlərində də qeyd olunur.

Səmərqənddə, o cümlədən bütün Özbəkistanda adı hörmətlə yad edilən azərbaycanlılardan biri Məqsud Şeyxzadədir. Məqsud Şeyxzadə Özbəkistan ədəbiyyatının, elminin məşhur filosof şairi, dramaturqu, ustad tərcüməçisi, böyük alimi, görkəmli pedaqoqu, dilçisi, tənqidçisi, folklorşünası və ədəbiyyatşünası olmuşdur. O Özbək xalqı onu öz balası kimi bağrına basmış, şöhrətləndirmişdir. Məqsud Şeyxzadə elə bir həyat, elə bir ömür yaşamışdır ki, bu tale iki qardaş xalqın yüzilliklər boyu ədəbi əlaqələr tarixinin canlı varisi, mənəvi körpüsü olmuşdur.

Görkəmli özbək ədəbiyyatşünası və ədibi Azad Şərafəddinov müstəqillik illərində qələmə aldığı ədəbi qeydlərini və elmi mülahizələrini – məqalələrini ölümündən bir il əvvəl – 2004-cü ildə nəşr etdirdiyi "İcodni anqlaş baxti" adlı 600 səhifəlik kitabına toplamışdı. 1956-cı ildə bəraət alsalar da, 1991-ci il – milli müstəqillik illərinəcən adlarının belə çəkilməsi yasaq olan Əbdülhəmid Çolpana, Əbdürrauf Fitrətə, 20-30-cu illər cədid ədəbiyyatına – hər birinə 90-100 səhifə həsr olunmuşdur. Bu sırada müəllif Məqsud Şeyxzadəyə də xüsusi səhifələr ayırmışdır – kitabda Sovet ideologiyası ilə fikirləri uyğun gəlməyən görkəmli ədiblərin yaradıcı talelərindən yazılır. Azad Şərafəddinov bu kitabında Məqsud Şeyxzadəyə həsr etdiyi məqaləsini belə adlanır "Ədəbiyyatımızın fədaisi". Yeri gəlmişkən, qeyd edim ki, Çolpan, Fitrət, Abdulla Qədiri 1991-ci ildə

Özbəkistan Prezidenti İslam Kərimovun fərmanı ilə Özbəkistanın ən ali mükafatına – Nəvai adına Dövlət mükafatına layiq görülmüşdülər. İslam Kərimovun fərmanı ilə M.Şeyxzadənin yubileyi günlərində "Böyük xidmətlərə görə" ordeni ilə təltif olunması onun əsərlərinə və şəxsiyyətinə verilən böyük qiymətdir [181].

Məqsud Şeyxzadənin elmi yaradıcılığı, xüsusən, nəvaişünaslıq elminin inkişafındakı böyük xidmətləri haqqında tədqiqatımızın əvvəlki bölmələrində yeri gəldikcə dönə-dönə qeyd etmişdik. Ancaq onun bir ədəbiyyatşünas kimi çoxşaxəli fəaliyyətinin Azərbaycan-özbək ədəbi-elmi əlaqələrinin inkişafına birbaşa əlaqədar bir cəhətin üzərindən sükutla keçmək mümkün deyil. Bu da ondan ibarətdir ki, Məqsud Şeyxzadə öz elmi məqalə və tədqiqatlarında həmişə özbək elmi-ədəbi mühitinə Azərbaycan ədəbiyyatşünaslığının təsirinə ayrıca diqqət yetirmiş, onun uğurlarının Özbəkistanda təbliğinə xüsusilə maraq göstərmişdir. Məsələn, özbək ədəbiyyatşünaslığında, xüsusən Lütfi, Nəvai, Babur, Məşrəb, Agahı kimi özbək klassiklərinin yaradıcılığı ilə bağlı tədqiqatlarda klassik Şərq poetikasına aid istinadların ön plana çəkilməsi, qəzəlin poetik xüsusiyyətlərinin təhlilində orta əsrlər Şərq ədəbiyyatşünaslığına məxsus bədii təsvir vasitələrinə (təşbeh, istiarə, mübaliğə, eyham, təzad və s.) üstünlük verilməsi özündən sonrakı tədqiqatçılara Məqsud Şeyxzadənin təsiri, Məqsud Şeyxzadənin özünə isə görkəmli Azərbaycan ədəbiyyatşünası və nəzəriyyəçisi, professor Mir Cəlal Paşayevin təsiri kimi diqqəti cəlb edir. Belə ki, Şərqdə qədimdən xüsusi poetika elminin mövcudluğuna və klassik şeiriyyəti bu elmin prinsip və qaydaları ilə tədqiq etməyin vacibliyinə ilk dəfə Mir Cəlal Paşayev özünün məşhur "Füzuli sənətkarlığı" adlı monoqrafiyasında diqqəti yönəltmiş, Məqsud Şeyxzadə isə Nəvai haqqında məqalələrində, o cümlədən, "Ustadın icadxanasında", "Qəzəl mülkünün sultanı" adlı tədqiqatlarında Mir Cəlal Paşayevdən sitatlar, iqtibaslar gətirərək, bu yeni elmi-nəzəri yanaşma üsulunu özbək ədəbiyyatşünaslarının diqqətinə çatdırmışdır. Sonralar Özbəkistanda "poetik sənətlərə"

maraq birdən-birə güclənib, hətta Azərbaycandan fərqli olaraq, ilk farsdilli orta əsr mənbələri özbəkcəyə tərcümə olunmuşdur. Daşkənddə nəşr olunsa da, bu sahədə ciddi uğur qazanan özbək ədəbiyyatşünasları və nəvaişünasları (Ə.Həyitmətov, Ə.Qəyyumov, Y.İshaqov, B.Rəhmanov, Ə.Əbdülqafurov, S.Qəniyeva və başqaları) bu və ya digər şəkildə (birbaşa və ya dolayısıyla) Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı"ndan bəhrələnmişlər. İndiyə qədər tədqiqatçıların nəzərindən təəssüf ki, kənarda qalan bu və ya buna bənzər faktlar xalqlarımız arasında ədəbi əlaqə və ədəbi təsirin yeni, özünəməxsus bir təzahür formasını üzə çıxarmağa imkan verir. Öz çoxşaxəli yaradıcılığı ilə bu ədəbi-mədəni, tarixi-mənəvi əlaqələrin möhtəşəm körpüsü olan Məqsud Şeyxzadə isə haqlı olaraq türk dünyasının birlik, qardaşlıq və dostluq rəmzlərindən biri kimi qiymətləndirilir.

Əsərlərinin çoxu tanınmış şairlərimiz tərəfindən doğma Azərbaycan dilinə çevrildi, tədqiqat obyekti oldu. Unudulmaz şairimiz Xəlil Rza Ulutürkün araşdırmalarının nəticəsi olan "Maqsud Şeyxzadə yaradıcılığı" adlı monoqrafiyası ədəbiyyatşünaslığımızın dəyərli bir səhifəsidir. O, görkəmli ədibin ədəbi irsinin ən dəyərli nümunələrini ana dilimizə tərcümə etmişdir. Özbək ədəbiyyatşünasları onu dönə-dönə tədqiq etmişlər və bu gündə etməkdədirlər. Özbəkistanın ədəbiyyatşünas alimi İbrahim Qafurov qeyd edir ki, ədəbiyyatı sevdiyim ilk günlərdən başlayaraq mən M.Şeyxzadə yaradıcılığının vurğunu olmuşam". Bu məhəbbət sonralar alimin "Yoldaş şair" adlı kitabının ərsəyə gəlməsinə səbəb olmuşdur. Sonra isə şairin yaradıcılığına həsr edilmiş namizədlik dissertasiyası mövzusunda öz əksini tapmışdır. İ.Qafurov yazır ki, onun haqqında yenə də danışmağa sözüm var, onu kiçik bir kitabda, adi namizədlik dissertasiyasında təhlil etmək, öyrənmək azdır. Çünki, o özbək klassik ədəbiyyatının davamlı sütunlarından biridir. M.Şeyxzadə təkcə şeir, poema, pyes və məqalələrində deyil, bütün yaradıcılığında iki xalqın adından cəsarətlə danışmışdır. O, özbək klassik ədəbiyyatını öyrənmiş, tədqiq etmiş, özbək ədəbiyyatı tarixini, ədəbiyyatşünaslıq nəzəriyyəsini təkmilləşdirmiş, onu yeni-yeni

elmi axtarışlarla zənginləşdirmişdir. Cığatay klassik ədəbiyyatının banisi Nəvai irsini ilk tədqiq edənlərdən biri M.Şeyxzadə olmuşdur. Nəvaişünaslar M.Şeyxzadəni özlərinə ustad hesab etmişlər. Onun elmi əsərləri dərin təhlili, sanballılığı ilə fərqlənir. M.Şeyxzadənin altıcildlik "Seçilmiş əsərləri"nin bir kitabı Nəvaiyə həsr edilmişdir" [179].

Doğma vətənində də Məqsud Şeyxzadənin xatirəsi həmişə hörmətlə yad olunur. Ağdaş rayon mədəniyyət evində Məqsud Şeyxzadə adına muzey yaradılmışdır. Ağdaşda Məqsud Şeyxzadə adına internat məktəbi fəaliyyət göstərir. Bu təhsil ocağında 399 şagirdin təlim-tərbiyəsi ilə 73 müəllim məşğul olur. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun dəstəyi ilə məktəbdə yenidənqurma və əsaslı təmir işlərinə başlanılmışdır [180].

Azərbaycan diasporunun dəstəyi ilə Məqsud Şeyxzadənin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər Özbəkistanın bir sıra məktəb və universitetlərində tanınmış incəsənət xadimləri, ədib şairlərinin iştirakı ilə təşkil edilmişdir [181].

Azərbaycan Diasporu tərəfindən Azərbaycan-Özbəkistan mədəni əlaqələrinin genişlənməsi istiqamətində həyata keçirilən növbəti tədbirlərdən biri də Özbəkistan Respublikasında yaşayıb fəaliyyət göstərən, Yazıçılar İttifaqının üzvü "Mənim ömrüm" və bir neçə digər şeir kitablarının müəllifi, görkəmli şair İxtiyar Rzanın 75 illik təntənəli yubiley mərasimi olmuşdur [165]. Bu tədbir Özbəkistan dövlət televiziyasında geniş işıqlandırılmışdır.

2013-cü ilin fevralın 10-da Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetində Azərbaycanın görkəmli dramaturqu, şairi və ictimai xadimi olan Hüseyn Cavidin 130 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir. Tədbirdə Azərbaycanın Özbəkistandakı səfirliyinin, eyni zamanda Azərbaycan diasporunun qabaqcıl nümayəndələri yaxından iştirak etmişlər. Tədbirdə H.Cavid irsinin Özbəkistanda təbliği məqsədi ilə təşkil olunmuş müsabiqənin "H.Cavidin ən yaxşı portreti", "H.Cavidin yaradıcılığı haqqında ən yaxşı elmi məruzə", "H.Cavidin şer-

lərini ən yaxşı deyən" və sair nominasiyalar üzrə qaliblər mükafatlandırılmışdır [167].

Bütün bu tədbirlər əslində Özbəkistanda Azərbaycan Diasporunun fəaliyyətinin güclənməsinin və Azərbaycan həqiqətlərinin yayılması kimi mühüm məqamların həyata keçirilməsinin tərkib hissəsidir. Bir sıra tədqiqatçılar bayramların, hüzn günlərinin, yubileylərin keçirilməsini diasporun fəaliyyətində yüksək qiymətləndirmirlər və hesab edirlər ki, bu qəbildən olan tədbirlər o qədər də əhəmiyyətli deyil. Lakin qeyd etmək lazımdır ki, bu tədbirlər diasporun qarşısında olan bütün məsələləri həll etməsə də, Azərbaycan mədəniyyətinin, eyni zamanda xalqımızın bir nömrəli problemi olan Dağlıq Qarabağ problemi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından böyük əhəmiyyətə malikdir. Belə ki, bu tədbirlərdə Özbəkistanda yaşayan azərbaycanlılar ilə birlikdə Özbəkistanın tanınmış incəsənət ustaları, ədib və şairləri, dövlət xadimləri, diaspora üzvləri, eyni zamanda dövlət və hökumət rəsmiləri də iştirak edirlər. Bu tədbirlərdə iştirak edən özbək xalqının nümayəndələri Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafında və Azərbaycan həqiqətlərinin düzgün işıqlandırılmasında öz töhfələrini verməkdədirlər.

Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatlarının birinci forumu eləcə də Türk Dövlət və Cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan və türk diaspor təşkilatları bundan sonra bütün güclərini səfərbər edərək, birgə fəaliyyət göstərmələrinin vacibliyi dəfələrlə vurğulanmışdır. Bu tövsiyələri nəzərə alan Özbəkistan Respublikasındakı Azərbaycan diasporunun nümayəndələri Özbəkistandakı Türk diaspor təşkilatları ilə birgə fəaliyyət göstərmək istiqamətində səylərini artırmışlar. Azərbaycan diasporunun təşkil etdiyi demək olar ki, bütün tədbirlərdə türklərin iştirakı çox maraqla qarşılanır və hətta bəzi tədbirləri, aksiyaları onlar birlikdə təşkil edirlər. Xüsusilə Xocalı faciəsi ilə bağlı təbliğat-təşviqat xarakterli tədbirlərdə, aksiyalarda bu həmrəylik, iş birliyi daha çox

nəzərə çarpır.

Azərbaycan Diasporu tərəfindən Şərqdə eləcə də Özbəkistanda çox oxunan və sevilən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xəmsə"si özbək dilinə tərcümə edilərək nəşr olunmuş və dahi mütəfəkkirin adını daşıyan Daşkənd Dövlət Pedaqoji Universitetinin kitabxanasına hədiyyə olunmuşdur [159].

Azərbaycan diasporunun təşəbbüsü ilə Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələri tez-tez Özbəkistanda keçirilən tədbirlərdə iştirak edirlər. Azərbaycan idman ustalarının, futbolçularının, güləşçilərinin, valeybolçu qızlarının, boksçularının yarışları, yoldaşlıq görüşləri təşkil edilmiş və onlar böyük qayğı ilə əhatə olunmuşlar.

1996-2004-cü illərdə Azərbaycan Respublikasının Özbəkistan Respublikasında ilk Fövqəladə və Səlahiyyətli səfiri olmuş Aydın Əzimovun da Özbəkistanda fəaliyyət göstərən Azərbaycan diasporuna böyük dəstəyi olmuşdur. Aydın Əzimov hələ uşaq ikən 1937-ci ildə ailəsi ilə birlikdə Naxçıvandan Qazaxıstana sürgün olunmuş yüzlərlə azərbaycanlıdan biridir. 1947-ci ildə bəraət alan Əzimovlar ailəsi Özbəkistanda yaşayan qohumlarının yanına köçmüşlər. Aydın Əzimov Özbəkistanda yaşayan Azərbaycan Diasporunun ən ziyalı, vətənpərvər üzvlərindən biri olmaqla həm də, öz gərgin zəhməti hesabına bu cəmiyyətdə addım-addım irəliləməyi bacaran görkəmli dövlət xadiminə çevrilmişdir. Mərkəzi Asiya Respublikalarında yaşayan Azərbaycan diaspor nümayəndələrindən ilk dəfə məhz Aydın Əzimov nazir vəzifəsinə qədər yüksələ bilmişdir. Belə ki, o, 1986-1988-ci illərdə Özbəkistan SSR avtomobil nəqliyyatı naziri vəzifəsində çalışmışdır [124, 145]. Aydın Əzimovun səfirliyi dövrü istər diasporun fəaliyyətinə, istərsə də iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafına böyük töhfə vermişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin martında Daşkəndə etdiyi dövlət səfəri Azərbaycanla Özbəkistan arasında siyasi, iqtisadi, mədəni, humanitar və başqa əlaqələrin inkişafına yeni təkan

olmuşdur. Həmçinin qeyd etmək lazımdır ki, regional təhlükəsizlik və sabitlik məsələlərində Azərbaycanla Özbəkistan oxşar mövqe və yanaşma tuturlar. Hər iki ölkə beynəlxalq terrorizm və dini ekstremizmin istənilən təzahür formalarını kəskin pisləyirlər. Hər iki dövlətin ikitərəfli əlaqələrin möhkəmləndirilməsində maraqlı olması beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıqda da öz əksini tapır.

Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında Qarabağ probleminin nizamlanması zərurətini MDB məkanında ilk bəyan edənlərdən biri Özbəkistan Respublikasının Prezidenti İ.A.Kərimov olmuşdur.

Özbəkistanda fəaliyyət göstərən Azərbaycan diasporunun nümayəndəsi olmasa da öz vətənpərvərlik fəaliyyəti sayəsində əslində Azərbaycan diasporunun işinə böyük dəstək vermiş azərbaycanlılardan biri AzərTac-ın Mərkəzi Asiya ölkələri üzrə müxbiri olan Qulu Kəngərlidir. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin Özbəkistan respublikasında, o cümlədən bütün Mərkəzi Asiya respublikalarında təbliğində Qulu Kəngərlinin böyük xidmətləri var. Sabir Rüstəmxanlının “Göy tanrı”, Anarın “Qırmızı limuzin”, İlqar Fəhmelin “Aktrisa”, Hidayət Orucovun “Dağların mahnısı”, Yunus Oğuzun “Əmir Teymur” və sair kimi Azərbaycan ədəbiyyatının maraqlı nümunələrini rus və özbək dillərinə tərcümə etdirərək Özbəkistan respublikasının bir sıra kitabxanalarına paylamışdır. Qulu Kəngərlinin bir xidmətini də xüsusi olaraq vurğulamaq lazımdır. Özbəkistanın ən böyük tirajla nəşr olunan “Daraqçı” qəzetinin baş müxbiri olan Rüstəm Cabbarov adlı bir jurnalistin Azərbaycan dilinə olan böyük marağını yüksək qiymətləndirən Qulu müəllimin şəxsən özü ona Azərbaycan dilini öyrətmişdi. Nəticədə yuxarıda adlarını qeyd etdiyimiz kitabların bir neçəsini özbək dilinə məhz Rüstəm Cabbarov tərcümə etmişdir. “Daraqçı” qəzetində tez-tez Azərbaycanla bağlı yazıların yer almasında da R.Cabbarovun xidməti böyükdür. Kəngərlinin və Rüstəm Cabbarovun gərgin fəaliyyəti nəticəsində ərsəyə gələn sonuncu kitab 2014-cü ildə nəşr olunmuş “Ömürdən uzun gecə” adlanır. Bu kitab da Azərbaycan

ədəbiyyatının, mədəniyyətinin təbliğinə yönəlmişdir. Bir peşəkar və vətənpərvər jurnalist kimi göstərdiyi xidmətlərə görə Qulu Kəngərli 2010-cu ildə “Tərəqqi” medalı ilə təltif olunmuşdur. 2010-cu ildə Özbəkistan haqqında ən yaxşı materiallar silsiləsinə görə “Altun Qələm” V beynəlxalq müsabiqənin laureatı olmuşdur. Dissertasiyanın tədqiqində Qulu Kəngərlinin müəllifi olduğu xeyli sayda məqalələrdən geniş surətdə istifadə olunmuşdur.

Əsası 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri zamanı qoyulan Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi də Özbəkistanda Azərbaycan diasporunun fəaliyyətinə böyük dəstək verməkdə davam edir. Bu mərkəzin açılışı 2004-cü ilin mart ayında, Novruz bayramı günlərinə təsadüf edirdi. Həmin açılış mərasimində çıxış edən Özbəkistanın baş naziri Şavkat Mirziyayev diasporumuz haqqında demişdir: “Daşkənddə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışının iştirakçısı kimi şəxsən mən özüm böyük qürur və fərəh hissləri keçirdirəm. Azərbaycan diasporunun ayrı-ayrı nümayəndələri ilə olan görüşlərimiz “Azərbaycan Evi” ilə yaxından tanışlıq məndə belə bir qənaət yaratdı ki, Mərkəzi Asiyanın ən qədim və zəngin ölkələrindən olan Özbəkistanda Azərbaycan diasporunun təşkilatlanması və fəaliyyəti yeni mərhələyə qədəm qoymuşdur. Bu çox sevindiricidir, gələcək uğurlar üçün etibarlı zəmindir” [65, 5]. Bu səfəri zamanı Prezident İlham Əliyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin büstünün açılış mərasimində də iştirak etmişdir.

2010-cu il sentyabrın 27-də Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin binasının əsaslı təmir və bərpadan sonra açılışı olmuşdur. Bu təşkilatın binası paytaxt Daşkəndin ən yaraşıqlı küçələrindən biri olan “Heydər Əliyev küçəsində” yerləşir.

Mərkəzin açılışı münasibətilə soydaşlarımızı təbrik edən Prezident İlham Əliyev çıxış etdi: “Bu mərkəz, əslində, Özbəkistan-Azərbaycan dostluğunun təcəssümüdür. Bu mərkəzdə,

eyni zamanda, Özbəkistan-Azərbaycan dostluğu muzeyi də fəaliyyət göstərir. Bu mərkəz Ulu öndər Heydər Əliyevin adını daşıyır. Bu da çox əlamətdar haldır. Çünki Ulu öndər Heydər Əliyev bütün dövrlərdə Azərbaycan ilə Özbəkistan arasındakı əlaqələrin inkişafı üçün böyük səylər göstərmişdir. Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu, həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov – iki ölkənin liderləri ikitərəfli münasibətlərin bax, bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar. Əslində bizim dostluğumuzun böyük tarixi kökləri vardır. Ancaq müstəqil ölkələr kimi, Özbəkistan və Azərbaycan son illər bu əməkdaşlığı yüksək səviyyəyə qaldırmışlar" [102]. Daha sonra Prezident İlham Əliyev mədəniyyət mərkəzinin sərgi salonunda Səmərqənddə yaşamış mərhum azərbaycanlı heykəltəraş Eynulla Əliyevin əsərlərindən ibarət sərgiyə baxdı.

Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi iki dost ölkə – Azərbaycan və Özbəkistan arasında mədəni əlaqələri daha da möhkəmləndirmək, mədəniyyət və turizm sahəsində əməkdaşlıq əlaqələrini inkişaf etdirmək, habelə Azərbaycanın mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğatı işləri həyata keçirir. Mərkəzin həyata keçirdiyi əsas işlərdən biri fəaliyyət göstərdiyi dövlətdə Azərbaycan dilinin tədrisi və təbliğinə yardım etmək, mədəniyyətin müxtəlif sahələri – rəsm, musiqi, rəqs və incəsənətin müxtəlif sahələri üzrə istedadların üzə çıxarılması, onların stimullaşdırılması, bu sahədə kursların təşkili və onların yaradıcılıqlarına dəstək verməkdən ibarətdir.

Mərkəz Özbəkistanda yaşayan azərbaycanlılarla mədəni əlaqələrin qurulmasına və əməkdaşlığın inkişafına yardım göstərir. Mədəniyyət Mərkəzinə müraciət edən istənilən şəxs Mərkəzin kitabxanasında mövcud olan kitab, qəzet, jurnal və elektron nəşrlərdən istifadə edə bilir. Mədəniyyət Mərkəzində 3 muzey (Azərbaycan-Özbəkistan Dostluq Muzeyi, Heydər Əliyev

Muzeyi, Azərbaycan dövlətçiliyi və tarixi muzeyi), kitabxana və müxtəlif dərnəklər fəaliyyət göstərir [164]. Mərkəzin nəzdində "Azərbaycan qızları" rəqs ansamblı və "Azərbaycanım" musiqi qrupu yaradılmışdır. Mərkəzdə kitabxana da fəaliyyət göstərir. Bu təşkilatın təşəbbüsü və fəaliyyəti nəticəsində Özbəkistan respublikasının bir sıra şəhərlərində Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə tez-tez tədbirlər təşkil edilir.

Özbəkistanda Azərbaycanlıların Mədəniyyət Mərkəzləri Assosiasiyası 2003-cü ilin oktyabr ayından fəaliyyət göstərir. 2003-2010-cu illərdə təşkilatın adı "Azərbaycanlıların Mədəniyyət Mərkəzləri Assosiasiyası" 2010-cu ildən sonra isə təşkilatın adı dəyişdirilərək "Azərbaycanlıların Milli Mədəniyyət Mərkəzi" formasında rəsmiləşdirilmişdir. Bu təşkilatın Daşkənd, Səmərqənd, Buxara, Xivə, Nəvai və digər şəhərlərində filialları fəaliyyət göstərir [102].

2003-cü ildən Buxara və Nəvai şəhərində fəaliyyət göstərən filiallar bu gün də işlərini uğurla davam etdirirlər. Daşkənd şəhərindəki filial 2007-ci ildə qeydiyyatdan keçmişdir. Azərbaycanlıların Milli Mədəniyyət Mərkəzinin nəzdində 2010-cu ildən Ağsaqqallar Şurası, Qadınlar Şurası, Gənclər mərkəzi də fəaliyyətə başlamışdır [102]. Ağsaqqallar şurası əsasən Özbəkistan Respublikasında yaşayan yaşlı həmvətənlərimizi öz ətrafında birləşdirmişdir. Bu şuranın həmvətənlərimiz arasında adət-ənənələrimizin qorunub saxlanılmasında özünəməxsus yeri var. Gənclər şurası tez-tez müxtəlif mövzuları əhatə edən diskussiyalar təşkil edir, tədbirlər keçirirlər. Məlumdur ki, Azərbaycan diasporunun gələcəyi bilavasitə onun gənc nümayəndələrinin yetişməsi ilə bağlıdır. Bu baxımdan Gənclər şurasının fəaliyyətinin daha məqsədyönlü, dinamik inkişafı Azərbaycan diasporunun qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Azərbaycanlıların Milli Mədəniyyət Mərkəzinin idarə heyətinin və rəhbərliyinin 26 mart 2014-cü il tarixində keçirilən iclasında kitabın müəllifi də iştirak etmişdir. Bu seçkidə iştirak etdiyi üçün seçki prosesinin şəffaflığının bilavasitə şahidi oldu.

Son illər Özbəkistanla Azərbaycan arasında əlaqələrin dinamikası və müasir vəziyyətinin təhlili belə bir fikir yürütməyə əsas verir ki, ümumiyyətlə, ikitərəfli əlaqələr qarşılıqlı əməkdaşlığın bütün sahələrində müsbət istiqamətdə inkişaf edir.

Yuxarıda qeyd etdiyimiz bütün bu uğurlarla yanaşı digər Mərkəzi Asiya Respublikalarında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarında olduğu kimi, Özbəkistan respublikasında fəaliyyət göstərən diaspor təşkilatlarının da bir sıra problemləri var. Bu problemlərin bir hissəsi maddi təminatın yetərincə olmaması ilə bağlıdır. Belə ki, buradakı azərbaycanlı iş adamları hələ də diaspor təşkilatlarının işinə lazımı səviyyədə dəstək vermirlər. Problemlərin digər qismi diasporun sıralarına yetərincə savadlı, ziyalı gənclərin toplanmamasıdır. Təbii ki, bu problemlərin bir çoxu hətta bu gün dünyada mövqeyi olan diasporlarda belə vaxtilə yaşanmışdır. Bizim diaspor təşkilatlarımızın təşkilatlanma tarixi çox yaxın dövrü əhatə etdiyi üçün bu problemlər hələ də tam öz həllini tapmamışdır.

Cədvəl 2.5 (102)

**Özbəkistan Respublikasının ayrı-ayrı vilayətlərində yaşayan azərbaycanlıların sayı**

| **Özbəkistan Respublikasında yaşayan azərbaycanlıların ümumi sayı** | **41085** |
|---|---|
| Qaraqalpaq Respublikası | 318 |
| Əndican | 1523 |
| Buxara | 2116 |
| Jizzax | 1055 |
| Qaşqadərya | 3055 |
| Nəvai | 4330 |
| Namanqan | 705 |
| Səmərqənd | 4809 |
| Surxandərya | 969 |
| Sırdərya | 2861 |
| Daşkənd | 5944 |
| Fərqanə | 1621 |
| Xarəzm | 340 |
| Daşkənd | 11439 |

## 2.4. Qırğızıstan Respublikasında Azərbaycan diasporunun fəaliyyəti

Azərbaycanlıların Mərkəzi Asiyada sıx məskunlaşdığı respublikalardan biri də Qırğızıstan Respublikasıdır. Qırğızıstan Respublikasının ərazisi 198.500 kv.km Tanrı dağları ölkənin 80%-ni əhatə etdiyi üçün ölkəni bəzən "Mərkəzi Asiyanın İsveçrəsi" adlandırırlar. Tanrı dağlarından şimal-qərbində yerləşən və ölkənin ən böyük gölü olan İssıkkul gölü Titikakadan sonra dünyanın ən hündür dağ gölüdür. Qırğızıstan kənd təsərrüfatı ölkəsi olsa da yeraltı və yerüstü sərvətləri ilə zəngindir. Ölkədə iqtisadiyyatın əsasını heyvandarlıq və əkinçilik təşkil edir.

2013-cü il tarixinə olan rəsmi məlumata əsasən Qırğızıstan Respublikasının əhalisi 5663.1 min nəfərdir. SSRİ-dən digər sovet respublikaları kimi Qırğızıstan Respublikasına da çoxmillətlilik miras qalmışdır. Ölkədə qırğızlardan başqa ruslar, özbəklər, almanlar, tatarlar, ukraynalılar, uyğurlar, qazaxlar, dunqanlar və taciklər yaşayırlar. Qırğızıstanda azərbaycanlıların sayı 18046 nəfərdir (1 yanvar 2013-cü ilin statistik məlumatına əsasən). Onu da qeyd edək ki, 1926-cı ildə azərbaycanlılar və ahıska türkləri sadəcə türk olaraq qeydə alındıqlarından soydaşlarımızın dəqiq sayını müəyyən etmək çətinlik yaradır. Qırğızıstan Respublikası Azərbaycan Respublikasının istər keçmiş SSRİ daxilində, istərsə də MDB məkanında ən sıx əlaqə saxladığı ölkələrdən biridir.

1992-ci ilin iyun ayında Qırğızıstanda baş verən zəlzələ bütün ölkələrin əhalisini, o cümlədən Azərbaycan xalqını sarsıtdı. Erməni işğalçılarına qarşı vuruşan xalqımız qırğız xalqının qarşılaşdığı təbii fəlakətin aradan qaldırılması üçün həmrəylik göstərdi. On minlərlə evsiz eşiksiz qalmış qırğızıstanlıya başqa ölkələr kimi, Azərbaycan da öz imkanı daxilində kömək əlini uzatdı [62, 115].

Dağlıq-Qarabağ problemi tarixinə Bişkek protokolu” adı ilə düşmüş atəşkəs razılaşması 1994-cü il mayın 12-də məhz Qırğızıstanın paytaxtı Bişkekdə MDB dövlətləri Parlamentlərarası Assambleyasının keçirdiyi iclasda imzalandı. Bu, indiyədək bənzər münaqişələr tarixində mövcud olmuş ən uzunmüddətli atəşkəs razılaşmasıdır. Hərçənd bu illər ərzində cəbhə xəttində tam olaraq atəşin kəsilməsindən söhbət gedə bilməz. Bu illərdə atəşkəs rejimi nisbi xarakter daşıyıb, son dövrlərdə Ermənistan və Azərbaycan qoşun hissələrinin təmas xətlərində atışma faktlarının artması isə Qarabağ müharibəsinin bitmədiyinin, sadəcə, savaşın dayandığının aydın ifadəsidir. Azərbaycan atəşkəs razılaşmasından dörd ay sonra özünün ən nəhəng iqtisadi layihəsini – “Əsrin müqaviləsi”ni imzaladı. Ölkə tədricən sabit iqtisadi inkişaf yoluna çıxdı, ordu quruculuğu yeni əsasda təşəkkül tapdı. Bu gün Azərbaycanın dövlət büdcəsi (o cümlədən hərbi xərclər) Ermənistanın büdcəsinin dörd qatı qədərdir. Qarabağ münaqişəsi ətrafında beynəlxalq situasiya indi daha tarazlıdır, Azərbaycanın haqlı mövqeyini ümumən ehtiva edir. Təbii ki, bütün bunlar nəticədə Qarabağ münaqişəsinin ədalətli həllinə töhfə verəcək faktorlardır. Bu işdə Azərbaycan diasporunun da müəyyən rolu var.

Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərində “Azəri Mədəniyyət Mərkəzi” adlı Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərir. 1992-ci ilin sonlarında yaranan bu təşkilat bu gün də öz fəaliyyətini uğurla davam etdirir [79].

1994-cü ildə Qırğızıstanda yeni bir mədəniyyət mərkəzi - “Xəzər” yaradılmışdır. Qırğızıstanda yaşayan bütün tanınmış azərbaycanlılar bu mərkəzin ətrafında sıx birləşmişdilər. Təşkilat mövcud olduğu illərdə Qırğızıstanda yaşayan soydaşlarımızın problemlərini aradan qaldırmaq, gənclərimizin təhsillə bağlı qayğılarını həll etmək istiqamətində xeyli işlər görmüşdü. Bu diaspor təşkilatının rəhbəri Əsəd Həsənov sözün həqiqi mənasında vətənpərvər ziyalıdır. Qırğızıstanın fəxri inşaatçısı, Böyük Vətən müharibəsinin veteranı Ə.Həsənov özünün “Qırğızıstanda Azərbaycanlılar” adlı əsərində 1930-cu illərin repres-

siyası nəticəsində Qırğızıstana sürgün olunmuş azərbaycanlılar haqda qiymətli materiallar işıqlandırmışdır. (Əsəd Həsənov 1933-cü ildə ailəsi ilə birlikdə Azərbaycanın Salyan rayonunun Qarabağlı kəndindən Qazaxıstanın Akmolinski vilayətinin Şortanı dəmiryol stansiyasına sürgün olunmuş azərbaycanlılardan biridir. 1934-cü ildə isə onları Qırğızıstana sürgün etmişlər). 2002-ci ildə bu təşkilat öz fəaliyyətini dayandırdı, daha doğrusu "Azəri Mədəniyyət Mərkəzi" adlı Azərbaycan diaspor təşkilatına birləşdi. Belə ki, hər iki təşkilatın nümayəndələri eyni məqsəd və eyni amal uğrunda (Qırğızıstanda Azərbaycanlıların haqlarının qorunması, onlara lazımı hüquqi, mənəvi və hətta bəzən maddi yardımların edilməsi və s.) çalışdıqları üçün onların ayrı-ayrı təşkilatlar halında deyil, bir təşkilatda birlikdə fəaliyyət göstərməyi daha məqsədə uyğun hesab etdilər. Bu diaspor təşkilatının rəhbəri Qırğızıstanın Əməkdar hüquqşünası Əzizağa Əliyev XX əsrin 30-cu illərində Qazaxıstanın Cambul vilayətinin Çu rayonunda Yeni Yol kəndinə sürgün olunan soydaşlarımızın övladlarından biridir. Onun anası burada ağır şəraitdə, fədakarcasına əməklə məşğul olduqları üçün "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüş 11 azərbaycanlıdan biridir [148, 42].

Qırğızıstanda yaşayan və uğurlu fəaliyyəti ilə həmvətənlərinə dayaq, arxa olan Azərbaycan diaspor nümayəndələrindən biri də Xəlilov Qiyas İsmayıl oğludur. Onun babası Hacı Xəlil bəyin ipək parça istehsal edən fabriki olmuşdur. 1932-ci ildə Xəlil bəyin bütün ailəsi Cənubi Qazaxıstana sürgün olunmuşdur. Sürgün həyatının çətinliklərinə və soyuq iqlimə dözə bilməyən bütün ailə həlak olmuşdur. Yalnız ailənin bir üzvü, 7 yaşlı İsmayıl sağ qalmışdır. Qiyas Xəlilov həmin İsmayılın oğludur. Bütün çətinliklərə baxmayaraq Qiyas Xəlilov 1974-cü ildə Leninqrad İqtisad İnstitutunu müvəffəqiyyətlə bitirir və tezliklə uğurlu elmi tədqiqatın nəticəsi olaraq "İqtisad elmləri namizədi" elmi dərəcəsini almışdır. 1994-cü ildə "Lina" mebel şirkətini təsis edir. Şirkət Qırğızıstanın mebel istehsalında özünəməxsus yer tutur. 2011-ci ildə "İlin ən yaxşı iş adamı", 2013-cü ildə

"İlin ən yaxşı iqtisadçısı" adlarına layiq görülmüşdür. Rəhbərlik etdiyi şirkətin işçi heyətində xeyli sayda azərbaycanlı fəaliyyət göstərir. Qiyas Xəlilov xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olur. Mustafa Kamal Atatürkün adını daşıyan beynəlxalq xeyriyyə fondu tərəfindən 2007-ci ildə qızıl medalla təltif olunmuşdur [136, 213]. Qiyas Xəlilov kimi həmvətənlərimiz nəinki Qırğızıstanda yaşayan azərbaycanlıların eyni zamanda bütün xalqımızın fəxridirlər.

Bişkekdə mövcud olan Azərbaycan diaspor təşkilatlarından biri də "Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu"dur. 2005-ci ildən Bişkekdə rəsmi şəkildə fəaliyyətə başlamışdır. Fondun fəaliyyətinin əsas istiqaməti türkdilli dövlətlərin liderlərinin müxtəlif ölkələrdə geniş təbliğatını təşkil etmək, xalqlarımız arasında birlik və əlaqələrin formalaşmasında dahi siyasətçilərin rolunu daha geniş auditoriyaya çatdırmaqdır [20, 416]. Fondun bu günə qədər gerçəkləşdirdiyi tədbirlər həm rəsmi, həm də ictimai dairələrdə böyük maraqla qarşılanmışdır. Bu fond Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının təbliği məqsədi ilə 40-dan çox kitabı qırğız və rus dillərinə tərcümə edərək, çap etdirmişdir. Bu kitablar ölkənin demək olar ki, bütün mərkəzi kitabxanalarına pulsuz şəkildə paylanmışdır. Bu kitablardan "Müasir Azərbaycan" (2008), Bəxtiyar Vahabzadənin "Bir gəminin yolçularıyıq" (2011), "Gülüstan" (2012), Kamal Abdullanın "Yarımçıq əlyazma" (2012), "Heydər Əliyevin Azərbaycan-Qırğızıstan əlaqələrinin inkişafında rolu" (2013) və başqalarını misal göstərmək olar.

Azərbaycan diasporu ilə həmrəy fəaliyyət göstərən "Türkell" təşkilatının mətbu orqanı olan "Altun körpü" jurnalının səhifələrində tez-tez Azərbaycan diasporunun fəaliyyətini əks etdirən yazılar yer alır. Türkçülüyün, ortaq dəyərlərimizin təbliğində əvəzsiz rol oynayan bu təşkilatın Mərkəzi Asiyadakı ofislərindən biri də Bişkek şəhərində yerləşir [149, 2].

Qazaxıstanda, Özbəkistanda, Tacikistanda və Qırğızıstanda fəaliyyət göstərən Azərbaycan səfirliklərinin nəzdində həmin ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporları ilə əmək-

daşlıq etmək məqsədi ilə xüsusi əməkdaşlar fəaliyyət göstərir. Bu əməkdaşlar həm Azərbaycan diasporunun, həm də digər diasporların səfirliyin təşəbbüsü ilə keçirilən tədbirlərdə iştirakını təmin edir, onların fəaliyyətinə dəstək verir.

2006-cı ildə Qırğızıstandakı ”Azəri” İctimai Birliyinin təşkilatçılığı ilə Bişkek şəhərinin Tarix muzeyində 31 Mart azərbaycanlıların soyqırımı günü ilə bağlı tədbir keçirilmişdir. Burada soyqırımın tarixi ilə bağlı ətraflı məlumat verilmiş, erməni vəhşiliklərini nümayiş etdirən faktlar diqqətə çatdırılmış və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərdən danışılmışdır. Mərasimdə Qırğızıstan respublikasında yaşayan azsaylı xalqların diaspor təşkilatlarının rəhbərləri də iştirak etmişlər [79].

2014-cü il martın 3-də Qırğızıstan Respublikasında fəaliyyət göstərən Azərbaycan Səfirliyinin və Azərbaycan diasporunun təşkilatçılığı və dəstəyi ilə Azərbaycanın Xalq yazıçısı Anarın Qırğızıstan ictimaiyyəti ilə görüşü təşkil olundu. Bu mötəbər tədbirdə Anarla birlikdə Azərbaycanın bir sıra hökumət nümayəndələri, ədibləri, xalq artistləri də iştirak edirdilər. Qırğız ictimaiyyəti və Azərbaycan diaspor nümayəndələri tərəfindən böyük maraqla qarşılanan tədbirdə Anarın çıxışı iştirakçıları xüsusilə təsirləndirdi. Anar çıxışına bu sözlərlə başladı: “Hazırda Qırğızıstanda 20 minə qədər azərbaycanlı yaşayır. Bunlar əsasən 30-cu illərdə sürgün olunanların ailə üzvləridir. Bunların arasında 11 dəfə repressiya olunmuş Rəfibəylilər nəslinin – anam Nigar xanımın nəslinin bir neçə üzvü var. Onlardan bəziləri zalda əyləşiblər. Qardaş qırğız xalqı onları öz doğmaları kimi qəbul edib, məhrəm münasibət göstəriblər. Mən fürsətdən istifadə edib hər kəsə təşəkkürümü bildirirəm” [79].

2003-cü ildən başlayaraq Qırğızıstanın Kant və Bişkek şəhərlərində Azərbaycan dilində “Bazar günü” məktəbləri fəaliyyət göstərir. 2004-cü ildə Kant şəhərində daha bir “Bazar günü” məktəbi açılmışdır. Lakin təəssüf ki, bu gün onların fəaliyyəti yüksək səviyyədə deyil.

2006-cı ildə Qırğızıstandakı ”Azəri” İctimai Birliyinin

təşkilatçılığı ilə Bişkek şəhərinin Tarix muzeyində 31 mart azərbaycanlıların soyqırımı günü ilə bağlı tədbir keçirmişdir [79]. Burada soyqırımın tarixi ilə bağlı ətraflı məlumat verilmiş, erməni vəhşiliklərini nümayiş etdirən faktlar diqqətə çatdırılmış və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərdən danışılmışdır. Mərasimdə Qırğızıstan respublikasında yaşayan azsaylı xalqların diaspor təşkilatlarının rəhbərləri ilə yanaşı Qırğızıstan ictimaiyyətinin qabaqcıl nümayəndələri də iştirak etmişlər. Qırğızıstanda "Xəzər" İctimai Birliyi, Qırğızıstan Azərbaycanlıları Konqresi, Qırğızıstan Azərbaycanlılarını Əlaqələndirmə Mərkəzi, Regional Milli Etnik Diaspor Əməkdaşlığı Şurası və "Qırğızıstan-Azərbaycan Gəncləri" İctimai Birliyi adlı diaspor təşkilatları da fəaliyyət göstərir.

Azərbaycanın görkəmli ziyalısı, dövlət xadimi Hidayət Orucovun 2012-ci ilin dekabr ayında Qırğızıstan Respublikasında Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri təyin olunmasından sonra bu ölkədə fəaliyyət göstərən Azərbaycan diasporunun işi nəzərə çarpacaq dərəcədə aktivləşmişdir. Belə ki, səfir Hidayət Orucov vəzifəsinin icrasına başladığı vaxtdan Azərbaycan diaspor nümayəndələri ilə tez-tez görüşür, onların problemləri ilə maraqlanır və lazımı köməklik göstərir. Məhz 2013-cü ildən başlayacaq Azərbaycan Respublikasının Qırğızıstandakı səfirliyinin dəstəyi və Azərbaycan diasporunun təşkilatçılığı ilə il boyu milli və dövlət bayramlarımız, eyni zamanda hüzn günlərimiz daha maraqlı və diqqətə layiq şəkildə qeyd olunur.

2013-cü ildə fevralın 11-də Bişkek şəhərində Azərbaycanın Qırğızıstandakı səfiri, Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu (TDSDF) ilə birgə Qırğız-Türk Manas Universitetində "Bakı film" kinostudiyasının istehsalı olan "Xoca" bədii filminin təqdimat mərasimini keçirmişdir. Rejissor Vahid Mustafayevin çəkdiyi "Xoca" filmi qırğız dilinə dublyaj olunmuş formada yayımlandı. Burada Qırğızıstan mediasının nümayəndələri, hökumət rəsmiləri ilə yanaşı Qırğızıstanda yaşayan digər xalqların da nümayəndələri iştirak edirdilər. Film böyük

marağa səbəb oldu. Bu filmin nümayişinin təşkil olunmasını Xocalı faciəsinin, eyni zamanda Dağlıq-Qarabağ problemi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində görülən təsirli addımlardan biri kimi qiymətləndirmək olar.

2013-cü il martın 29-da. Bişkekdəki Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu (TDSDF), Qırğızıstan Azərbaycanlılarının Əlaqələndirmə Mərkəzi İctimai Birliyi, İssıkkuldakı "Xəzər" İctimai Birliyi, Qırğızıstan Azərbaycanlıları Konqresi İctimai Birliyi, Kara Balta Azərbaycanlılarının "Содружество" Cəmiyyəti 31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı mərasim keçirmiş və bəyanat yaymışlar. Bəyanatın mətnin ingilis dilinə tərcümə olunaraq Bişkekdəki səfirliklərə, beynəlxalq təşkilatların nümayəndəliklərinə təqdim olunmuşdur.

2013-cü il 25 may tarixində Bişkekdə fəaliyyət göstərən "Azəri" Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə paytaxt yaxınlığındakı Kant şəhərində soydaşlarımızın bu ölkəyə sürgün olunmasının 80 illiyi ilə bağlı mərasim keçirilmişdir.

Tədbirdən sonra səfir və AMM-in rəhbərləri Kantdakı 4 nömrəli orta məktəbin nəzdində fəaliyyət göstərən Azərbaycan məktəbinə getmişlər. Səfir özü ilə gətirdiyi dərslikləri və Azərbaycana aid digər ədəbiyyatları məktəbə hədiyyə etmişdir. Onu da qeyd edək ki, azərbaycanlıların Mərkəzi Asiyaya sürgün olunmasının 80 illiyi ilə əlaqədar tədbirlər silsilə şəklində davam etmişdir. Bu istiqamətdə növbəti və daha genişmiqyaslı tədbir 2013-cü il 5 noyabr tarixində Azərbaycanın Qırğızıstandakı səfirliyi, "Azəri" Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilmiş beynəlxalq konfrans olmuşdur. Konfransda Qırğızıstanın dövlət və hökumət nümayəndələri, deputatlar, tanınmış ictimai-siyasi xadimlər, alimlər, Qırğızıstan Xalqları Assambleyasına daxil olan diaspor təşkilatlarının rəhbərləri, Azərbaycan diasporunun fəalları, repressiyaya məruz qalmış azərbaycanlılar və onların ailə üzvləri, Türkiyədə, Rusiyada, Qazaxıstanda çalışan ziyalılar, Qırğızıstanda akkreditə olunmuş

diplomatik korpusun təmsilçiləri, o cümlədən Azərbaycan Respublikası Diasporlarla İşi üzrə Dövlət Komitəsinin rəsmisi iştirak etmişlər. Konfransın əvvəlində repressiya qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, "Sürgün olunmuş Azərbaycanlılar" adlı sənədli film nümayiş etdirilmişdir. Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov Prezident İlham Əliyevin konfrans iştirakçılarına salamlarını və xoş arzularını çatdırmışdır. Səfir çıxışında bildirmişdir ki, repressiya illərində xalqımızın ən istedadlı nümayəndələri, ziyalıları məhv edilmiş, baş verən hadisələr xüsusi amansızlığı ilə seçilmişdir. Repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı-hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Orta Asiyaya və Qazaxıstana sürgün olunmuşdur. Bununla da Azərbaycanın düşünən beyinləri məhv edilmiş və ya işgəncələrə məruz qalmışdır. Bu da faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları arasında birinci yeri tutmuşdur.

Səfir bildirmişdir ki, Mərkəzi Asiya xalqları sürgün olunmuş azərbaycanlıları öz doğmaları kimi qəbul etmişlər. Sürgün olunanların bir çoxu Qırğızıstanda məskunlaşmışlar və hazırda bu ölkədə 20 minə yaxın soydaşımız yaşayır. Buradakı həmvətənlərimizin əksəriyyəti 1933-1937-ci illərdə Mərkəzi Asiyaya sürgün edilən repressiya qurbanlarının ailə üzvləridir. Bu insanlar qürbətdə hörmət qazanaraq azərbaycanlıların başını uca tutmuşlar və hazırda Azərbaycan-Qırğızıstan dostluq münasibətlərinin möhkəmləndirilməsinə töhfə verirlər.

Konfransda Qırğızıstan Respublikası Prezident Aparatının etnik, dini və vətəndaş cəmiyyəti ilə qarşılıqlı əlaqələr şöbəsinin müdiri Mira Karıbayeva Prezident Almazbek Atambayevin iştirakçılara ünvanlandığı müraciəti oxumuşdur. Tədbirdə Qırğızıstandakı "Azəri" Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Əzizağa Əliyevin məruzəsi dinlənilmişdir. Çıxışlarda Azərbaycan, Qazaxıstan, Özbəkistan və Qırğızıstanda 1933-1940-cı illər arxivlərinin açılması, tarixi həqiqətlərin tam üzə çıxarılması, bu

faciəyə həsr olunmuş əsərlərin yazılması və sənədli filmlərin çəkilməsi məsələlərindən də bəhs edilmişdir. Sonra konfrans iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Qırğızıstan dövlətinin başçısı Almazbek Atambayevə müraciət qəbul etmişlər. Bütün bu tədbirlər beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin düzgün işıqlandırılması istiqamətində böyük əhəmiyyətə malikdir. Qırğızıstanda fəaliyyət göstərən Azərbaycan diasporunun uğurları ilə yanaşı bir sıra problemləri də mövcuddur. Bunlardan ən çox nəzərə çarpanı Bazar günü məktəblərinin fəaliyyətinin demək olar ki, formal xarakter daşımasıdır. Hansı ki, bu məktəblərin işinin yüksək səviyyədə qurulması öz ana dilini mükəmməl bilən, öz milli kimliyinə sahib çıxa bilən gələcək Azərbaycan diasporunun qarantıdır.

## 2.5. Tacikistan Respublikasında Azərbaycan diasporunun fəaliyyəti

Mərkəzi Asiya respublikalarından biri olan Tacikistan Respublikası azərbaycanlıların miqrasiya etdiyi ölkələrdəndir. Tacikistan respublikası Mərkəzi Asiyanın türkdilli olmayan yeganə respublikasıdır. Türkdilli olmasa da tacik xalqı ilə xalqımızın ortaq meyarları çoxdur. Bunlardan tarixi əlaqələri, eyni dinə sitayiş etməyimizi, mədəni, mənəvi yaxınlığımızı misal göstərmək olar. Tacik-fars ədəbiyyatının klassikləri kimi ehtiram bəslənilən Rudəki, Sədi və digərləri Azərbaycanda sevildikləri kimi, dünya ədəbiyyatı xəzinəsinə misilsiz töhfə vermiş böyük Azərbaycan şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli də tacik xalqı tərəfindən daima hörmətlə qarşılanmışdır.

Tacikistanda təxminən 4 min nəfərə yaxın azərbaycanlı yaşayır. Onların bir qismi Mərkəzi Asiyaya, o cümlədən Tacikistana XX əsrin 20-30-cu illərində savadsızlığı ləğv etmək məqsədilə göndərilən ziyalıların, digərləri isə Stalin repressiyasına məruz qalan azərbaycanlıların övladlarıdır. Azərbaycanlı Mirzə Davud Hüseynov 1930-1933-cü illərdə Tacikistan KP MK-nın birinci katibi olmuşdur [171].

Cədvəl 2.4 (16)

**Azərbaycan Respublikasından Mərkəzi Asiya respublikalarına miqrasiya edən azərbaycanlıların illər üzrə sayı**

| İllər | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycandan gedənlərin cəmi | 4955 | 514 | 1554 | 498 | 257 | 479 | 317 | 259 | 179 | 201 | 144 |
| Özbəkistan Respublikasına | 1234 | 144 | 94 | 148 | 45 | 103 | 46 | 32 | 18 | 13 | 12 |
| Qazaxıstan Respublikasına | 1975 | 204 | 188 | 189 | 156 | 153 | 174 | 170 | 125 | 149 | 121 |
| Qırğızıstan Respublikasına | 212 | 41 | 34 | 73 | 18 | 30 | 31 | 16 | 15 | 25 | 2 |
| Tacikistan Respublikasına | 128 | 7 | 3 | 2 | 1 | 6 | 3 | 1 | - | 1 | 1 |
| Türkmənistan Respublikasına | 1406 | 118 | 1235 | 86 | 37 | 187 | 63 | 40 | 21 | 13 | 8 |

Tacikistan Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 29 may 1992-ci ildə qurulmuşdur. 2007-ci ilin avqust ayında Azərbaycan Respublikasının Tacikistan Respublikasında, 2008-ci ildə isə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlamışdır. 8 may 1998-ci ildə Ümummilli lider Heydər Əliyevin 75 illik yubiley tədbirləri ilə əlaqədar Tacikistan Respublikasının baş naziri müavininin başçılıq etdiyi nümayəndə heyəti Bakıda səfərdə olmuşdur. 1996-1999-cu illərdə "BMT ilə ATƏT arasında əməkdaşlıq haqqında" qətnamə layihəsində Azərbaycanın Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubluğunu təsdiqləyən, mühüm əhəmiyyət kəsb edən düzəliş Tacikistan tərəfindən dəstəklənmişdir [171].

10 dekabr 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin VIII zirvə görüşündə iştirak etmək üçün Tehranda səfərdə olarkən Tacikistan Prezidenti Emoməli Rəhmanovla görüşmüşdür.

15 Mart 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistana rəsmi səfər etmişdir. Hər iki ölkənin maraqlarına xidmət edən bir sıra məsələlərlə bağlı hökumətlərarası sazişlər imzalanmışdır. İmzalanma mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransı zamanı Prezident Emoməli Rəhmon bəyanatında bildirmişdir: "...Dövlətlər arasında bütün mübahisələrin dincliklə həllinin qəti tərəfdarı olan Tacikistan Dağlıq Qarabağ münaqişəsinin tərəflər arasında danışıqların bərpasını alqışlayır və bunu dünyanın bu çox mühüm regionunda sülhün və sabitliyin möhkəmlənməsi üçün yeganə vasitə sayır..." [173].

13 avqust 2007-ci ildə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycana rəsmi səfərə gəlmişdir. Prezident İlham Əliyev və Prezident Emoməli Rəhman təkbətək görüş keçiriblər. Görüşdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulanmışdır, qarşılıqlı rəsmi səfərlərin mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırılmışdır. Ölkələrimiz arasında

iqtisadi əlaqələrin genişləndirilməsi üçün potensial imkanlardan tam istifadə edilməsinin zəruriliyi bildirilmişdir. Bir sıra sahələrdə əməkdaşlıq haqda yeni sənədlər imzalanmışdır [173].

2007-ci ilin oktyabrında Azərbaycan Respublikasında Tacikistan Respublikasının mədəniyyət günləri keçirilmişdir. Tacikistan Respublikasının Mədəniyyət Naziri Mirzoşoxrux Asrorovun rəhbərlik etdiyi 90 nəfərlik nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. 2008-ci ilin 9-12 noyabrında isə Tacikistanda "Azərbaycan mədəniyyət günləri" keçirilmişdir. Mədəniyyət günlərində Azərbaycan Respublikasının 73 nəfərdən ibarət nümayəndə heyəti Tacikistan Respublikasında səfərdə olmuşdur [173]. Mədəniyyət günlərinin yekunu olaraq Tacikistan Respublikasının Prezidenti İmomali Rəhmon nümayəndə heyətini qəbul etmişdir. Tacikistan Respublikasında Azərbaycan Respublikasının dramaturqlarının əsərləri, eləcə də, "Didor-Düşənbə" 3-cü Beynəlxalq Kino Festivalında Azərbaycan kinematoqrafçıları Əli İsa Cabbarovun qısametrajlı "Düyün" və Murad İbrahimbəyovun tammetrajlı "Üç qız" filmi nümayiş etdirilmişdir.

Bütün bu qarşılıqlı səfərlər, əldə olunan razılaşmalar ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə, bu isə öz növbəsində Tacikistanda yaşayan azərbaycanlıların hüquqlarının qorunmasına, rifahlarının yaxşılaşmasına öz tövhəsini verməkdədir.

Tacikistan Respublikasında Azərbaycan diasporunun təşkilatlanması digər Mərkəzi Asiyanın respublikalarına nisbətən daha gec Dünya Azərbaycanlılarının I Qurultaylarından sonrakı dövrə təsadüf edir. Hansı ki, digər Mərkəzi Asiya respublikalarında (Türkmənistan Respublikası istisna olmaqla) Azərbaycan diasporunun təşkilatlanması 1990-cı illərdən başlamış və bir sıra təşkilatların yaranması ilə nəticələnmişdir.

2011-ci ilin iyununda Düşənbədə bir qrup azərbaycanlı diaspor nümayəndələrinin təşəbbüsü ilə "Tacikistan Azərbaycanlılarının Dostluq və Mədəniyyət Mərkəzi yaradılmışdır. Mərkəz çoxsaylı soydaşlarımızı öz sıralarında birləşdirmişdir.

Müxtəlif sənət, ixtisas və peşə sahibi olan azərbaycanlılar bu təşkilata böyük ümidlə üzv olmuşlar. Mərkəzin məqsədi Tacikistan Respublikasında Azərbaycan Respublikasının mədəniyyətini, dilini, tarixi dəyərlərini, adət-ənənələrini Tacikistan Respublikasında yaşayan həmvətənlərimiz arasında qorunub saxlanılması və təbliği, iki xalq arasında dostluq münasibətlərinin möhkəmləndirilməsidir. Həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, ermənilərin işğalçılıq siyasəti, problemin sülh yolu ilə həlli istiqamətində Azərbaycanın təşəbbüsləri, ölkəmizdə aparılan sosial-iqtisadi inkişaf, hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu istiqamətində görülən işlər haqqında Tacikistan ictimaiyyətinə düzgün və reallıqları əks etdirən məlumatların çatdırılması Mərkəzin fəaliyyətinin önəmli hissəsini təşkil edir. Azərbaycan diasporunun görkəmli nümayəndəsi, vətənpərvər ziyalısı olan Fəxrəddin Əsədovun rəhbərlik etdiyi bu Mərkəzin nəzdində Heydər Əliyev Muzeyi, "Bazar günü" məktəbi, müxtəlif dərnəklər fəaliyyət göstərir [20, 427].

2011-ci ilin fevral ayında Azərbaycan diaspor təşkilatlarının və Azərbaycanın Tacikistandakı səfirliyinin təşəbbüsü ilə Xocalı soyqırımının qurbanları anılmışdır. Tədbirdə qardaş tacik xalqının nümayəndələri, jurnalistlər iştirak etmiş, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Daha sonra Xocalı şəhərinin müdafiəçiləri və dinc sakinlərinə qarşı törədilmiş soyqırımı haqqında məlumat vermiş, erməni terrorçuların keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı ilə birgə Xocalını tamamilə yer üzündən sildiklərini, qətlə yetirilən insanların cəsədlərinin təhqir edildiyini, əsirlərə misli görünməmiş əzab verildiyini bildirmişdir. Mərasim iştirakçılarına Xocalıda törədilən faciənin ancaq Azərbaycan xalqına qarşı deyil, ümumən insanlığa qarşı ən ağır cinayətlərdən biri olduğunu bildirmişlər. Tədbirə gələnlər səfirlikdə Xocalı faciəsini əks etdirən kitab və şəkillərdən ibarət sərgi ilə də tanış olmuş, faciə ilə bağlı sənədli filmə baxmışlar. Xocalı faciəsi haqqında materiallar toplusu, həmçinin Heydər Əliyev Fondu tərəfindən ingilis dilində

Qarabağ haqqında çap olunmuş kitabçalar, “Erməni terroru”, “Xocalı soyqırımı” kitabları Tacikistandakı səfirlik və beynəlxalq təşkilatların nümayəndəliklərinə göndərilmişdir [38].

2011-ci il sentyabrın 7-də Düşənbədə Azərbaycanın Tacikistandakı səfirliyində Heydər Əliyev adına Mədəniyyət və Dostluq Mərkəzinin fəalları ilə görüş keçirilmişdir. Azərbaycanın Tacikistandakı müvəqqəti işlər vəkili İlham Zamanov diaspor fəalları ilə görüşərək Mərkəzlə birgə görüləcək işlərdən danışmışdır.

Azərbaycan diasporunun həmişə böyük həvəslə və şənliklə qeyd etdiyi bayram tədbirlərindən biri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Dünyanın hər yerində olduğu kimi, Tacikistan Respublikasında da fəaliyyət göstərən Azərbaycan diasporu 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü sanki diasporunun “yaradılış günü” hesab edirlər. 28 dekabr 2012-ci ildə Azərbaycanın Tacikistandakı səfirliyi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə mərasim keçirmişdir. Tədbirdə Tacikistandakı Azərbaycan diasporunun fəalları, azərbaycanlı iş adamları, ziyalıları, jurnalistlər iştirak etmişlər. Azərbaycanın Tacikistandakı müvəqqəti işlər vəkili İlham Zamanov bildirmişdir ki, bu bayram Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. İlk dəfə Naxçıvanda ümummilli liderin təşəbbüsü ilə qeyd olunan bu bayram sonra Azərbaycanın hər yerində keçirilməyə başlamışdır. İ.Zamanov Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar haqqında ətraflı məlumat vermişdir. Düşənbədəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin sədri, Tacikistanın Əməkdar Hüquqşünası Dilbər Rəsulova Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əhəmiyyətindən, Azərbaycan Prezidenti İlham Əliyevin xaricdə yaşayan azərbaycanlılara xüsusi diqqət və qayğısından danışmışdır. Sonra “Azərbaycana xoş gəlmisiniz!” adlı sənədli film nümayiş etdirilmiş və diasporun fəal üzvləri mükafatlandırılmışlar.

2013-cü ilin dekabr ayında Düşənbədə keçirilən bayram tədbiri də çox böyük maraqla qarşılanmışdır. Tədbirdə tanınmış

